# NARKOTİK VASİTƏLƏR, PSİXOTROP MADDƏLƏR VƏ PREKURSORLAR

## (SƏNƏDLƏR TOPLUSU)

SCAD is a regional programme for the prevention of drug abuse and drug trafficking in Southern Caucasus
SCAD is funded by the European Union

www.scad-az.org

Humanitar Elmlər Zalı

# SCAD

## Southern Caucasus Anti-Drug Programme

## Cənubi Qafqazda Narkotiklərə Nəzarət Proqramı

***SCAD is a regional programme for the prevention of drug abuse and drug trafficking in Southern Caucasus***
***SCAD is funded by the European Union***

***www.scad-az.org***

X621
N 23

«CƏNUBİ QAFQAZDA NARKOTİKLƏRƏ NƏZARƏT» (SCAD) REGİONAL YARDIM PROQRAMI BU KİTABIN ƏRSƏYƏ GƏLMƏSİNDƏ ƏZİYYƏT ÇƏKMİŞ BÜTÜN ŞƏXSLƏRƏ DƏRİN TƏŞƏKKÜRÜNÜ BİLDİRİR.

236808

# NARKOTİK VASİTƏLƏR, PSİXOTROP MADDƏLƏR VƏ PREKURSORLAR

## (SƏNƏDLƏR TOPLUSU)

# ÖN SÖZ

*Ötən yüzilliyin bəlalarından sayılan narkomaniya əfsuslar olsun ki, XXI əsrin də ağrılı qlobal problemləri sırasında qalmaqdadır.*

*Bu bəla dünyanın bütün dövlətlərində mövcuddur və təəssüflər olsun ki, Azərbaycandan da yan keçməmişdir.*

*Bu gün bütün dünyada narkotizmin yayılmasının qarşısının alınmasında dünya dövlətləri BMT-nin qəbul etdiyi üç əsas Konvensiyanın (1961, 1971 və 1988-ci illər) ətrafında sıx birləşərək vahid mubarizə metodları hazırlamaqla bu dəhşətli bəlanın qarşısının alınmasında birgə səy nümayiş etdirirlər.*

*Müstəqil Azərbaycan Respublikası artıq on beş ilə yaxındır ki, beynəlxalq ictimaiyyət, aparıcı dünya dövlətləri ilə birgə bu problemin həlli yolunda ardıcıl və məqsədyönlü addımlar atır. Bu illər ərzində Azərbaycanda narkomaniyanın qarşısının alınması sahəsində müxtəlif istiqamətli işlər həyata keçirilmişdir ki, bunların da bəzi mühüm məqamlarını nəzərdən keçirmək çox vacibdir.*

*Belə ki, 1992-ci ildə Azərbaycan Respublikası BMT-yə tam hüqüqlu üzv olduqdan sonra "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" BMT-nin 1988-ci il Konvensiyasına qoşulmuşdur.*

*1996-ci ildə Azərbaycan Respublikasının Prezidenti, Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə Üzrə Dövlət Komissiyasının yaradılmasına dair sərəncam imzalanmışdır. Bu sərəncamın imzalanması Azərbaycan Hökumətinin bu problemin dövlət səviyyəsində həllinə maraqlı olduğunu bir daha sübut edir.*

*1997-ci ildə Azərbaycan Respublikasının Prezidenti, Ümummilli Liderimiz Heydər Əliyev BMT-nin Yaxın və Orta*



*Şərqdə Narkotiklərin Qanunsuz Dövriyyəsinə Nəzarət üzrə Yardımçı Komissiyasının 32-ci sessiyasında çıxış edərək Azərbaycan Respublikasının bu problemin həllində ardıcıl addımlar atacağını və dünya ictimaiyyəti ilə bu məsələdə bir yerdə olacağını bir daha bəyan etmişdir.*

*1998- ci ildə Azərbaycan Respublikası BMT-nin "Narkotik vasitələr haqqında" 1961-ci il və "Psixotrop maddələr haqqında" 1971-ci il Konvensiyalarına qoşulmuşdur.*

*1999-cu ildə "Narkotik vasitələr, psixotrop maddələr və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu Milli Məclisdə qəbul olunaraq ölkə başçısı tərəfindən imzalanmışdır.*

*2000-ci ildə Azərbaycan Respublikası Avropa Şurasına tam hüquqlu üzv olduqdan sonra Avropa və dünya birliyinə inteqrasiya zəminində Avropa İttifaqı və BMT-nin İnkişaf Proqramı ilə birgə "Cənubi Qafqazda Narkotiklərə Nəzarət" (SCAD) Regional Yardım Proqramı fəaliyyətə başlamışdır.*

*2001-ci ildə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən "Narkoloji xidmət və nəzarət haqqında" Qanun qəbul olunmuşdur.*

*2005-ci ildə isə görülən işlərin məntiqi davamı kimi beynəlxalq qurumların tövsiyyələrinə, qoşulduğumuz Konvensiyaların müddəalarına uyğun olaraq "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanunu Milli Məclisdə qəbul olunmuş və Möhtərəm Prezidentimiz İlham Əliyev cənabları tərəfindən imzalanmışdır.*

*Bu gün qətiyyətlə demək olar ki, Azərbaycan Respublikasında narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi ilə bağlı möhkəm qanunvericilik bazası yaradılmış və bunun mövcudluğu gələcək uğurlu fəaliyyətin zəminidir.*

*Bu bəşəri bəlanın qarşısının alınmasında işlərin uğurunu təmin edən digər amillərdən biri də Azərbaycan hökuməti ilə nüfuzlu beynəlxalq təşkilatlar arasında münasibətlərin daha düzgün, qarşılıqlı hörmət və əməkdaşlıq çərçivəsində qurulmasıdır. 2001 - 2005-ci illərdə SCAD Proqramının gördüyü işlər belə bir əməkdaşlığa bariz nümunədir.*

*Bu gün tanış olacağınız sənədlər toplusu da bu qarşılıqlı fəaliyyətin, düzgün qurulmuş işin məntiqi nəticəsidir. Bu kitab SCAD Proqramının əməkdaşlarının müvafiq hökumət təşkilatları ilə yaxından iş birliyinin məhsuludur.*

*Toplunun yaranmasında bizə kömək edən, zəhmət çəkən hər bir kəsə minnətdarlığımızı bildirərək əmin olmaq istəyirik ki, o, sizə Azərbaycan Respublikasında narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi ilə bağlı qanunvericilik sahəsində əsil bələdçi olacaqdır.*

*Bu çətin və şərəfli işinizdə hər bir Azərbaycan vətəndaşına əzmkarlıq və müvəffəqiyyətlər arzularıyla*

**Məzahir Əfəndiyev**
**Milli Koordinator**



# NARKOTİK VASİTƏLƏRİN, PSİXOTROP MADDƏLƏRİN VƏ ONLARIN PREKURSORLARININ DÖVRİYYƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu qanun narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi ilə əlaqədar yaranan ictimai münasibətləri tənzimləyir, bu sahədə dövlət orqanlarının, fiziki və hüquqi şəxslərin hüquq və vəzifələrini müəyyən edir.

## I FƏSİL
## ÜMUMİ MÜDDƏALAR

**Maddə 1. Əsas anlayışlar**

1.0. Bu qanunda istifadə edilən əsas anlayışlar aşağıdakılardır:

1.0.1. narkotik vasitələr – BMT-nin 1961-ci il tarixli "Narkotik vasitələr haqqında" Vahid Konvensiyasında, 1971-ci il tarixli "Psixotrop maddələr haqqında" Konvensiyasında, 1988-ci il tarixli "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" Konvensiyasında, habelə Azərbaycan Respublikasının Qanunu ilə təsdiq olunmuş siyahılarda belə təsnif edilmiş sintetik və ya təbii mənşəli maddələr, onların preparatları, o cümlədən tərkibində narkotik maddələr olan bitkilərdir.

1.0.2. psixotrop maddələr - BMT-nin 1971-ci il tarixli "Psixotrop maddələr haqqında" Konvensiyasında, 1988-ci il tarixli "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" Konvensiyasında, habelə Azərbaycan Respublikasının Qanunu ilə təsdiq olunmuş siyahılarda belə təsnif edilmiş sintetik və ya təbii mənşəli maddələr, onların preparatlarıdır.

1.0.3. prekursorlar – narkotik vasitələrin və psixotrop maddələrin hazırlanması məqsədi ilə istifadə edilən kimyəvi

maddələr və onların duzları, habelə Azərbaycan Respublikasının qanunvericiliyi ilə yuxarıda göstərilən kateqoriyalara aid edilmiş və idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya (xüsusi razılıq) tələb olunan kimyəvi maddələr və onların duzlarıdır;

1.0.4. narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi - Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada dövriyyəsi nəzarət edilən, məhdudlaşdırılmış və ya qadağan edilmiş (bundan sonra - nəzarət edilən) narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının Azərbaycan Respublikasının ərazisinə gətirilməsi (idxalı), Azərbaycan Respublikasının ərazisindən çıxarılması (ixracı) və ya onların tranzit nəql edilməsi, habelə həmin narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının saxlanılması, alınması, daşınması, göndərilməsi, məhv edilməsi, istifadə edilməsi və onlar barəsində Azərbaycan Respublikasının qanunvericliyi ilə nəzərdə tutulmuş digər əməliyyatların aparılmasıdır;

1.0.5. narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi – Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları ilə bağlı törədilən hər hansı hərəkətlərdir;

1.0.6. tərkibində narkotik maddələr olan bitkilərin qanunsuz kultivasiyası – Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla tərkibində narkotik maddələr olan bitkilərin əkilməsi, yetişdirilməsi və ya toplanmasıdır;

1.0.7. narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz hazırlanması – həyata keçirilməsi üsulundan asılı olmayaraq Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla istehlaka yarayan və ya yaramayan narkotik vasitələrin və



psixotrop maddələrin bilavasitə hazırlanmasına, yəni narkotik vasitələrin və psixotrop maddələrin istehsalına, emalına, saflaşdırılmasına və ya bir narkotik vasitənin, yaxud psixotrop maddənin digər narkotik vasitəyə və ya psixotrop maddəyə çevirilməsi yolu ilə narkotik vasitələrin və psixotrop maddələrin alınmasına, yaxud onların təsirinin gücləndirilməsinə, tərkibində narkotik maddələr olan bitkilərin kultivasiyasına, narkotik vasitələrin və psixotrop maddələrin alınmasına yönəldilmiş hərəkətlərdir;

1.0.8. narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz daşınması və ya göndərilməsi – həyata keçirilməsi üsulundan asılı olmayaraq Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla narkotik vasitələrin və psixotrop maddələrin şəxsin özündə, poçtla, nəqliyyat vasitələri ilə, daşınan predmetin narkotik vasitələr və psixotrop maddələr olması haqqında məlumatı olmayan şəxsin vasitəsi ilə və digər yollarla yerinin dəyişdirilməsinə yönəldilmiş bütün hərəkətlərdir;

1.0.9. narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz əldə edilməsi - həyata keçirilməsi üsulundan asılı olmayaraq Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının alınmasına, hədiyyə və ya qarşılıqlı hesablaşma vasitəsi kimi qəbul edilməsinə, başqa mallara və əşyalara dəyişdirilməsinə, mənimsənilməsinə və ya hər hansı digər üsulla onlara yiyələnməyə yönəldilmiş bütün hərəkətlərdir;

1.0.10. narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz saxlanması – məqsədindən asılı olmayaraq Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla şəxsin idarəçiliyində olan narkotik vasitələrin və psixotrop maddələrin öz sərəncamında saxlanmasına yönəldilmiş bütün hərəkətlərdir;

1.0.11. narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz satılması – miqdarından asılı olmayaraq Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla narkotik vasitələrin və psixotrop maddələrin əvəzli və ya qazanc əldə etmək, yaxud digər şəxsi maraq məqsədi ilə yayılmasına yönəldilmiş hərəkətlərdir;

1.0.12. narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz olaraq orqanizmə yeridilməsi - narkotik vasitələrin və psixotrop maddələrin başqa şəxsin orqanizminə onun iradəsinə zidd olaraq hər hansı üsulla yeridilməsidir;

1.0.13. narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz əlavə edilməsi – narkotik vasitələrin və psixotrop maddələrin ərzaq məhsullarına, içkilərə və ya qidaya istehlakçının xəbəri olmadan əlavə edilməsidir;

1.0.14. narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz istehlakı – Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla tibbi göstəriş əsasında həkimin təyinatı olmadan Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzarət edilən narkotik vasitələrin və psixotrop maddələrin qəbul edilməsidir;

1.0.15. narkotik vasitələrin və psixotrop maddələrin başqa şəxs tərəfindən qanunsuz istehlakına yardım edilməsi – narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz istehlakı üçün başqa şəxslərə hər hansı bir şəxs tərəfindən vəsait, avadanlıq və ya yer verilməsi, yaxud da belə istehlaka bilavasitə köməklik göstərilməsidir;

1.0.16. narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz istehlakına təhrik etmə – bədii, audio, video və sair materialların, o cümlədən kompüterləşdirilmiş informasiya və digər vasitələr ilə düzünə və ya dolayı yolla narkotik vasitələrin və psixotrop maddələrin istehlakına təhrik etmədir;

1.0.17. narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz istehlakına cəlb etmə – nəticəsindən asılı olmayaraq



düzünə və ya dolayı yolla digər şəxslərin narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz istehlakına cəlb edilməsidir (təklif etmə, qonaq etmə və sair);

1.0.18. narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə – Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla tibbi göstəriş əsasında həkimin təyinatı olmadan narkotik vasitələrdən və psixotrop maddələrdən asılılığa gətirə biləcək şəkildə onların qəbul edilməsidir;

1.0.19. narkomanlıq – xroniki intoksikasiya doğuran, narkotik vasitələrin və psixotrop maddələrin sui-istifadəsi nəticəsində yaranmış narkotik vasitələrdən və psixotrop maddələrdən psixi və (və ya) fiziki asılılıqla, o cümlədən psixi və davranış pozuntuları ilə ifadə olunan xəstəlik vəziyyətidir;

1.0.20. narkomanlıq xəstəliyinə düçar olan şəxs – narkotik vasitələrin və psixotrop maddələrin sui-istifadəsi nəticəsində onlardan psixi və (və ya) fiziki asılılıq vəziyyətinə düşən, o cümlədən psixi və davranış pozuntuları ilə müşahidə olunan və barəsində Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada narkoloji-tibb müəssisəsi tərəfindən "narkomanlıq" diaqnozu təyin edilmiş şəxsdir;

1.0.21. könüllü müalicə – özünün və ya onun qanuni nümayəndəsinin razılığı ilə xəstənin narkomanlıqdan narkoloji-tibb müəssisəsində müalicəsidir;

1.0.22. məcburi müalicə – Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş hallarda və qaydada həyata keçirilən narkomanlıq xəstəliyinə düçar olan şəxsin ixtisaslaşdırılmış tibb müəssisəsində məcburi müalicəsidir.

**Maddə 2. Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında qanunvericilik**

2.1. Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekur-

sorlarının dövriyyəsi haqqında qanunvericilik Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, bu qanundan və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından ibarətdir.

2.2. Bu qanunla Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr arasında ziddiyyət müəyyən edildikdə, həmin beynəlxalq müqavilələrin müddəaları tətbiq olunur.

## II FƏSİL

## NARKOTİK VASİTƏLƏRİN, PSİXOTROP MADDƏLƏRİN VƏ ONLARIN PREKURSORLARININ DÖVRİYYƏSİ İLƏ ƏLAQƏDAR FƏALİYYƏT

### Maddə 3. Narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsi ilə əlaqədar fəaliyyətin məqsədi

Azərbaycan Respublikasının ərazisində narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə yalnız onların tibbi praktikada, elmi-tədqiqat işlərində tətbiqi və cinayətkar fəaliyyətin qarşısının alınması məqsədi ilə yol verilir.

### Maddə 4. Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsinin əsasları və qaydaları

Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsinə bu qanunla və ona uyğun olaraq qəbul edilmiş digər qanunvericilik aktları ilə müəyyən edilmiş əsaslarla və qaydada yol verilir.

### Maddə 5. Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi

5.1. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı Azərbaycan Respublikasının ərazisində Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının



dövriyyəsinin tənzimlənməsi məqsədi ilə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsinə dair siyahıların layihəsini tərtib edir və qərarlar qəbul edir.

5.2. Dərman vasitələrinin təcrübəvi nümunələrinin işlənib hazırlanması halları istisna olmaqla, Azərbaycan Respublikasının ərazisində narkotik vasitələrin istehsalı və tərkibində narkotik maddələr olan bitkilərin kultivasiyası qadağandır.

5.3. Tibbi məqsədlərlə istifadə edilən narkotik vasitələrin Azərbaycan Respublikasının ərazisinə gətirilməsi yalnız dövlət orqanları tərəfindən həyata keçirilir. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı ölkə daxilində narkotik vasitələrə olan illik tələbatı müəyyən edir və narkotik vasitələrin dövriyyəsi yalnız həmin tələbat həcmində həyata keçirilir. Azərbaycan Respublikasının ərazisinə göstərilən miqdardan artıq narkotik vasitələrin gətirilməsinə yalnız müharibə, fövqəladə vəziyyət və ya təbii fəlakət şəraitində yol verilir.

### Maddə 6. Narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsi, onların prekursorlarının idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar fəaliyyət növlərinə lisenziyanın (xüsusi razılığın) verilməsi

6.1. Narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsində, onların prekursorlarının idxalında, ixracında, tranzit nəql edilməsində və istehsalında iştirak edən şəxslərin fəaliyyəti Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilən lisenziya (xüsusi razılıq) əsasında həyata keçirilir.

6.2. Narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsində, onların prekursorlarının idxalında, ixracında, tranzit nəql edilməsində və istehsalında iştirak edən şəxslərə verilmiş hər bir lisenziya (xüsusi razılıq) barədə bildiriş dərhal narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə, onların prekursorlarının idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına dair ümummilli məlumat bankına daxil edilməsi üçün Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına göndərilir. Həmin bildirişdə hüquqi və fiziki şəxsin tam adı, fəaliyyət növü, ünvanı, onlar barədə məlumatlar,

lisenziyanın (xüsusi razılığın) müddəti, istifadə olunan narkotik vasitələrin və psixotrop maddənin, onların prekursorlarının adı (azərbaycanca və latınca), saxlanılma yeri, istifadə üçün yararlıq müddəti və Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş digər məlumatlar əks olunur.

6.3. Narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsində, onların prekursorlarının idxalında, ixracında, tranzit nəql edilməsində və istehsalında iştirak etmək səlahiyyətinə malik olan şəxslər həmin dövriyyə çərçivəsində hər hansı əməliyyatları yalnız müvafiq fəaliyyət növü ilə məşğul olmaq üçün lisenziyası (xüsusi razılığı) olan əks tərəflə aparmalıdırlar. Bu tələbin pozulması Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məsuliyyətə səbəb olur.

6.4. Narkotik vasitələrin və psixotrop maddələrin təcrübəvi hazırlanması yalnız dövlət orqanları tərəfindən həyata keçirilə bilər. Alınmış hər bir yeni narkotik vasitə və psixotrop maddə barədə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına dərhal məlumat verilir. Həmin məlumat 10 gün müddətində Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müvafiq beynəlxalq təşkilatlara göndərilir.

### Maddə 7. Narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsi və onların prekursorlarının idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı sahəsində dövlət orqanlarının vəzifələri

7.1. Narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsinin və onların prekursorlarının idxalının, ixracının, tranzit nəql edilməsinin və istehsalının tənzimlənməsi məqsədi ilə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı:

7.1.1. Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin və psixotrop maddələrin, habelə Azərbaycan Respublikasının ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya (xüsusi razılıq) tələb olunan prekursorların siyahılarının layihələrini tərtib edir;

7.1.2. bu qanuna əsasən narkotik vasitələrin və psixotrop



maddələrin alınması, saxlanılması, satılması, əldə edilməsi, paylaşdırılması, buraxılması, daşınması, göndərilməsi, onlardan istifadə edilməsi, habelə narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə dair sənədlərin tərtib edilməsi, saxlanılması və onların dövriyyəsi ilə əlaqədar Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər əməliyyatların həyata keçirilməsi qaydasını müəyyən edir;

7.1.3. narkotik vasitələrin və psixotrop maddələrin təcrübəvi hazırlanması qaydasını və bu fəaliyyətlə məşğul olan dövlət orqanlarının dairəsini müəyyən edir;

7.1.4. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müsadirə edilmiş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi qaydasını müəyyən edir;

7.1.5. narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə dair Milli İnformasiya Mərkəzini yaradır;

7.1.6. narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsinə və onların prekursorlarının idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına, habelə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirak edən, o cümlədən narkomanlıq xəstəliyinə düçar olan şəxslərə dair ümummilli məlumat bankını təşkil edir, həmin məlumat bankına məlumatların göndərilməsi və oradan məlumatların alınması qaydasını müəyyən edir;

7.1.7. narkotik vasitələrin və psixotrop maddələrin tibbi məqsədlərlə istifadə edilməsi qaydasını və şərtlərini, habelə narkomanlıq xəstəliyinə düçar olan şəxslər barəsində tibbi tədbirlərin tətbiq edilməsi qaydasını müəyyən edir;

7.1.8. qanunsuz dövriyyədən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müsadirə edilmiş, lakin dərman preparatları şəklində olduğuna və tibbi məqsədlərlə istifadə oluna biləcəyinə görə məhv edilməsi məqsədəuyğun olmayan narkotik vasitələrin və psixotrop maddələrin tibbi məqsədlərlə istifadə edilməsi üçün təhvil verilməsi qaydasını müəyyən edir;

7.1.9. narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi, onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı, habelə narkomanlığın yayılması ilə mübarizə üzrə məqsədləri, vəzifələri və fəaliyyət istiqamətləri, o cümlədən tələb olunan maliyyə vəsaitləri və onların mənbələri göstərilməklə dövlət proqramının layihəsini hazırlayır.

7.2. Bu qanunun 7.1. 1-ci maddəsində göstərilən siyahılar, habelə 7.1. 9-cu maddəsində nəzərdə tutulmuş dövlət proqramı Azərbaycan Respublikasının qanunu ilə təsdiq edilir.

**Maddə 8. Narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə, onların prekursorlarının idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına dair ümummilli məlumat bankının yaradılması**

8.1. Azərbaycan Respublikasında narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə, onların prekursorlarının idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına, o cümlədən narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə və onların prekursorlarının qanunsuz idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına dair ümummilli məlumat bankı yaradılır və bununla bağlı məlumatlar daxil edilir.

8.2. ümummilli məlumat bankı üç bölmədən ibarətdir:

8.2.1. narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsinə və onların prekursorlarının idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına dair, habelə belə dövriyyədə iştirak edən şəxslərə dair məlumat bölməsi;

8.2.2. narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinə və onların prekursorlarının qanunsuz idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına dair, habelə belə dövriyyədə iştirak edən şəxslərə dair məlumat bölməsi;

8.2.3. narkomanlıq xəstəliyinə düçar olan və narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslərə dair məlumat bölməsi.

8.3. Narkomanlıq xəstəliyinə düçar olan şəxslərin qeydiyyatını aparan narkoloji – tibb müəssisəsi həmin şəxslər, habelə narkotik



vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən digər şəxslər barəsində yalnız kəmiyyət göstəricilərini əks etdirən məlumatları ümummilli məlumat bankına daxil edə bilər.

**Maddə 9. Narkotik vasitələrin və psixotrop maddələrin sui-istifadəsinə dair Milli İnformasiya Mərkəzinin yaradılması**

9.1. Azərbaycan Respublikasında narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə dair Milli İnformasiya Mərkəzi yaradılır.

9.2. Milli İnformasiya Mərkəzinin əsas məqsədi narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə dair şəxsi həyat sirri olmayan və obyektiv məlumatların məcmusunu təşkil etməkdir.

9.3. Milli İnformasiya Mərkəzi aşağıdakı məlumatları özündə əks etdirir:

9.3.1. narkotik vasitələrin və psixotrop maddələrin qeyri-tibbi və tibbi istifadəsi, onların tibbi, iqtisadi və digər nəticələri haqqında;

9.3.2. narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi və onun nəticələri haqqında;

9.3.3. narkotik vasitələrə və psixotrop maddələrə olan tibbi və qeyri-tibbi tələbat haqqında;

9.3.4. narkotik vasitələrin və psixotrop maddələrin insanlara və cəmiyyətə vura biləcəyi zərərin və onlara olan qeyri-tibbi məqsədlərlə təklifin azaldılmasına yönəlmiş tədbirlər haqqında;

9.3.5. narkomanlıq xəstəliyinə düçar olan şəxslərin müalicəsi və reabilitasiyası ilə bağlı şəxsi həyat sirri olmayan məlumatlar;

9.3.6. narkotik vasitələrin və psixotrop maddələrin yayılmasına qarşı mübarizə sahəsində qeyri-hökumət təşkilatlarının həyata keçirdikləri tədbirlər haqqında;

9.3.7. narkotik vasitələrə və psixotrop maddələrə dair ölkədə aparılan epidemioloji tədqiqatların yekunları və ölkədə mövcud epidemioloji vəziyyətin qiymətləndirilməsi haqqında;

9.3.8. narkotik vasitələrə dair dövlət siyasətini və normativ hüquqi məsələləri əhatə edən məlumatlar.

## III FƏSİL

## NARKOTİK VASİTƏLƏRDƏN, PSİXOTROP MADDƏLƏRDƏN VƏ ONLARIN PREKURSORLARINDAN İSTİFADƏ

**Maddə 10. Narkotik vasitələrdən, psixotrop maddələrdən və onların prekursorlarından tibbi məqsədlərlə istifadə**

10.1. Narkomanlıq xəstəliyinə düçar olan şəxslərin müalicəsində tibbi məqsədlərlə istifadə olunan narkotik vasitələrin və dövriyyəsi məhdudlaşdırılan və nəzarət edilən psixotrop maddələrin yalnız dövlət narkoloji-tibb müəssisələrində tətbiqinə icazə verilir.

10.2. Bir yaşayış məntəqəsində iki paralel əvəzedici müalicə proqramlarının tətbiqinə və stasionar bölməsi olmayan narkoloji-tibb müəssisələrində əvəzedici müalicə proqramlarının tətbiqinə yol verilmir.

10.3. Əvəzedici müalicə proqramlarına qəbul olunmuş hər bir xəstə barəsində 3 gün müddətində Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına məlumat verilir.

10.4. Narkomanlıq xəstəliyinə düçar olan şəxslərin müalicəsində istifadə olunan əvəzedici müalicə proqramlarının tətbiqinin şərtləri və qaydaları Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Maddə 11. Tranzit sərnişinlərin müalicəsi məqsədi ilə narkotik vasitələrdən və psixotrop maddələrdən istifadə**

11.1. Azərbaycan Respublikasının ərazisindən tranzit keçən xəstə müalicə məqsədi ilə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada və istifadə miqdarı həddində narkotik vasitələr və psixotrop maddələr apara bilər.

11.2. Əgər müalicəsini davam etdirmək üçün bu qanunun 11. 1-ci maddəsində nəzərdə tutulmuş şəxsin narkotik vasitələrə və psixotrop maddələrə əlavə tələbatı yaranarsa, həmin tələbatın ödənilməsi Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir.

**Maddə 12. Baytarlıq məqsədləri ilə narkotik vasitələrdən, psixotrop maddələrdən və onların prekursorlarından istifadə**



Baytarlıq məqsədləri üçün lazım olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının siyahısı və onlardan istifadə qaydaları Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Maddə 13. Elmi məqsədlərlə və tədris məqsədləri ilə narkotik vasitələrdən və psixotrop maddələrdən istifadə**

Elmi məqsədlərlə və tədris məqsədləri ilə narkotik vasitələrdən və psixotrop maddələrdən istifadə hüquqi şəxslər tərəfindən yalnız bu növ fəaliyyət üçün lisenziya (xüsusi razılıq) əsasında Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir.

**Maddə 14. Narkotik vasitələrdən, psixotrop maddələrdən və onların prekursorlarından ekspert fəaliyyətində istifadə**

Ekspertizanın aparılması məqsədi ilə narkotik vasitələrdən, psixotrop maddələrdən və onların prekursorlarından istifadə yalnız Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

**Maddə 15. Əməliyyat-axtarış fəaliyyətində narkotik vasitələrdən, psixotrop maddələrdən və onların prekursorlarından istifadə**

Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi üçün narkotik vasitələrdən, psixotrop maddələrdən və onların prekursorlarından istifadə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

**Maddə 16. Fiziki şəxslərə narkotik vasitələrin və psixotrop maddələrin buraxılması**

Tibbi məqsədlərlə fiziki şəxslərə narkotik vasitələrin və psixotrop maddələrin buraxılması belə fəaliyyət növünə lisenziyası (xüsusi razılığı) olan apteklərdən və müalicə-profilaktika müəssisələri tərəfindən həyata keçirilir.

**Maddə 17. Narkotik vasitələrinin, psixotrop maddələrin dövriyyəsi və onların prekursorlarının idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə bağlı fəaliyyət haqqında hesabat**

Narkotik vasitələrinin, psixotrop maddələrin dövriyyəsi və onların prekursorlarının idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə bağlı fəaliyyət növünə lisenziya (xüsusi razılıq) almış şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada buna səlahiyyəti olan Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına öz fəaliyyəti haqqında hesabat verirlər.

**Maddə 18. Narkotik vasitələrin və psixotrop maddələrin inventarlaşdırılması**

18.1. Narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsi ilə bağlı fəaliyyət növünə lisenziya (xüsusi razılıq) almış şəxslər hər ay onların sərəncamında olan narkotik vasitələrin və psixotrop maddələrin inventarlaşdırılmasını aparmalı, malların və digər maddi dəyərlərin balansını tərtib etməlidirlər.

18.2. Balansda üzə çıxan fərqlər, yaxud balansda olan rəqəmlərlə aparılan inventarlaşdırılmanın nəticələri arasında uyğunsuzluqlar aşkar edildikdə bu barədə 3 gün müddətində lisenziya (xüsusi razılıq) almış şəxslər tərəfindən Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına məlumat verilir.

18.3. Narkotik vasitələrin və psixotrop maddələrin sayı və vəziyyəti haqqında bütün dəyişikliklər operativ şəkildə xüsusi jurnalda qeyd olunur. Belə jurnalların aparılması və saxlanılması qaydası Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.



## IV FƏSİL

## NARKOTİK VASİTƏLƏRIN, PSİXOTROP MADDƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİ VƏ ONLARIN PREKURSORLARININ QANUNSUZ İDXALI, İXRACI, TRANZİT NƏQL EDİLMƏSİ VƏ İSTEHSALI İLƏ ƏLAQƏDAR MÜBARİZƏ TƏDBİRLƏRİ

**Maddə 19. Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar mübarizə tədbirləri**

19.1. Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinə və onların prekursorlarının qanunsuz idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına qarşı mübarizə tədbirlərinin həyata keçirilməsi zamanı narkomanlığın əleyhinə təbliğata və narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə bağlı hüquq pozuntularının profilaktikasına yönəlmiş fəaliyyətə üstünlük verilir.

19.2. Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinin və onların prekursorlarının qanunsuz idxalının, ixracının, tranzit nəql edilməsinin və istehsalının qarşısının alınması məqsədi ilə:

19.2.1. narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı yolları və üsulları aşkar edilir və onların qarşısı alınır;

19.2.2. narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsində və onların prekursorlarının qanunsuz idxalında, ixracında, tranzit nəql edilməsində və istehsalında iştirak edən şəxslər aşkar edilir və məsuliyyətə cəlb olunur;

19.2.3. narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə mübarizə üzrə Azərbaycan Respublikasının müvafiq

icra hakimiyyəti orqanı tərəfindən ixtisaslaşdırılmış bölmələr yaradıla bilər;

19.2.4. narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz hazırlanması, təchiz edilməsi və saxlanılması faktları aşkar edilir və bununla əlaqədar Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş tədbirlər həyata keçirilir;

19.2.5. tərkibində narkotik maddələr olan bitkilərin qanunsuz əkinləri aşkar və məhv edilir;

19.2.6. narkomanlığın profilaktikası, narkomanlıq xəstəliyinə düçar olan şəxslərin müalicəsi və onların reabilitasiyası, narkomanlığın yayılmasına təkan verən səbəblərin aradan qaldırılması üçün zəruri olan tədbirlər həyata keçirilir;

19.2.7. narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə mübarizə sahəsində görülən tədbirlər və onların nəticəsi barədə məlumatlar dərc edilməsi üçün kütləvi informasiya vasitələrinə verilir;

19.2.8. narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə mübarizə sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsinə dair tədbirlər həyata keçirilir.

**Maddə 20. Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsində və onların prekursorlarının qanunsuz idxalında, ixracında, tranzit nəql edilməsində və istehsalında iştirak etmiş şəxslər barəsində tətbiq olunan məhdudiyyətlər**

20.1. Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə bağlı məhdudiyyətlərin tətbiq edilməsinə aşağıdakı hallarda yol verilir:



20.1.1. şəxs narkomanlıq xəstəliyinə düçar olduqda;

20.1.2. şəxs narkotik vasitələrdən, psixotrop maddələrdən və onların prekursorlarından sui-istifadəyə yol verdikdə;

20.1.3. şəxs narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsində və onların prekursorlarının qanunsuz idxalında, ixracında, tranzit nəql edilməsində və istehsalında iştirak etdikdə.

20.2. Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsində və onların prekursorlarının qanunsuz idxalında, ixracında, tranzit nəql edilməsində və istehsalında iştirak etmiş və bununla əlaqədar məhkum olunmuş şəxslər, narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsi, onların prekursorlarının idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə bağlı peşə növlərinə buraxılmırlar və mülkiyyət formasından asılı olmayaraq narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsində və onların prekursorlarının idxalında, ixracında, tranzit nəql edilməsində və istehsalında iştirak edən idarə, müəssisə və təşkilatlarda işə qəbul edilə bilməzlər.

20.3. Vətəndaşların hüquqlarının, qanuni mənafelərinin və dövlətin təhlükəsizliyinin müdafiəsi məqsədi ilə narkomanlıq xəstəliyinə düçar olan şəxslər, o cümlədən narkotik vasitələrin, psixotrop maddələrin istehlakı ilə məşğul olan və ya onlardan sui-istifadə edən şəxslər üçün Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada peşə fəaliyyətinin ayrı-ayrı növləri və yüksək təhlükə mənbəyi ilə bağlı olan fəaliyyətlə məşğul olmağa məhdudiyyətlər qoyulur. Belə peşə növlərinin və vəzifələrin siyahısı Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

20.4. Peşə fəaliyyətinin ayrı-ayrı növləri və yüksək təhlükə mənbəyi ilə bağlı olan fəaliyyətlə məşğul olan şəxslər işə qəbul olunduqda, işlədiyi müddətdə ildə bir dəfədən az olmayaraq dövlət narkoloji-tibb müəssisəsində tibbi müayinədən (tibbi yoxlamadan) keçirlər. Belə şəxslərin tibbi müayinədən (tibbi yoxlamadan) keçməsi qaydaları Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Maddə 21. Narkotik vasitələrin və psixotrop maddələrin şəxsi istehlak miqdarı**

21.1. Narkotik vasitələrin və psixotrop maddələrin şəxsi istehlak üçün nəzərdə tutulan miqdarı şəxsi istehlak üçün mümkün, hər bir narkotik

vasitənin və ya psixotrop maddənin ayrı-ayrılıqda birdəfəlik istehlakı həcminə əsasən müəyyən edilir. Şəxsi istehlak üçün nəzərdə tutulan narkotik vasitələrin və psixotrop maddələrin miqdarı onların təmiz və qarışıq vəziyyətində ayrılıqda müəyyən olunur.

21.2. Qazanc əldə etmək məqsədi ilə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərin müəyyən edilməsi, belə şəxslərin Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarı, habelə onların külli miqdarı müəyyən edilir.

21.3. Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahıları Azərbaycan Respublikasının qanunu ilə təsdiq edilir.

**Maddə 22. Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar qanun pozuntularına qarşı inzibati-hüquq tədbirləri**

22.1. Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar inzibati məsuliyyət Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda yaranır.

22.2. Prekursorlarla və onların hazırlanması üçün nəzərdə tutulmuş avadanlıqla bağlı törədilən hüquq pozuntularına görə inzibati məsuliyyət yalnız onların narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində istifadə edildiyi və ya belə istifadə üçün nəzərdə tutulduğu hallarda yaranır.

22.3. Narkotik vasitələrin və psixotrop maddələrin sui-istifadəsi və ya narkomanlıq xəstəliyinə düçar olması ilə əlaqədar müalicə olunmuş şəxs narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və prekursorların qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar inzibati məsuliyyətə cəlb edildikdə onun müalicə olunduğu narkoloji-tibb müəssisəsi bu barədə məlumatlandırılır.



**Maddə 23. Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar cinayət-hüquq tədbirləri**

23.1. Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayət məsuliyyəti Azərbaycan Respublikasının cinayət qanunvericiliyi ilə nəzərdə tutulduğu hallarda yaranır.

23.2. Narkotik vasitələrin və psixotrop maddələrin sui-istifadəsi və ya narkomanlıq xəstəliyinə düçar olması ilə əlaqədar müalicə olunmuş şəxs narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar cinayət məsuliyyətinə cəlb edildikdə onun müalicə olunduğu narkoloji-tibb müəssisəsi bu barədə məlumatlandırılır.

## V FƏSİL

## NARKOTİK VASİTƏLƏRİN, PSİXOTROP MADDƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİ VƏ ONLARIN PREKURSORLARININ QANUNSUZ İDXALI, İXRACI, TRANZİT NƏQL EDİLMƏSİ VƏ İSTEHSALI İLƏ ƏLAQƏDAR HƏYATA KEÇİRİLƏN TƏDBİRLƏR

**Maddə 24. Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar həyata keçirilən tədbirlər**

Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinə və onların prekursorlarının qanunsuz idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına qarşı mübarizəni həyata keçirən Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada nəzarətli göndərişi həyata keçirmək, göndərilən yükləri, poçt göndərişlərini yoxlamaq, nəzarət qaydasında narkotik vasitələri və psixotrop maddələri almaq və qanunla nəzərdə tutulmuş digər əməliyyat-axtarış tədbirlərindən istifadə etmək hüququna malikdirlər.

**Maddə 25. Tibbi müayinə**

25.1. Tibbi müayinə yalnız narkotik sərxoşluq vəziyyətinin, narkotik vasitələrin və psixotrop maddələrin istehlakı və insan bədəni daxilində narkotik vasitələrin və psixotrop maddələrin gizlədilməsi hallarının müəyyən edilməsi məqsədi ilə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həyata keçirilə bilər. Narkotik sərxoşluq vəziyyətində olması və ya öz bədəni daxilində narkotik vasitələr və psixotrop maddələr daşıması haqqında əsaslı şübhələr olan, habelə özündə narkotik vasitələr və psixotrop maddələr aşkar edilmiş şəxs Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada tibbi müayinədən keçirilə bilər. Tibbi müayinə dövlət narkoloji-tibb müəssisələrində həyata keçirilir.

25.2. Tibbi müayinə həkim-narkoloq, həkim olmadıqda isə feldşer-narkoloq tərəfindən Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həyata keçirilə bilər. Şəxsin tibbi müayinədən keçməsi haqqında tərtib edilən rəydə onun narkotik sərxoşluq vəziyyətində olub-olmaması, orqanizmdə insanın bioloji mühitlərinin tədqiqatı nəticəsində aşkarlanan narkotik vasitələrin və psixotrop maddələrin növü, ehtiyac olduqda miqdarı və təxmini istehlak etmə vaxtı əks etdirilməlidir.

25.3. Şəxsin tibbi müayinədən keçməsi qaydaları Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.

**Maddə 26. Narkomanlıq xəstəliyinə düçar olan şəxslər barəsində tibbi tədbirlərin tətbiq edilməsi**

26.1. Cinayət törətmiş narkomanlıq xəstəliyinə düçar olan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məcburi müalicə olunurlar. Narkomanlıq xəstəliyinə düçar olan şəxslər barəsində bu xəstəliklə əlaqədar məcburi müalicə tədbirləri, həmin şəxsə cinayət törətdiyinə görə cəza verməklə yanaşı, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məhkəmə tərəfindən tətbiq edilir. Məcburi tədbirlərin tətbiqi zamanı istifadə olunan tibbi üsullar könüllü müalicəyə müraciət etmiş xəstələrə tətbiq edilən üsullardan fərqlənmir və tibb elminin son nailiyyətlərinə əsaslanır. Məcburi müalicəyə cəlb edilmiş xəstələrin cəzaçəkmə yerlərində saxlama və müalicə rejimləri



Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müəyyən olunur.

26.2. Azadlıqdan məhrumetmə ilə əlaqədar cəzaya məhkum edilməklə yanaşı, barəsində məcburi müalicə tədbirləri tətbiq edilmiş şəxslər cəza çəkdikləri müddət ərzində Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada müalicə olunurlar.

26.3. Azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzaya məhkum edilməklə yanaşı, barəsində məcburi müalicə tədbirləri tətbiq edilmiş şəxslər Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı yanında təşkil edilmiş ixtisaslaşdırılmış tibb müəssisəsində stasionar və ya ambulator müalicə olunurlar. İxtisaslaşdırılmış tibb müəssisəsində məcburi müalicənin şərtləri və qaydaları Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

26.4. Cinayət törətməmiş, lakin öz davranış və hərəkətləri nəticəsində dəfələrlə yaxın qohumlarına maddi və mənəvi zərər yetirmiş, uşaqların tərbiyəsinə mənfi təsir göstərmiş, onların hüquqlarını kobudcasına pozmuş, təklif olunmuş könüllü müalicədən dəfələrlə imtina etmiş narkomanlıq xəstəliyinə düçar olan şəxslər barəsində Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məcburi tibbi tədbirlər tətbiq edilə bilər.

26.5. Əlillər, hamilə qadınlar və südəmər uşaqları olan analar, 60 yaşından yuxarı olan kişilər və 55 yaşından yuxarı olan qadınlar, eləcə də siyahısı Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunmuş xəstəlikləri olan şəxslər barəsində müalicə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydalara əsasən tətbiq olunur.

26.6. Narkomanlıq xəstəliyinə düçar olan şəxslərin məcburi müalicəyə göndərilməsi Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

**Maddə 27. Narkoloji-tibb müəssisəsində məcburi müalicədə olan narkomanlıq xəstəliyinə düçar olan şəxslərin məcburi müalicədən vaxtından əvvəl azad edilməsi**

27.1. Narkoloji-tibb müəssisəsində məcburi müalicədə olan narkomanlıq xəstəliyinə düçar olan şəxslər aşağıdakı hallarda məcburi müalicədən vaxtından əvvəl azad edilə bilərlər:

27.1.1. narkoloji-tibb müəssisəsində qalmasına maneçilik törədən ağır xəstəliyə düçar olduqda;

27.1.2. narkomanlıq xəstəliyindən müalicənin başlanması vaxtından azı 6 ay keçdikdən sonra müalicənin davam etdirilməsinə olan zərurət aradan qalxdıqda.

27.2. Məcburi müalicədə olan narkomanlıq xəstəliyinə düçar olan şəxslərin narkoloji-tibb müəssisəsindən vaxtından əvvəl azad edilməsi həmin müəssisənin müdiriyyətinin təqdimatı və tibbi rəyi nəzərə alınmaqla yerli məhkəmənin qərarı əsasında həyata keçirilir.

## Maddə 28. Narkoloji-tibb müəssisəsində məcburi müalicədə olan narkomanlıq xəstəliyinə düçar olan şəxslərin məcburi müalicə müddətinin uzadılması

Narkoloji-tibb müəssisəsində məcburi müalicədə olan narkomanlıq xəstəliyinə düçar olan şəxslər mütəmadi olaraq müalicə rejimini pozduqda və bununla əlaqədar həyata keçirilən müalicə tədbirləri müsbət nəticə vermədikdə, narkoloji-tibb müəssisəsinin müdiriyyətinin təqdimatı və tibbi rəyi nəzərə alınmaqla Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yerli məhkəmənin qərarı əsasında belə şəxslərin məcburi müalicə müddəti uzadıla bilər.

## Maddə 29. Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar əməliyyat-axtarış fəaliyyəti

Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar hüquq pozuntularının aşkar edilməsi məqsədi ilə bu qanunun 24-cü maddəsində nəzərdə tutulmuş əməliyyat-axtarış tədbirləri həyata keçirilir.

## Maddə 30. Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının nəzarətli göndərişi

30.1. Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının nəzarətli göndərişi – narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz



idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə mübarizə sahəsində ibtidai araşdırma aparmaq səlahiyyətinə malik olan Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının nəzarəti altında Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada Azərbaycan Respublikasının ərazisində qanunsuz hesab edilən və ya şübhə doğuran narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının daşınması, göndərilməsi və ya digər üsulla yerinin dəyişdirilməsidir.

30.2. Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının nəzarətli göndərişinin həyata keçirilməsinə yalnız mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı sahəsində törədilən və ya hazırlanan cinayətlərin qarşısının alınması, açılması, həmin cinayətləri törədən şəxslərin vaxtında aşkar edilməsi və onların cinayət məsuliyyətinə cəlb edilməsi məqsədi ilə yol verilir.

30.3. Nəzarətli göndərişin keçirilməsinə dair qərar yalnız narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə mübarizə sahəsində ibtidai araşdırma aparmaq səlahiyyətinə malik olan Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları tərəfindən qəbul edilə bilər. Həmin qərarda istifadə edilən narkotik vasitənin, psixotrop maddənin və ya onların prekursorlarının əldə edilməsinin mənbəyi və miqdarı barədə məlumatlar mütləq göstərilməlidir.

30.4. Nəzarətli göndərişin həyata keçirilməsinə dair qərarı qəbul etmək səlahiyyətinə malik olan Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları həmin əməliyyatın Azərbaycan Respublikasının ərazisində aparılmasına bilavasitə rəhbərlik edirlər.

## Maddə 31. Nəzarət qaydasında qanunsuz hesab edilən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının alınması

Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar cinayətkar fəaliyyət haqqında sübut əldə etmək

məqsədi ilə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının əməkdaşları "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq nəzarət qaydasında narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarını almaq hüququna malikdirlər.

**Maddə 32. Müsadirə**

32.1. Qanunsuz dövriyyədə olan narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları, eləcə də onların qanunsuz hazırlanması üçün istifadə edilən alət və avadanlıq, habelə narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsində və onların prekursorlarının qanunsuz idxalında, ixracında, tranzit nəql edilməsində və istehsalında istifadə edilən və bunun nəticəsində əldə olunan əmlak və maliyyə vəsaitləri aşkar edildikdə onlar barəsində Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş tədbirlər görülür.

32.2. Qanunsuz dövriyyədən çıxarılmış və ya müsadirə olunmuş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi yalnız Azərbaycan Respublikasının məhkəmə, prokurorluq və Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının nümayəndələrindən ibarət tərkibdə yaradılmış komissiya tərəfindən Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

32.3. Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar cinayət-hüquq tədbirlərinin tətbiq edilməsi nəticəsində müsadirə olunmuş və dövlət hesabına yönəldilmiş əmlak, yalnız narkomanlığın profilaktikasına və narkomanlıq xəstəliyinə düçar olan şəxslərin müalicəsinə və sosial reabilitasiyasına sərf edilir.



## VI FƏSİL

## YEKUN MÜDDƏALAR

**Maddə 33. Qanunun qüvvəyə minməsi qaydası**

33.1. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

33.2. Bu qanun qüvvəyə mindiyi gündən "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında" 1999-cu il 18 iyun tarixli Azərbaycan Respublikasının Qanunu qüvvədən düşmüş hesab edilsin.

*Bakı şəhəri, 28 iyun 2005-ci il*

## "NARKOTİK VASİTƏLƏRİN, PSİXOTROP MADDƏLƏRİN VƏ ONLARIN PREKURSORLARININ DÖVRİYYƏSİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLIKASI PREZİDENTİNİN FƏRMANI

"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.4. həmin qanunun 7.1.2-ci maddəsində nəzərdə tutulmuş narkotik vasitələrin və psixotrop maddələrin alınması, saxlanılması, satılması, əldə edilməsi, paylaşdırılması, buraxılması, daşınması, göndərilməsi, onlardan istifadə edilməsi, habelə narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə dair sənədlərin tərtib edilməsi, saxlanılması və onların dövriyyəsi ilə əlaqədar Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər əməliyyatların həyata keçirilməsi qaydasını müəyyən etsin və bu barədə Azərbaycan



Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin qanunun 7.1.3-cü maddəsində nəzərdə tutulmuş narkotik vasitələrin və psixotrop maddələrin təcrübəvi hazırlanması qaydasını və bu fəaliyyətlə məşğul olan dövlət orqanlarının dairəsini müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.6. həmin qanunun 7.1.4-cü maddəsində nəzərdə tutulmuş Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müsadirə edilmiş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.7. həmin qanunun 7.1.6-cı maddəsində nəzərdə tutulmuş narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsinə və onların prekursorlarının idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına, habelə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirak edən, o cümlədən narkomanlıq xəstəliyinə düçar olan şəxslərə dair ümummilli məlumat bankına məlumatların göndərilməsi və oradan məlumatların alınması qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.8. həmin qanunun 7.1.7-ci maddəsində nəzərdə tutulmuş narkotik vasitələrin və psixotrop maddələrin tibbi məqsədlərlə istifadə edilməsi qaydasını və şərtlərini, habelə narkomanlıq xəstəliyinə düçar olan şəxslər barəsində tibbi tədbirlərin tətbiq edilməsi qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.9. həmin qanunun 7.1.8-ci maddəsində nəzərdə tutulmuş qanunsuz dövriyyədən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müsadirə edilmiş, lakin dərman preparatları şəklində olduğuna və tibbi məqsədlərlə istifadə oluna biləcəyinə görə məhv edilməsi məqsədəuyğun olmayan narkotik vasitələrin və psixotrop maddələrin tibbi məqsədlərlə istifadə edilməsi üçün təhvil verilməsi qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.10. həmin qanunun 10.4-cü maddəsində nəzərdə tutulmuş narkomanlıq xəstəliyinə düçar olan şəxslərin müalicəsində istifadə olunan əvəzedici müalicə proqramlarının tətbiqinin şərtlərini və qaydalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının

Prezidentinə məlumat versin;

1.11. həmin qanunun 11.1-ci maddəsində nəzərdə tutulmuş Azərbaycan Respublikasının ərazisindən tranzit keçən xəstənin müalicə məqsədi ilə narkotik vasitələr və psixotrop maddələr aparması qaydasını və onlardan istifadə miqdarı həddini müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.12. həmin qanunun 11.2-ci maddəsində nəzərdə tutulmuş Azərbaycan Respublikasının ərazisindən tranzit keçən xəstənin müalicəni davam etdirmək üçün narkotik vasitələrə və psixotrop maddələrə yaranmış əlavə tələbatının ödənilməsi qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.13. həmin qanunun 12-ci maddəsində nəzərdə tutulmuş baytarlıq məqsədləri üçün lazım olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının siyahısını və onlardan istifadə qaydalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.14. həmin qanunun 13-cü maddəsində nəzərdə tutulmuş elmi məqsədlərlə və tədris məqsədləri ilə narkotik vasitələrdən və psixotrop maddələrdən istifadənin həyata keçirilməsi qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.15. həmin qanunun 18.3-cü maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş jurnalların aparılması və saxlanılması qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.16. həmin qanunun 20.3-cü maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş peşə növlərinin və vəzifələrin siyahısını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.17. həmin qanunun 20.4-cü maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş şəxslərin tibbi müayinədən (tibbi yoxlamadan) keçməsi qaydalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.18. həmin qanunun 25.3-cü maddəsində nəzərdə tutulmuş şəxsin tibbi müayinədən keçməsi qaydalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.19. həmin qanunun 26.3-cü maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş ixtisaslaşdırılmış tibb müəssisəsində məcburi müalicənin şərtlərini və qaydalarını müəyyən etsin və bu barədə Azərbaycan



Respublikasının Prezidentinə məlumat versin;

1.20. həmin qanunun 5.1-ci maddəsində, 5.3-cü maddəsinin ikinci cümləsində, 6.1-ci maddəsində, 6.2-ci maddəsinin birinci cümləsində, 6.4-cü maddəsinin ikinci və üçüncü cümlələrində, 7.1-ci maddəsində (7.1.1-ci, 7.1.5-ci maddələrə münasibətdə, narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsinə və onların prekursorlarının idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına, habelə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirak edən, o cümlədən narkomanlıq xəstəliyinə düçar olan şəxslərə dair ümummilli məlumat bankının təşkil edilməsi ilə əlaqədar 7.1.6-cı maddəyə münasibətdə və 7.1.9-cu maddəyə münasibətdə), 10.3-cü, 17-ci, 18.2-ci, 19.2.3-cü maddələrində, 26.3-cü maddəsinin birinci cümləsində və 26.5-ci maddəsində nəzərdə tutulmuş "Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı"nın, 24-cü, 30.1-ci maddələrində, 30.3-cü maddəsinin birinci cümləsində, 30.4-cü, 31-ci və 32.2-ci maddələrində nəzərdə tutulmuş "Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini həyata keçirən icra hakimiyyəti orqanları barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.21. öz səlahiyyətləri daxilində "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki, "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikası Qanununun 7.1-ci maddəsində (7.1.2 – 7.1.4-cü maddələrə münasibətdə, narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsinə və onların prekursorlarının idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına, habelə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirak edən, o cümlədən narkomanlıq xəstəliyinə düçar olan şəxslərə dair ümummilli məlumat bankına məlumatların göndərilməsi və oradan məlumatların alınması qaydasının müəyyən edilməsi ilə əlaqədar 7.1.6-cı maddəyə münasibətdə, 7.1.7-ci və 7.1.8-ci maddələrə münasibətdə), 10.4-cü, 11.1-ci, 11.2-ci, 12-ci, 13-cü maddələrində, 18.3-cü, 20.3-cü və 20.4-cü maddələrinin ikinci cümləsində, 25.3-cü maddəsində və 26.3-cü maddəsinin ikinci cümləsində

nəzərdə tutulmuş "Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

3. Bu fərman dərc edildiyi gündən qüvvəyə minir.

*Bakı şəhəri, 9 avqust 2005-ci il*



# AZƏRBAYCAN RESPUBLİKASININ ƏRAZİSİNDƏ DÖVRİYYƏSİ QADAĞAN EDİLMİŞ, MƏHDUDLAŞDIRILMIŞ VƏ NƏZARƏT EDİLƏN NARKOTİK VASİTƏLƏRİN, PSİXOTROP MADDƏLƏRİN, HABELƏ AZƏRBAYCAN RESPUBLİKASININ ƏRAZİSİNDƏ İDXALINA, İXRACINA, TRANZİT NƏQL EDİLMƏSİNƏ VƏ İSTEHSALINA LİSENZİYA (XÜSUSİ RAZILIQ) TƏLƏB OLUNAN PREKURSORLARIN SİYAHILARI

***2005-ci il 28 iyun tarixli Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmişdir***

## I SİYAHI

***Azərbaycan Respublikasinin ərazisində dövriyyəsi qadagan edilən narkotik vasitələr və psixotrop maddələr***

1. Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilən narkotik vasitələr:

1. Alliloprodin
2. Alfameprodin
3. Alfametadol
4. Alfa-metilfentanil
5. Alfa-metiltiofentanil
6. Alfaprodin
7. Alfasetilmetadol
8. Anileridin
9. Asetil-alfa-metilfentanil
10. Asetilmetadol
11. Asetorfin
12. Asetildihidrokodein
13. Bezitramid
14. Benzetidin
15. Benzilmorfin

16. Beta-hidroksi-3-metilfentanil
17. Beta-hidroksifentanil
18. Betameprodin
19. Betametadol
20. Betaprodin
21. Betasetiemetadol
22. Dezomorfin
23. Dekstromoramid
24. Dekstropropoksifen
25. Diampromid
26. Dihidroetorfin
27. Dihidromorfin
28. Dimenoksadol
29. Dimepqeptanol
30. Dimetiltiambuten
31. Dioksafetil-butirat
32. Dipipanon
33. Difenoksilat
34. Difenoksin
35. Dietiltiambuten
36. Drotebanol
37. Ekqonin
38. Etilmetiltianbuten
39. Etokseridin
40. Etonitazen
41. Etorfin
42. Fenadokson
43. Fenazosin
44. Fenampromid
45. Fenomorfan
46. Fenoperidin
47. Furetidin
48. Folkodin
49. Heroin
50. Hidrokodon
51. Hidroksipetidin



52. Hidromorfinol
53. Hidromorfon
54. Xaşxaş kütləsinin konsentratı
55. İzometadon
56. Kannabis qətranı, ekstraktı və cövhəri
57. Ketobemidon
58. Klonitazen
59. Kodoksim
60. Kokain
61. Koka yarpağı
62. Levometorfan
63. Levomoramid
64. Levorfanol
65. Levofenasilmorfan
66. Metadonun aralıq məhsulu
67. Metazosin
68. Metildezorfin
69. Metildihidromorfin
70. 3-metiltiofentanil
71. 3-metilfentanil
72. Metopon
73. Mirofin
74. Moramidin aralıq məhsulu
75. Moreridin
76. Morfinmetobromid
77. Morfin-N-oksid
78. MFPP
79. Nikodikodin
80. Nikokodin
81. Norkodein
82. Nikomorfin
83. Norasetimetadol
84. Norlevorfanol
85. Normetadon
86. Normorfin
87. Norpipanon

88. Oksikodon
89. Oksimorfon
90. PEPAP
91. Petidin
92. Petidinin aralıq məhsulu A
93. Petidinin aralıq məhsulu V
94. Petidinin aralıq məhsulu S
95. Pimipodin
96. Proqeptazin
97. Properidin
98. Rasemetorfan
99. Rasemoramid
100. Rasemorfan
101. Remifentanil
102. Tiryək
103. Tebakon

Bu siyahıda göstərilmiş narkotik vasitələrin başqa adlarla, habelə onların bütün duzlarının və birləşmələrinin Azərbaycan Respublikasına idxalı həmçinin qadağandır.

2. Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilən psixotrop maddələr:

1. Amineptin
2. Amfetamin
3. Brolamfetamin DQB
4. DMA
5. DMQP
6. DMT
7. DOET
8. DET
9. Deksamfetamin
10. Delta-9-tetrahidrokannabinol
11. Etisiklidin FSQ
12. Etriptamin
13. Fenetillin



14. Fenmetrazin
15. Fensiklidin (FSP)
16. Katinon
17. Lizerqid (LSD, LSD-25)
18. Levamfetamin
19. Levometamfetamin
20. MDMA
21. Meskalin
22. 4-metilamironeks
23. 4 MTA
24. Metakatinon
25. MMDA
26. Meklokvalon
27. Metamfetamin
28. Metamfetamin rasemat
29. Metakvalon
30. Metilfenidat
31. N-li MDA
32. N-hidroksi MDA
33. Paraqeksil
34. PMA
35. Psilosin, Psilotsin
36. Psilosibin
37. Rolisiklidin, (FQP, FSPİ)
38. STP, DOM
39. Sekobarbital
40. Sipeperol
41. TMA
42. Tenamfetamin (MDA)
43. Tenoksiklidin (TSP)
44. Tetrahidrokannabinol İzomeri
45. 2 S-B

Bu siyahıda göstərilmiş psixotrop maddələrin, başqa adlarla Azərbaycan Respublikasına idxalı həmçinin qadağandır.

## II SİYAHI

***Azərbaycan Respublikasının ərazisində dövriyyəsi məhdudlaşdırılan narkotik vasitələr və psixotrop maddələr***

1. Azərbaycan Respublikasının ərazisində dövriyyəsi məhdudlaşdırılan narkotik vasitələr:

1. Alfentanil
2. Dihidrokodein
3. Etilmorfin
4. Fentanil
5. Kodein və duzları (başqa mürəkkəb tərkibli dərman preparatlarının tərkibində nəzarətdə saxlanılmır)
6. Metadon
7. Morfin və duzları
8. Para-fluorofentanil
9. Pritramid
10. Properidin
11. Papaveratum (pantapon, omnopon)
12. Sufentanil
13. Tebain
14. Tilidin
15. Tiofentanil
16. Trimeperidin

Bu siyahıda göstərilmiş narkotik vasitələrin başqa adlarla, başqa tərkibdə və onların başqa birləşmələrinin Azərbaycan Respublikasına idxalı həmçinin məhdudlaşdırılır.

Bu siyahıda göstərilmiş narkotik vasitələr Azərbaycan Respublikasının ərazisinə yalnız dövlət orqanları tərəfindən gətirilir.

2. Azərbaycan Respublikasının ərazisində dövriyyəsi məhdudlaşdırılan psixotrop maddələr:

1. Amobarbital
2. Buprenorfin



3. Butalbital
4. Katin
5. Qlyutetimid
6. Pentazosin
7. Pentobarbital
8. Siklobarbital

Bu siyahıda göstərilmiş psixotrop maddələrin beynəlxalq adı göstərilmədən, başqa adlarla Azərbaycan Respublikasına idxalı həmçinin məhdudlaşdırılır.

Bu siyahıda göstərilmiş psixotrop maddələr Azərbaycan Respublikasının ərazisinə yalnız dövlət orqanları tərəfindən gətirilir.

## III SİYAHI

***Azərbaycan Respublikasının ərazisində dövriyyəsinə nəzarət edilən psixotrop maddələr***

Azərbaycan Respublikasının ərazisində dövriyyəsinə nəzarət edilən psixotrop maddələr:

1. Allobarbital
2. Alprozolam
3. Aminoreks
4. Amfepramon
5. Barbital
6. Benzfetamin
7. Bromazepam
8. Brotizolam
9. Butobarbital
10. Delorazepam
11. Diazepam
12. Estazolam
13. Etilamfetamin
14. Etil loflazepat
15. Etinamat
16. Etxlorvinol

17. Fendimetrazin
18. Fenkafamin
19. Fenobarbital (başqa mürəkkəb tərkibli dərman preparatlarının tərkibində nəzarətdə saxlanılmır)
20. Fenproporeks
21. Fentermin
22. Fludiazepam
23 Flurazepam
24. Flunitrazepam
25. Xlordiazepoksid
26. Kamazepam
27. Ketazolam
28. Kloksazolam
29. Klobazam
30. Klonazepam
31. Klorazepat
32. Klotiazepam
33. Qalazepam
34. Qaloksazolam
35. QOMK
36. Loprazolam
37. Lorazepam
38. Lormetazepam
39. Lefetamin (SPA)
40. Mazindol
41. Medazepam
42. Mezokarb
43. Meprobamat
44. Metilfenobarbital
45. Metiprilon
46. Mefenoreks
47. Midazolam
48. Nimetazepam
49. Nitrazepam
50. Nordazepam
51. Oksazepam



52. Oksazolam
53. Pemolin
54. Pinazepam
55. Pipradrol
56. Pipradrol
57. Pirovaleron
58. Sekbutabarbital
59. Temazepam
60. Tetrazepam
61. Triazolam
62. Vinibital
63. Zolpidem

Bu siyahıda göstərilmiş psixotrop maddələrin beynəlxalq adı göstərilmədən, başqa adlarla Azərbaycan Respublikasına idxalı həmçinin qadağandır.

## IV SİYAHI

***Azərbaycan Respublikasının ərazisindən idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya (xüsusi razılıq) tələb olunan prekursorlar***

Azərbaycan Respublikasının ərazisindən idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya (xüsusi razılıq) tələb olunan prekursorlar:

1. Antranil turşusu
2. Aseton
3. Erqotamin
4. Efedrin (başqa mürəkkəb tərkibli dərman preparatlarının tərkibində nəzarətdə saxlanılmır)
5. Etil efiri
6. Erqometrin
7. Fenilsirkə turşusu
8. Xlorid turşusu
9. İzosafrol
10. Kalium permanqanat
11. Lizergin turşusu
12. Metiletilketon (MEK)
13. Norefedrin
14. N-asetilantranilt turşusu
15. Piperenol
16. Psevdoefedrin (başqa mürəkkəb tərkibli dərman preparatlarının tərkibində nəzarətdə saxlanılmır)
17. Piperidin
18. Sirkə turşusunun anhidridi
19. Safrol
20. Sulfat turşusu
21. Toluol
22. 1-fenil-2-propanon
23. 3,4-metilendioksi-fenil-2-propanon



## NARKOLOJİ XİDMƏT VƏ NƏZARƏT HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

*(19 aprel 2002-ci il tarixli, 310-IIQD; 5 dekabr 2003-cü il tarixli, 539-IIQD nömrəli qanuna əsasən dəyişikliklər və əlavələrlə)*

Bu Qanun narkoloji xəstəliklərin və onların doğurduğu mənfi tibbi və sosial nəticələrin, habelə bu xəstəliklərə düçar olmuş və onların ətrafında olan şəxslərə ziyanın vurulması hallarının qarşısını almaq məqsədilə narkoloji xidmət və nəzarət sahəsində həyata keçirilən tədbirləri müəyyən edir və tənzimləyir.

### I FƏSİL.
### ÜMUMİ MÜDDƏALAR

**Maddə 1. Əsas anlayışlar**

1.0. Bu Qanunda aşağıdakı anlayışlardan istifadə edilir:

1.0.1. Narkoloji xidmət—insan psixikasına təsir göstərən maddələrdən sui-istifadə etmə hallarının, habelə narkoloji xəstəliklərin qarşısının alınmasına yönəldilmiş tibbi (narkoloji yardım) və sosial tədbirlərin məcmusudur;

1.0.2. Narkoloji nəzarət—insan psixikasına təsir göstərən maddələrdən sui-istifadə etmə hallarının, habelə narkoloji xəstəliklərin qarşısının alınmasına yönəldilmiş inzibati və xəbərdaredici tədbirlərin məcmusudur;

1.0.3. Narkoloji yardım—narkoloji xəstələrin, o cümlədən insan psixikasına təsir göstərən maddələrdən sui-istifadə edən şəxslərin səhhətinin, psixoloji vəziyyətinin qiymətləndirilməsinə və onların müalicə edilməsinə yönəldilmiş tibbi tədbirlər, habelə bu şəxslərin səhhəti üzərində həyata keçirilən sonrakı müşahidədir;

1.0.4. Narkoloji xəstə—insan psixikasına təsir göstərən maddələrin sui-istifadəsi nəticəsində inkişaf etmiş asılılıq vəziyyətində olan və ya şüur pozuntusu müşahidə olunan, barəsində qanunvericiliklə müəyyən edilmiş qaydada alkoqolizm, narkomanlıq və ya toksikomanlıq diaqnozu təyin edilmiş şəxsdir;

1.0.5. İnsan psixikasına təsir göstərən maddələr—insanın şüurunu, davranışını pozan, psixi və (və ya) fiziki asılılıq doğura bilən maddələrdir (spirtli içkilər, narkotik vasitələr və psixotrop maddələr, eləcə də digər bihuşedici təsir göstərən maddələr və vasitələr);

1.0.6. Alkoqolizm—spirtli içkilərin sui-istifadəsi nəticəsində yaranmış və xroniki intoksikasiya doğuran, spirtli içkilərdən psixi və (və ya) fiziki asılılıqla, habelə digər mənfi tibbi-sosial nəticələrlə ifadə olunan xəstəlik vəziyyətidir;

1.0.7. Narkomanlıq—xroniki intoksikasiya doğuran, narkotik vasitələrin və psixotrop maddələrin sui-istifadəsi nəticəsində yaranmış, narkotik vasitələrdən və psixotrop maddələrdən psixi və (və ya) fiziki asılılıqla ifadə olunan xəstəlik vəziyyətidir;

1.0.8. Toksikomanlıq—insan psixikasına bihuşedici təsir göstərən maddələrin (narkotik vasitələr, psixotrop maddələr və spirtli içkilər istisna olmaqla) sui-istifadəsi nəticəsində yaranmış, xroniki intoksikasiya doğuran, həmin maddələrdən psixi və (və ya) fiziki asılılıqla ifadə olunan xəstəlik vəziyyətidir;

1.0.9. Abstinent sindromu—insan psixikasına təsir göstərən maddələrin istehlakının qəflətən dayandırılması və ya onların antaqonistlərinin təsiri nəticəsində yaranmış, psixi, somato-vegetativ və nevroloji pozuntularla səciyyələndirilən, klinik təzahürləri və gedişatı həmin maddələrin xarakterindən və istehlakın davamlılığından asılı olan vəziyyətdir;

1.0.10. Detoksifikasiya—insan psixikasına təsir göstərən maddələrin və ya onların dağılması məhsullarının orqanizmdən çıxarılması yolu ilə orqanizmin zəhərlənmə nəticəsində pozulmuş funksiyalarının bərpası, insan psixikasına təsir göstərən maddələrin doğurduğu abstinent sindromunun və asılılığın aradan qaldırılmasıdır;



1.0.11. Narkoloji tibb müəssisəsi—Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada yaradılmış və narkoloji yardım sahəsində fəaliyyət göstərən ixtisaslaşdırılmış tibb müəssisəsidir;

1.0.12. Həkim-narkoloq—narkoloji xəstələrə ixtisaslaşdırılmış tibbi yardım göstərmək üçün müvafiq ixtisasa malik olan şəxsdir;

1.0.13. Baş narkoloq—Azərbaycan Respublikasının ərazisində narkoloji yardımın həyata keçirilməsini əlaqələndirən həkim-narkoloq.

**Maddə 2. Narkoloji xidmət və nəzarət haqqında qanunvericilik**

Narkoloji xidmət və nəzarət haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, bu Qanundan və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından ibarətdir.

## II FƏSİL.
## Narkoloji xidmətin və nəzarətin əsasları

**Maddə 3. Narkoloji xidmətin və nəzarətin məqsədi**

3.1. Narkoloji xidmətin və nəzarətin məqsədi insan psixikasına təsir göstərən maddələrdən sui-istifadə etmə hallarının, narkoloji xəstəliklərin, onların doğurduğu mənfi tibbi və sosial nəticələrin qarşısının alınmasıdır.

3.2. Narkoloji xidmətin və nəzarətin əsas istiqamətlərini narkoloji yardım, sosial, inzibati və xəbərdaredici tədbirlər təşkil edir.

**Maddə 4. Narkoloji xidmətin və nəzarətin əsas prinsipləri**

4.0. Narkoloji xidmət və nəzarət sahəsində dövlət siyasətinin prinsipləri aşağıdakılardan ibarətdir:

4.0.1. narkoloji xidmətin və nəzarətin həyata keçirilməsi zamanı narkoloji xəstələrin narkoloji xəstəliklə əlaqədar təqib edilməsinin istisna edilməsi;

4.0.2. narkoloji xəstəliklərin yayılmasının, onların doğurduğu mənfi tibbi və sosial nəticələrin qarşısının alınması;

4.0.3. insan psixikasına təsir göstərən maddələrin istifadə edilməsinin zərərli nəticələri barədə əhalinin məlumatlandırılması;

4.0.4 narkoloji xəstəliklərin vaxtında aşkar və müalicə edilməsi yolu ilə onların qarşısının alınması;

4.0.5. narkoloji xəstələrin maddi vəziyyətindən asılı olmayaraq onların narkoloji yardım almaq hüququnun təmin edilməsi;

4.0.6. narkoloji xəstələr və insan psixikasına təsir göstərən maddələrdən sui-istifadə edən şəxslər tərəfindən hüquq pozuntularının törədilməsi hallarının qarşısının alınması və profilaktikası;

4.0.7. narkoloji xəstələrin və onların ailə üzvlərinin hüquqlarının təmin edilməsi;



4.0.8. insan psixikasına təsir göstərən maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə;

4.0.9. narkoloji xidmətin və nəzarətin məqsədlərinin təmin edilməsi üçün dövlət orqanlarının və qeyri-hökumət təşkilatlarının fəaliyyətinin uzlaşdırılması.

**Maddə 5. Narkoloji xidmətin və nəzarətin həyata keçirilməsinin ümumi şərtləri**

5.1. Azərbaycan Respublikasının ərazisində hər bir şəxsin Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada insan psixikasına təsir göstərən maddələr, bu maddələrdən istifadə edilməsinin ailə və cəmiyyət üçün doğurduğu nəticələr barəsində ətraflı məlumat almaq hüququ vardır.

5.2. Dövlət narkoloji xəstəliklərin qarşısının alınması, belə xəstəliklərin erkən müəyyən və müalicə edilməsi, narkoloji xəstələrin səhhəti və psixoloji vəziyyəti üzərində tibbi nəzarətin həyata keçirilməsi və bu xəstələrin cəmiyyətə qovuşması üçün şərait yaradır.

5.3. Narkoloji xəstələrə onların maddi vəziyyətindən asılı olmayaraq narkoloji yardımın göstərilməsinə, habelə bu şəxslərin sağlamlığı üzərində ixtisaslaşdırılmış tibbi nəzarətin həyata keçirilməsinə dövlət tərəfindən təminat verilir.

5.4. Azərbaycan Respublikasının ərazisində narkoloji xəstələrin müalicəsi bir qayda olaraq könüllülük əsasında həyata keçirilir. 18 yaşına çatmamış şəxs narkoloji tibb müəssisəsinə valideynlərinin və ya onun qanuni nümayəndəsinin razılığı (xahişi) ilə yerləşdirilir.

Narkoloji xəstələrin məcburi müalicəsinə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada yalnız məhkəmənin hökmü əsasında yol verilir.

5.6. Azərbaycan Respublikasının ərazisində narkoloji xidmət və nəzarət konfidensiallıq və anonimlik əsasında həyata

keçirilə bilər. Narkoloji xəstələrin qeydiyyatının aparılması zamanı xəstənin səhhətinin vəziyyəti haqqında məlumatların konfidensiallığı təmin edilməlidir. Hər hansı şəxs barəsində narkoloji yardımın həyata keçirilməsinə dair məlumatlar Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada verilə bilər.

5.7. Hər bir narkoloji xəstənin səhhəti üzərində Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş narkoloji xəstəliklərin müalicəsi üsullarına riayət etməklə, fərdi nəzarət tətbiq edilir.

Narkoloji xəstəliklərin müalicəsi zamanı hər bir xəstə barəsində sosial-psixoloji reabilitasiya kursu aparılmalıdır.

5.8. Narkoloji xəstəliklərin siyahısı və bu xəstəliklərin müalicə standartları Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

5.9. Azərbaycan Respublikasının ərazisi üzrə narkoloji yardımın həyata keçirilməsinin təmin edilməsi, belə yardımı göstərən narkoloji tibb müəssisələrinin fəaliyyətinin əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən Baş narkoloq təyin olunur. Baş narkoloqun vəzifələri və səlahiyyətləri Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Maddə 6. Narkoloji xəstələrin hüquqları və onların məhdudlaşdırılması**

6.1. Narkoloji xəstələrin hüquqları, onların hüquqlarının məhdudlaşdırılması halları və qaydası bu Qanun və Azərbaycan Respublikasının digər qanunvericilik aktları ilə müəyyən edilir.

6.2. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş hallar və tibbi yardımın göstərilməsi



zərurətindən irəli gələn tələblər istisna olmaqla narkoloji xəstələrin hüquqlarının məhdudlaşdırılmasına yol verilmir.

6.3. Azadlıqdan məhrum etmə növündə cəza çəkən, habelə həbsdə saxlanılma yerlərində saxlanılan narkoloji xəstələrin narkoloji yardım almaq hüququnun hər hansı şəkildə məhdudlaşdırılmasına yol verilmir.

6.4. Azadlıqdan məhrum etmə növündə cəza çəkən, habelə həbsdə saxlanılma yerlərində saxlanılan və abstinent sindromu vəziyyətində olan narkoloji xəstələr digər şəxslərdən ayrılıqda saxlanılır.

6.5. Narkoloji yardımın göstərilməsi zamanı yetkinlik yaşına çatmamış narkoloji xəstələr, habelə özlərinin və ətrafdakı şəxslərin səhhəti və həyatı üçün təhlükə yaradan narkoloji xəstələr digər xəstələrdən ayrılıqda yerləşdirilir.

6.6. Narkoloji tibb müəssisələrində tətbiq edilən təhlükəsizlik tədbirləri həmin müəssisələrdə işləyən şəxslərin, müalicə olunan digər xəstələrin, bu xəstələrə baş çəkən şəxslərin ləyaqətinə xələl gətirməməli və onların hüquqlarını məhdudlaşdırmamalıdır. Müalicə zamanı həkimlərin tövsiyələrinə əməl etməyərək insan psixikasına təsir göstərən maddələrin istifadəsini davam edən narkoloji xəstələr narkoloji tibb müəssisəsindən xaric oluna bilərlər.

6.7. Əhalinin hüquqlarının, qanuni mənafelərinin və dövlətin təhlükəsizliyinin müdafiəsi məqsədilə narkoloji xəstələr üçün Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada peşə fəaliyyətinin ayrı-ayrı növləri və yüksək təhlükə mənbəyi ilə bağlı olan fəaliyyətlə məşğul olmağa məhdudiyyətlər qoyulur. Belə peşə növlərinin və vəzifələrin siyahısı və məhdudiyyətin müddəti Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Maddə 7. Narkoloji xəstələr barəsində məlumatların verilməsi**

7.1. Şəxsin narkoloji xəstə olub-olmaması, narkoloji xəstələrin səhhətinin vəziyyəti, onun proqnozları, göstərilmiş xidmətlər haqqında məlumatlar Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada verilir.

7.2. Narkoloji xidməti və nəzarəti həyata keçirən, habelə xidməti vəzifələri həyata keçirərkən qulluq mövqeyinə görə narkoloji xəstələr barəsində məlumatları əldə edən digər şəxslər həmin məlumatların yayılmasına yol verməməlidirlər.

7.3. Narkoloji xidməti və nəzarəti həyata keçirən şəxslər yetkinlik yaşına çatmayan uşaqlarına qayğı göstərməyən, onlara qarşı zor tətbiq edən, ətrafdakı insanların hüquqlarını pozan narkoloji xəstələr barəsində Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarına məlumat verməyə borcludurlar.

7.4. Barəsində məcburi müalicə tədbirləri tətbiq edilmiş narkoloji xəstələr haqqında Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarına məlumat (məcburi müalicənin tətbiq edilməsi, cəzanın müddəti və onun icra olunduğu yer, narkoloji xəstənin cəzanı icra edən müəssisədən azad olunması) verilməlidir.

**Maddə 8. Narkoloji xidmətin və nəzarətin maliyyələşdirilməsi**

8.1. Narkoloji xidmətin və nəzarətin maliyyələşdirilməsi bu qanunun 23.5-ci maddəsində nəzərdə tutulmuş vahid dövlət proqramına uyğun olaraq dövlət büdcəsinin vəsaiti, habelə fiziki və hüquqi şəxslərin ianələri hesabına həyata keçirilir.

8.2. Bu qanunun 23.5-ci maddəsində nəzərdə tutulmuş vahid dövlət proqramına uyğun olaraq dövlət büdcəsinin vəsaiti hesabına narkoloji yardımın pulsuz göstərilməsi, narkoloji tibb müəssisələrində daxili ehtiyacların ödənilməsi və xəbərdaredici tədbirlər həyata keçirilir.



## III FƏSİL.

## Narkoloji yardım

**Maddə 9. Narkoloji yardım**

9.1. Narkoloji yardımı aşağıdakı tədbirlər təşkil edir:

9.1.1. insan psixikasına təsir göstərən maddələrdən sui-istifadə edən şəxslərin səhhətinin qiymətləndirilməsi və ehtiyac olduqda onlara ixtisaslaşdırılmış narkoloji yardımın göstərilməsi;

9.1.2. narkoloji xəstələrin səhhətinin və psixoloji vəziyyətinin qiymətləndirilməsi, narkoloji xəstəliyin diaqnozunun müəyyən edilməsi (tibbi yoxlama);

9.1.3. narkoloji xəstələrin müalicəsi;

9.1.4. əvəzedici terapiyanın həyata keçirilməsi;

9.1.5. narkoloji xəstələrin səhhəti üzərində sonrakı müşahidənin həyata keçirilməsi;

9.1.6. narkoloji xəstələr barəsində sosial-psixoloji reabilitasiya tədbirlərinin həyata keçirilməsi.

9.2. Azərbaycan Respublikasının ərazisində narkoloji yardım Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həkim-narkoloqlar tərəfindən göstərilir.

9.3. Narkoloji yardım göstərilmiş hər bir şəxs barəsində qeydiyyat aparılmalıdır.

**Maddə 10. Tibbi yoxlama (narkoloji xəstəliyin diaqnozunun müəyyən edilməsi)**

10.1. Tibbi yoxlama şəxsin narkoloji xəstəliyə düçar olmasının (narkoloji xəstəliyin diaqnozunun) müəyyən edilməsi və ya təsdiqlənməsi məqsədilə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada narkoloji tibb müəssisələrində həyata keçirilir.

10.2. Tibbi yoxlamanın aparılması üçün şəxs könüllü olaraq

müraciət etdikdə narkoloji xəstəliyin diaqnozu həkim-narkoloq tərəfindən müəyyən olunur. Tibbi yoxlama təhqiqat, istintaq orqanlarının və ya məhkəmənin qərarı əsasında aparıldıqda narkoloji xəstəliyin diaqnozu həkim-məsləhət komissiyası tərəfindən müəyyən edilir.

10.3. Şəxsin tibbi yoxlamadan keçməsi haqqında həkim-məsləhət komissiyasının tərtib etdiyi rəydə onun narkoloji xəstəliyə düçar olub-olmaması, düçar olduğu halda xəstəliyin növü, mərhələsi və bununla əlaqədar müalicəyə ehtiyac dərəcəsi əks etdirilməlidir.

10.4. Təhqiqat, istintaq orqanları və ya məhkəmənin qərarı əsasında aparılan tibbi yoxlamanın xərcləri dövlət büdcəsinin vəsaiti hesabına ödənilir.

10.5. Narkoloji xəstəliyin diaqnozunun müəyyən edilməsi məqsədilə aparılan müayinə nəticəsində şəxsin narkotik vasitələri və psixotrop maddələri istehlak etməsi müəyyən edildikdə bu barədə məlumat narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların dövriyyəsinə dair ümummilli məlumat bankına verilməlidir.

10.6. Tibbi yoxlamanın aparılması qaydası Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Maddə 11. Narkoloji xəstələrin müalicəsi**

11.1. Narkoloji xəstələrin müalicəsi üsulları narkoloji xəstənin səhhətinin vəziyyəti və onu əhatə edən mühit nəzərə alınmaqla narkoloji müəssisədə (stasionar və ya ambulator şəraitdə) və ya xəstənin evində (ambulator şəraitdə) həkim-narkoloq tərəfindən tətbiq edilir. Ev şəraitində müalicə olunan narkoloji xəstələr haqqında tətbiq edilən bütün müalicə tədbirləri narkoloji xəstələrin müşahidəsi üçün



nəzərdə tutulan ambulator kartasına daxil edilməlidir. Narkoloji xəstə barəsində fəal müalicə kursundan sonra aparılan sosial-psixoloji reabilitasiya kursu onun fərdi tələbatına uyğun olmalıdır.

11.2. Həkim-narkoloq psixoloqla birlikdə hər bir narkoloji xəstənin fərdi müalicə, sosial-psixoloji reabilitasiya və sonrakı müşahidə proqramını tərtib edir.

11.3. Ayrı-ayrı müalicə üsullarının tətbiqi və narkoloji xəstənin müalicə müddəti xəstənin mənafeyi nəzərə alınmaqla həkim-narkoloq tərəfindən tibbi göstəricilər əsasında müəyyən edilir.

11.4. Aşağıdakı hallarda şəxsə insan psixikasına təsir göstərən maddələrdən sui-istifadə edilməsi ilə əlaqədar narkoloji xəstəlikdən müalicə təklif edilməlidir:

11.4.1. şəxsin insan psixikasına təsir göstərən maddələrdən sui-istifadə etməsi haqqında onun yaxın qohumları müraciət etdikdə;

11.4.2. narkoloji xəstəlik və ya insan psixikasına təsir göstərən maddələrdən sui-istifadə edilməsi nəticəsində şəxs zədə aldıqda və ya onun səhhəti başqa cür pozulduqda;

11.4.3. narkoloji xəstəlik və ya insan psixikasına təsir göstərən maddələrdən sui-istifadə ilə əlaqədar şəxs tərəfindən hüquq pozuntularının törədilməsi halları müəyyən edildikdə;

11.4.4. həkim xəstəni evində yoxlayarkən həmin şəxs tərəfindən insan psixikasına təsir göstərən maddələrdən sui-istifadə edilməsinin onun özünə və ya ailə üzvlərinə mənfi təsir göstərməsi halları müəyyən edildikdə.

11.5. İnsan həyatı üçün təhlükə yaradan üsullarla narkoloji xəstələrin müalicəsi (kodlaşdırma və s.) yalnız dövlət narkoloji tibb müəssisələrində həyata keçirilir. Bu üsulların tətbiq edilməsinə yalnız narkoloji xəstə

tərəfindən könüllü olaraq yazılı şəkildə verilmiş ərizə əsasında yol verilir. Bu üsulları tətbiq edən həkim xəstəni əvvəlcədən bütün baş verə biləcək nəticələr barədə yazılı şəkildə xəbərdar etməlidir. İnsan həyatı üçün təhlükə yaradan üsullarla narkoloji xəstələrin müalicəsi qaydası Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

11.6. Hər bir narkomanın müalicəsi barədə məlumat narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların dövriyyəsinə dair ümummilli məlumat bankına verilməlidir.

**Maddə 12. Detoksifikasiyanın keçirilməsi**

12.1. Təxirəsalınmaz hallar istisna olunmaqla insan psixikasına təsir göstərən maddələrin sui-istifadəsi ilə əlaqədar detoksifikasiya tədbirləri narkoloji tibb müəssisəsində həyata keçirilir. Detoksifikasiyanın keçirilməsi qaydası Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

12.2. Narkomanlıq xəstəliyinə düçar olan şəxslər barəsində detoksifikasiyanın aparıldığı hər bir hal barədə məlumat narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların dövriyyəsinə dair ümummilli məlumat bankına verilməlidir.

**Maddə 13. Narkoloji xəstələr üzərində xüsusi müşahidə**

13.0. Narkoloji yardımın həyata keçirilməsi zamanı aşağıdakı şəxslər üzərində Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada xüsusi müşahidə aparılır:

13.0.1. alkoqol psixozunu keçirmiş narkoloji xəstələr;



13.0.2. narkotik vasitələrin və psixotrop maddələrin qəbul edilməsi nəticəsində əmələ gəlmiş intoksikasion psixozunu keçirmiş narkoloji xəstələr;

13.0.3. yetkinlik yaşına çatmayan uşaqları olan narkoloji xəstələr;

13.0.4. yetkinlik yaşına çatmayan narkoloji xəstələr;

13.0.5. HIV/AIDS-dən, hepatitlərdən, zöhrəvi xəstəliklərdən və aktiv formada vərəm xəstəliyindən əzab çəkən narkoloji xəstələr;

13.0.6. insan psixikasına təsir göstərən maddələrin qəbul edilməsi nəticəsində psixikasında dönməz psixi dəyişikliklər və şəxsiyyət dəyişiklikləri hökm sürən narkoloji xəstələr.

**Maddə 14. Narkoloji tibb müəssisələri**

14.1. Azərbaycan Respublikasının ərazisində narkoloji xəstəliklərin müalicəsi, cəzaçəkmə müəssisələri və istintaq təcridxanaları istisna olmaqla, yalnız narkoloji tibb müəssisələrində həyata keçirilir. Cəzaçəkmə müəssisələri və istintaq təcridxanaları istisna olmaqla, narkoloji xəstəliklərin narkoloji sahədə qeyri-ixtisaslaşdırılmış tibb müəssisələrində müalicəsi, habelə narkoloji sahədə qeyri-ixtisaslaşdırılmış tibb müəssisələrinin nəzdində narkoloji bölmələrin yaradılması qadağandır. Hüquqi şəxs yaratmadan narkoloji xəstəliklərin müalicəsinə yol verilmir.

14.2. Dövlət narkoloji tibb müəssisələri istisna olmaqla narkoloji yardım sahəsində fəaliyyət göstərən hər hansı hüquqi şəxs bu fəaliyyəti yalnız Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilmiş xüsusi razılıq əsasında həyata keçirir. Narkoloji yardım sahəsində fəaliyyət göstərmək üçün xüsusi razılığın verilməsi qaydası Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

14.3. Narkoloji yardım sahəsində fəaliyyət göstərən hər bir narkoloji tibb müəssisəsinə razılığın verilməsi barədə bildiriş narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların dövriyyəsinə dair ümummilli məlumat bankına daxil edilməsi üçün Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına dərhal göndərilməlidir. Həmin bildirişdə təşkilatın tam adı, hüquqi ünvanı, razılığın müddəti, müəssisənin təsisçiləri barədə məlumatlar göstərilməlidir.

14.4. Narkoloji tibb müəssisələrinin rəhbərləri həmin müəssisələrdə işləyən tibbi heyətin və xəstələrlə əlaqədə olan digər şəxslərin narkoloji xəstələr tərəfindən törədilə biləcək təhlükəli hərəkətlərdən mühafizəsini təmin etməyə borcludurlar. Narkoloji tibb müəssisələrində təhlükəsizlik tədbirlərinin tətbiq edilməsi qaydası Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

14.5. Narkoloji xəstələrin sosial-psixoloji reabilitasiyasını təmin etmək məqsədilə hər bir narkoloji tibb müəssisəsində psixoloq olmalıdır.

### Maddə 15. Narkoloji yardımın maliyyələşdirilməsi

15.1. Narkoloji yardımın pulsuz həyata keçirilməsi bu qanunun 8.2-ci maddəsinə uyğun olaraq təmin edilir.

15.2. Narkoloji xəstəliklə əlaqədar göstərilən təxirəsalınmaz tibbi tədbirlər dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir. Dövlət büdcəsinin vəsaiti hesabına göstərilən narkoloji yardımın minimal standartları Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Xüsusi və ya pullu dövlət narkoloji tibb müəssisələrində müalicə almaq istəyən narkoloji xəstələrin müalicəsi onların öz şəxsi vəsaiti hesabına həyata keçirilir.



## IV FƏSİL.

## Narkoloji xidmət sahəsində sosial tədbirlər

### Maddə 16. Narkoloji xidmət sahəsində sosial tədbirlər

16.1. Narkoloji xidmətin məqsədlərinin təmin edilməsi üçün həyata keçirilən sosial tədbirlər aşağıdakılardan ibarətdir:

16.1.1. narkoloji xəstələrin valideyn qayğısından məhrum olan uşaqlarına sosial qayğının göstərilməsi və onların hüquqlarının qorunması;

16.1.2. narkoloji xəstələrin və onların ailə üzvlərinin sosial müdafiəsi və hüquqlarının qorunması;

16.1.3. narkoloji xəstələrin cəmiyyətə qovuşması üçün zəruri olan tədbirlərin görülməsi (narkoloji xəstələrin iş yerləri və ya peşə bilikləri, habelə yaşayış yeri olmayan narkoloji xəstələrin müvəqqəti sığınacaq yerləri ilə təmin edilməsi).

16.2. Narkoloji xidmət sahəsində sosial tədbirlər Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən qəbul edilən vahid dövlət proqramı əsasında həyata keçirilir.

16.3. Narkoloji xəstələrin könüllü müalicəsi müddətində (sosial-psixoloji reabilitasiya dövrü daxil olmaqla) onlara digər xəstəliklərin müalicəsi zamanı tətbiq edilən bütün sosial təminatlar tətbiq edilir.

16.4. Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallar istisna olmaqla şəxsin narkoloji xəstəlikdən könüllü müalicəsi əmək müqaviləsinin ləğv edilməsi üçün əsas ola bilməz.

16.5. Əmək qabiliyyətini itirmiş narkoloji xəstələrə digər xəstələr üçün nəzərdə tutulmuş qaydada onların səhhətinin vəziyyəti nəzərə alınmaqla əlillik müəyyən edilir və sosial təminat təyin edilir.

**Maddə 17. Narkoloji xəstələrin cəmiyyətə qovuşması**

17.0. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları narkoloji xəstələrin cəmiyyətə qovuşmasına yönəlmiş aşağıdakı tədbirləri həyata keçirirlər;

17.0.1. narkoloji xəstəliklə əlaqədar könüllü müalicə olunan şəxslərin müxtəlif peşələrə yiyələnməsini təmin edir və onların işlə təmin edilməsi üçün müəyyən yerlər ayırır;

17.0.2. yaşayış yeri olmayan narkoloji xəstələri müvəqqəti sığınacaq yerləri ilə təmin edir;

17.0.3. narkoloji xəstələrin və onların ailə üzvlərinin qarşılıqlı yardım qruplarını təşkil edir;

17.0.4. narkoloji xəstələrə və onların ailə üzvlərinə hüquqi və ya digər yardım göstərən qeyri-hökumət təşkilatlarının fəaliyyətini əlaqələndirir.

## V FƏSİL.

## Narkoloji nəzarət sahəsində inzibati tədbirlər

**Maddə 18. Narkoloji nəzarət sahəsində inzibati tədbirlər**

18.0. Narkoloji nəzarətin məqsədlərinin təmin edilməsi üçün həyata keçirilən inzibati tədbirlər aşağıdakılardan ibarətdir:

18.0.1. insan psixikasına təsir göstərən maddələrdən sui-istifadə edən şəxslərin aşkar edilməsi və onların qeydiyyatının aparılması;

18.0.2. narkoloji xəstələrin qeydiyyatının aparılması;

18.0.3. narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərin aşkar edilməsi və onların qeydiyyatının aparılması;

18.0.4. sərxoşluq hallarının müəyyən edilməsi məqsədilə tibbi müayinənin təyin və onun aparılmasının təmin edilməsi;

18.0.5. sərxoşluq hallarının müəyyən edilməsi məqsədilə tibbi müayinənin aparılması;



18.0.6. insan psixikasına təsir göstərən maddələrdən sui-istifadə etməklə öz ailə üzvlərinin maddi vəziyyətini pisləşdirən, onlara qayğı göstərməyən, uşaqları ilə amansız rəftar edən, onların tərbiyəsinə mənfi təsir göstərən, habelə ətraflarındakı insanların hüquqlarını pozan narkoloji xəstələrin aşkar edilməsi;

18.0.7. narkoloji xəstələr tərəfindən hüquq pozuntularının törədilməsinin qarşısının alınması;

18.0.8. barəsində məcburi müalicə tətbiq edilmiş şəxslərə dair məlumatların verilməsi;

18.0.9. insan psixikasına təsir göstərən maddələrin sui-istifadəsi ilə bağlı nəticələrin (hüquq pozuntularının törədilməsi, intihar etmə, əlillik, xəsarət alma, zəhərlənmə, somatik və yoluxucu xəstəliklərə düçar olma hallarının və s.) qeydiyyatının aparılması;

18.0.10. məcburi müalicənin həyata keçirilməsinin təmin edilməsi.

**Maddə 19. Narkoloji xəstələrin qeydiyyatı**

19.1. Narkoloji xəstələrin qeydiyyatı dövlət narkoloji tibb müəssisələri tərəfindən aparılır.

19.2. Hər bir narkomanın narkoloji xəstə kimi qeydiyyata alınması barədə məlumat narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların dövriyyəsinə dair ümummilli məlumat bankına verilməlidir.

19.3. Qeyri-dövlət narkoloji tibb müəssisələri yalnız dövlət narkoloji tibb müəssisələrində qeydiyyata alınmış narkoloji xəstələrə narkoloji yardım göstərə bilərlər.

19.4. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı aşağıdakı kateqoriyalar üzrə narkoloji xəstələrin və insan psixikasına təsir göstərən maddələrdən sui-istifadə edən şəxslərin qeydiyyatını aparır;

19.4.1. spirtli içkilərdən sui-istifadə edən şəxslər;

19.4.2. alkoqolizmə düçar olan şəxslər;

19.4.3. narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslər;

19.4.4. narkomanlığa düçar olan şəxslər;
19.4.5. bihuşedici maddələrdən sui-istifadə edən şəxslər;
19.4.6. toksikomanlığa düçar olan şəxslər.

19.5. Qeydiyyatı aparan narkoloji tibb müəssisəsi narkomanlığa düçar olan, habelə narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslər barəsində kəmiyyət göstəricilərini ümummilli məlumat bankına daxil edilməsi üçün Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına göndərir.

19.6. Narkoloji xəstələrin qeydiyyatının aparılması qaydası və onların qeydiyyatda olma müddəti Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Maddə 20. Sərxoşluq hallarının müəyyən edilməsi məqsədilə tibbi müayinənin aparılması**

20.1. İnsan psixikasına təsir göstərən maddələrin istifadə edilməsi nəticəsində yaranan sərxoşluq hallarının bütün növlərinin müəyyən edilməsi məqsədilə aparılan tibbi müayinə yalnız narkoloji tibb müəssisəsinin həkim-narkoloqu tərəfindən həyata keçirilir. Sərxoşluq hallarının müəyyən edilməsi məqsədilə aparılan tibbi müayinə təhqiqat, istintaq orqanlarının və məhkəmənin qərarı əsasında, habelə işə götürənin vəsatəti və ya müayinə olunan şəxsin təşəbbüsü əsasında həyata keçirilir.

20.2. Sərxoşluq hallarının müəyyən edilməsi məqsədilə tibbi müayinənin aparılması qaydası Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir. Sərxoşluq hallarının müəyyən edilməsi məqsədilə tibbi müayinənin aparılması üsulları Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti tərəfindən təsdiq edilir.



20.3. Sərxoşluq hallarının müəyyən edilməsi məqsədilə həyata keçirilən müayinənin nəticələrinin yoxlanılması, müayinənin aparılması nəticəsində yaranmış mübahisələrin məhkəməyə qədər həll olunması üçün Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının nəzdində münaqişə komissiyası təşkil edilir. Sərxoşluq hallarının müəyyən edilməsi məqsədilə aparılan müayinənin nəticələrindən narazı olan şəxs mübahisəli məsələlərin məhkəməyə qədər həll edilməsi üçün həmin münaqişə komissiyasına ərizə ilə müraciət edə bilər.

Şəxsin münaqişə komissiyasına müraciət etməsi onun məhkəməyə müraciət etmək hüququnu məhdudlaşdırmır.

Münaqişə komissiyasına daxil olmuş ərizə üzrə qərar işin məhkəmə baxışına qədər çıxarılmalıdır. Münaqişə komissiyasının tərkibi və fəaliyyət qaydası Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

20.4. Sərxoşluq halının müəyyən edilməsi məqsədilə aparılan tibbi müayinə nəticəsində şəxsin narkotik vasitələri və psixotrop maddələri istehlak etməsi müəyyən edildikdə bu barədə məlumat narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların dövriyyəsinə dair ümummilli məlumat bankına verilməlidir.

**Maddə 21. Narkoloji xəstələr barəsində məhkəmə qaydasında tətbiq olunan məcburiyyət tədbirləri**

21.1. Cinayət törətmiş narkoloji xəstələr barəsində tibbi xarakterli məcburi tədbirlər Azərbaycan Respublikasının Cinayət Məcəlləsi ilə müəyyən edilmiş qaydada tətbiq edilir.

21.2. İnsan psixikasına təsir göstərən maddələrdən sui-istifadə nəticəsində öz ailəsini ağır maddi vəziyyətə salan şəxslərin fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən məhdudlaşdırıla bilər. Şəxsin məhdud

fəaliyyət qabiliyyətli hesab edilməsi haqqında iş onun ailə üzvlərinin, Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının ərizəsi üzrə qaldırıla bilər. Şəxsin məhdud fəaliyyət qabiliyyətli hesab edilməsi barədə işə Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi ilə nəzərdə tutulmuş qaydada baxılır.

21.3. Azərbaycan Respublikasının Ailə Məcəlləsi ilə müəyyən edilmiş qaydada narkoloji xəstələr valideynlik hüququndan məhrum oluna bilərlər.

**Maddə 22. Narkoloji xəstəliklərin doğurduğu nəticələrin qeydiyyatı**

22.1. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları narkoloji xəstəliklərin və insan psixikasına təsir göstərən maddələrin sui-istifadəsi ilə bağlı nəticələrin (cinayətlərin törədilməsi, ölüm hadisələri və onların səbəbləri, intihar etmə, əlillik, xəsarət alma, zəhərlənmə, somatik və yoluxucu xəstəliklərə düçar olma hallarının) qeydiyyatını aparırlar.

22.2. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı narkoloji xəstəliklərin və insan psixikasına təsir göstərən maddələrin sui-istifadəsi ilə bağlı nəticələr barəsində məlumatları toplayır, sistemləşdirir və təhlil edir.

22.3. Azərbaycan Respublikasının bütün tibb müəssisələri narkoloji xəstəliklərin və insan psixikasına təsir göstərən maddələrin sui-istifadəsi ilə bağlı nəticələr barədə məlumatları Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına təqdim etməyə borcludurlar.



## VI FƏSİL.

## Narkoloji nəzarət sahəsində xəbərdaredici tədbirlər

**Maddə 23. Narkoloji nəzarət sahəsində xəbərdaredici tədbirlər**

23.1. Narkoloji nəzarət sahəsində xəbərdaredici tədbirlər narkoloji nəzarət tədbirlərinin tərkib hissəsi olaraq insan psixikasına təsir göstərən maddələrdən sui-istifadə etmə hallarının, habelə narkoloji xəstəliklərin inkişafının və yayılmasının qarşısının alınmasına, insan psixikasına təsir göstərən maddələrin sui-istifadəsinin və narkoloji xəstəliklərin doğurduğu mənfi nəticələrin narkoloji xəstə və cəmiyyət üçün yaratdığı ziyanın azaldılmasına yönəlir.

23.2. Narkoloji nəzarət sahəsində xəbərdaredici tədbirlər bütün təhsil, tibb və cəzaları icra edən müəssisələrdə, habelə narkoloji xəstəliklərə düçar olma ehtimalı yüksək olan şəxslər arasında həyata keçirilir. Narkoloji nəzarət sahəsində həyata keçirilən xəbərdaredici tədbirlər aşağıdakılardan ibarətdir:

23.2.1. sağlam həyat tərzinin təbliğ edilməsi və narkoloji xəstəliklərin yayılmasına qarşı təbliğatın aparılması;

23.2.2. əhalinin insan psixikasına təsir göstərən maddələrin istehlakının insanın, ailənin və cəmiyyətin sağlamlığı üçün yaratdığı nəticələr, insan psixikasına təsir göstərən maddələrin vurduğu ziyanın azaldılması məqsədilə görülməsi mümkün olan səmərəli tədbirlər, narkoloji xəstələrin səhhəti üzərində nəzarətin imkanları barədə məlumatlandırılması;

23.2.3. təhsil müəssisələrində insan psixikasına təsir göstərən maddələrin ziyanı barədə mühazirələrin, seminarların, təlim məşğələlərinin keçirilməsi;

23.2.4. narkoloji xəstələrə tətbiq edilə bilən Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş təsir tədbirləri və məhdudiyyətlər barədə məlumatlandırılması;

23.2.5. narkoloji xəstəliklərə düçar olmaq ehtimalı yüksək

olan şəxslərin müəyyən edilməsi;

23.2.6. xəbərdaredici baxışların (yoxlamaların) həyata keçirilməsi;

23.2.7. insan psixikasına təsir göstərən maddələrdən sui-istifadə edilməsinin qarşısının alınması məqsədilə ticarət, xidmət, reklam və digər sahələrdə qanunvericiliklə nəzərdə tutulmuş qadağanların tətbiq edilməsi.

23.3. Xəbərdaredici tədbirlərin həyata keçirildiyi tibb, təhsil və cəzaları icra edən müəssisələrin rəhbərləri dövlət narkoloji tibb müəssisələrinin mütəxəssisləri tərəfindən həyata keçirilən xəbərdaredici tədbirlərə mane olmamalı, ehtiyac olduqda yetkinlik yaşına çatmayanlar, şagirdlər, tələbələr, məhkum edilmiş şəxslər arasında xəbərdaredici baxışların (yoxlamaların) keçirilməsini təmin etməlidirlər.

23.4. Bütün səhiyyə işçiləri insan psixikasına təsir göstərən maddələrdən sui-istifadə edən şəxslərin müəyyən edilməsinə diqqət yetirməlidirlər. Narkoloji xəstəliklərin qarşısının alınması məqsədilə əhalinin sağlamlığı sahəsində xidmət göstərilərkən insan psixikasına təsir göstərən maddələrdən sui-istifadə edən aşağıdakı şəxslərə xüsusi diqqət yetirilməlidir:

23.4.1. yetkinlik yaşına çatmayanlara;

23.4.2. təhsil müəssisələrinin şagirdlərinə və tələbələrinə;

23.4.3. hamilə və uşağı olan qadınlara;

23.4.4. peşə fəaliyyəti digər şəxslərin həyatı və səhhəti üçün təhlükə ilə bağlı olan şəxslərə;

23.4.5. ağır xəstəliklə əlaqədar həkimin təyinatı əsasında narkotik vasitələri və ya psixotrop maddələri qəbul etmiş şəxslərə;

23.4.6. cəzaları icra edən müəssisələrdə cəza çəkmiş şəxslərə;

23.4.7. ailə tərkibində narkoloji xəstə olan şəxslərə;

23.4.8. müvəqqəti olaraq işsiz olan şəxslərə;

23.4.9. müəyyən yaşayış yeri olmayan şəxslərə;

23.4.10. yoluxucu xəstəliklərdən (HIV/AIDS-dən, hepatitlərdən, cinsi yolla keçən xəstəliklərdən və vərəm xəstəliyindən) əzab çəkən şəxslərə;



23.4.11. psixi xəstələrə.

23.5. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları narkoloji xəstəliklərin profilaktikası üzrə vahid dövlət proqramını hazırlayır və həyata keçirir.

**Maddə 24. Narkoloji nəzarətin təmin edilməsinə yönəldilmiş xüsusi tədbirlər**

24.1. Əhalinin narkoloji xəstəliklərə düçar olması hallarının profilaktikası məqsədilə 18 yaşına çatmamış şəxslərə tütün məmulatlarının və spirtli içkilərin satılması, habelə ictimai iaşə obyektləri istisna olmaqla ictimai yerlərdə spirtli içkilərin istifadə edilməsi qadağandır.

24.2. Azərbaycan Respublikasının ərazisində istehsal olunan bütün spirtli içkilərin və tütün məmulatlarının qabları üzərində onların insanın səhhətinə göstərdiyi mənfi təsiri əks etdirən, habelə onların 18 yaşına çatmamış şəxslərə satılmasının qadağan edilməsi haqqında qeydlər olmalıdır.

24.3. Əhalinin hüquqlarının, qanuni mənafelərinin və dövlətin təhlükəsizliyinin müdafiəsi məqsədilə peşə fəaliyyətinin ayrı-ayrı növləri və yüksək təhlükə mənbəyi ilə bağlı olan fəaliyyətlə məşğul olan şəxslər işə qəbul olduqda, işlədiyi müddətdə isə ildə bir dəfədən az olmayaraq dövlət narkoloji tibb müəssisəsində tibbi müayinədən (tibbi yoxlamadan) keçməlidirlər. Bu şəxslərin müayinədən keçməsi qaydası Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

## VII FƏSİL.

### Yekun müddəalar

**Maddə 25. Bu Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanundan irəli gələn tələbləri pozan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

**Maddə 26. Qanunun qüvvəyə minməsi**

Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

*Bakı şəhəri, 29 iyun 2001-ci il*

## NARKOLOJİ XİDMƏT VƏ NƏZARƏT HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

*(29 yanvar 2004-cü il tarixli, 21 nömrəli fərmana əsasən dəyişiklik və əlavələrlə)*

«Narkoloji xidmət və nəzarət haqqında» Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq olunmasını təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti üç ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının «Narkoloji xidmət və nəzarət haqqında» Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna



uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

«Narkoloji xidmət və nəzarət haqqında» Azərbaycan Respublikası Qanununun 5.8-ci maddəsində nəzərdə tutulmuş narkoloji xəstəliklərin siyahısını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

həmin Qanunun 6.7-ci maddəsində nəzərdə tutulmuş peşə növlərinin və vəzifələrin siyahısını və məhdudiyyətin müddətini müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

həmin Qanunun 8.4-cü maddəsində nəzərdə tutulmuş fondun əsasnaməsini təsdiq etsin və bu barədə

Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

həmin Qanunun 10.6-cı maddəsində nəzərdə tutulmuş tibbi yoxlamanın aparılması qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

həmin Qanunun 11.5-ci maddəsində nəzərdə tutulmuş insan həyatı üçün təhlükə yaradan üsullarla narkoloji xəstələrin müalicəsi qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

həmin Qanunun 12.1-ci maddəsində nəzərdə tutulmuş detoksifikasiyanın keçirilməsi qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

həmin Qanunun 13.0-cı maddəsində nəzərdə tutulmuş xüsusi müşahidənin aparılması qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

həmin Qanunun 14.2-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş narkoloji yardım sahəsində fəaliyyət göstərmək üçün xüsusi razılığın verilməsi qaydasını müəyyən etsin və və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

həmin Qanunun 14.4-cü maddəsində nəzərdə tutulmuş narkoloji tibb müəssisələrində təhlükəsizlik tədbirlərinin tətbiq edilməsi qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

həmin Qanunun 15.2-ci maddəsində nəzərdə tutulmuş dövlət büdcəsinin vəsaiti hesabına göstərilən narkoloji yardımın minimal

standartlarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

həmin Qanunun 16.2-ci maddəsində nəzərdə tutulmuş narkoloji xidmət sahəsində sosial tədbirlər haqqında vahid dövlət proqramını hazırlasın və Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Qanunun 19.6-cı maddəsində nəzərdə tutulmuş narkoloji xəstələrin qeydiyyatının aparılması qaydasını və onların qeydiyyatda olma müddətini müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

həmin Qanunun 23.5-ci maddəsində nəzərdə tutulmuş narkoloji xəstəliklərin profilaktikası üzrə vahid dövlət proqramını hazırlasın və Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Qanunun 24.3-cü maddəsində nəzərdə tutulmuş müayinədən keçmə qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

öz səlahiyyətləri daxilində «Narkoloji xidmət və nəzarət haqqında» Azərbaycan Respublikası Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

«Narkoloji xidmət və nəzarət haqqında» Azərbaycan Respublikası Qanununun 16.2-ci maddəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

həmin Qanunun 5.8-ci maddəsində (narkoloji xəstəliklərin siyahsının müəyyənləşdirilməsinə dair), 6.7-ci,

8.4-cü, 10.6-cı, 11.5-ci, 12.1-ci və 13.0-cı maddələrində, 14.2-ci maddəsinin ikinci cümləsində, 14.4-cü, 15.2-ci, 19.6-cı, 23.5-ci və 24.3-cü maddələrində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

həmin Qanunun 5.7-ci, 5.8-ci (narkoloji xəstəliklərin müalicə standartlarının müəyyənləşdirilməsinə dair), 5.9-cu maddəsində, 14.2-ci maddəsinin birinci cümləsində, 19.4-cü, 20.2-ci, 20.3-cü, 22.2-ci və 22.3-cü maddələrində nəzərdə tutulmuş «müvafiq icra



hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirir;

həmin Qanunun 7.4-cü və 22.1-ci maddələrində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi öz səlahiyyətləri daxilində həyata keçirirlər;

həmin Qanunun 14.3-cü və 19.5-ci maddələrində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir;

həmin Qanunun 17.0-cı maddəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi öz səlahiyyətləri daxilində həyata keçirirlər;

həmin Qanunun 7.3-cü və 21.2-ci maddələrində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini Azərbaycan Respublikasının yerli icra hakimiyyəti orqanları həyata keçirirlər.

*Bakı şəhəri, 17 sentyabr 2001-ci il*

*№ 581*

## MÜLKİ DÖVRİYYƏDƏ OLMASINA YOL VERİLMƏYƏN (MÜLKİ DÖVRİYYƏDƏN ÇIXARILMIŞ) ƏŞYALARIN SİYAHISI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

*(çıxarış)*

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı aşağıdakı kimi müəyyən edilsin:

11. Qanunla Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilən narkotik vasitələr, psixotrop maddələr və prekursorlar.

*Bakı şəhəri, 23 dekabr 2003-cü il*

*№ 564-IIQ*



## MÜLKİ DÖVRİYYƏNİN MÜƏYYƏN İŞTİRAKÇILARINA MƏNSUB OLA BİLƏN VƏ DÖVRİYYƏDƏ OLMASINA XÜSUSİ İCAZƏ ƏSASINDA YOL VERİLƏN (MÜLKİ DÖVRİYYƏSİ MƏHDUDLAŞDIRILMIŞ) ƏŞYALARIN SİYAHISI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

*(4 mart 2005-ci il tarixli, 849-IIQD nömrəli qanuna əsasən dəyişikliklərlə)*

*(çıxarış)*

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı aşağıdakı kimi müəyyən edilsin:

8. Qanunla Azərbaycan Respublikasının ərazisində dövriyyəsi məhdudlaşdırılan narkotik vasitələr, psixotrop maddələr və prekursorlar, Azərbaycan Respublikasının ərazisində dövriyyəsinə nəzarət edilən psixotrop maddələr və prekursorlar, narkotik vasitə və psixotrop maddələrin istehsalında istifadə edilən və dövriyyəsinə nəzarət edilən avadanlıq.

*Bakı şəhəri, 23 dekabr 2003-cü il*

*№ 565-IIQ*

# NARKOMANLIĞA VƏ NARKOTİK VASİTƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNƏ QARŞI TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

*(çıxarış)*

Narkomanlığın və onunla bağlı cinayətkarlığın cəmiyyətin inkişafına mənfi təsir göstərməsi bu təhlükəli təzahürə qarşı əsaslı sosial-hüquqi tədbirlərin həyata keçirilməsi zərurətini yaratmışdır.

Azərbaycan Respublikasında narkomanlığa, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni ümumdövlət vəzifəsi hesab edərək qərara alıram:

2. Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə dövlət komissiyasına tapşırılsın ki, bir ay müddətinə daimi fəaliyyət göstərən işçi qrupu yaratsın və komissiyanın əsasnaməsini hazırlayıb Azərbaycan Respublikasının prezidentinə təqdim etsin.

3. Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə dövlət komissiyasına tapşırılsın ki, Azərbaycan Respublikasında narkomanlığın yayılmasına, narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə üzrə yeni ümummilli proqramı üç ay ərzində hazırlasın.

4. Azərbaycan Respublikası prezidentinin yanında hüquqi islahat komissiyasına və narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə dövlət komissiyasına tapşırılsın ki, «Narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə haqqında» qanun layihəsini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının prezidentinə təqdim etsinlər.

5. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinə tapşırılsın ki, respublikada törədilən, o cümlədən narkotik vasitələrlə bağlı cinayətlərin vahid qeydiyyatını təmin etsin.

6. Azərbaycan Respublikası Ali Məhkəməsinə tövsiyə edilsin,



Azərbaycan Respublikası Prokurorluğuna, daxili işlər, milli təhlükəsizlik nazirliklərinə tapşırılsın ki, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı məhkəmə-istintaq praktikasının vəziyyətini birlikdə ümumiləşdirib mövcud nöqsanların aradan qaldırılması üçün konkret tədbirlər görsünlər.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinə tapşırılsın ki, milli təhlükəsizlik, daxili işlər, ədliyyə, səhiyyə nazirliklərinin və Dövlət Gömrük Komitəsinin narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə üzrə ixtisaslaşan qurumlarının, ekspert-kriminalist xidmətlərinin maddi bazasının möhkəmləndirilməsi üçün tədbirlər görsün.

8. Azərbaycan Respublikası səhiyyə, daxili işlər, ədliyyə, maliyyə nazirliklərinə, Azərbaycan Respublikası Prokurorluğuna tapşırılsın ki, beynəlxalq normalara uyğun olaraq narkotik preparatların alınması, daşınması, saxlanması, uçotu, istifadəsi, məhvi normativlərini və qaydalarını hazırlasınlar.

9. Narkotik tərkibli bitkilərin bitdiyi ərazilərin xəritəsinin tərtib edilməsi, belə bitkilərin mövcud və yeni növlərinin müəyyən edilib yayılmasının öyrənilməsi üçün metodik vəsaitlərin hazırlanması Azərbaycan Respublikası Elmlər Akademiyasına və Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinə tapşırılsın.

10. Narkotik vasitələrin və psixotrop maddələrin yeni növlərindən xəbərdar olmaları məqsədi ilə hüquq-mühafizə orqanları əməkdaşlarının təlimatlar və tövsiyələrlə təmin edilməsi, qeyri-qanuni saxlanan və dövriyyədə olan yeni növ narkotik vasitələr barədə mütəmadi olaraq siyahı-xülasənin tərtib olunması

Azərbaycan Respublikası səhiyyə, daxili işlər, ədliyyə, milli təhlükəsizlik nazirliklərinə, Azərbaycan Respublikası Prokurorluğuna və Dövlət Gömrük Komitəsinə tapşırılsın.

11. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinə tapşırılsın ki, narkotiklərdən qeyri-tibbi məqsədlə istifadə edən şəxslərin müalicəsi, onların əmək qabiliyyətini və sağlamlığını bərpa etmək üçün səmərəli tibbi metodların işlənilməsi və tətbiq edilməsi üçün tədbirlər görsün.

12. Azərbaycan Respublikası Prokurorluğu, milli təhlükəsizlik, daxili işlər, səhiyyə nazirliklərinə və Dövlət Gömrük Komitəsinə

tapşırılsın ki, narkomanlığa və narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə üzrə ixtisaslaşan xidmətlərin əməkdaşlarının peşə hazırlığının artırılması sahəsində kompleks tədbirlər hazırlayıb həyata keçirsinlər.

13. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə tapşırılsın ki, narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısını almaq məqsədi ilə hüquq-mühafizə orqanları ilə birlikdə həmsərhəd və digər dövlətlərlə sazişlər bağlanmasını və müvafiq orqanların narkomanlığa qarşı mübarizə üzrə beynəlxalq proqramlarda iştirakını təmin etsin.

14. Azərbaycan Respublikasının Nazirlər Kabineti və müvafiq mərkəzi icra hakimiyyəti orqanları normativ aktlarının bu fərmana uyğunlaşdırılmasını təmin etsinlər və Azərbaycan Respublikası prezidentinə məlumat versinlər.

15. Azərbaycan Respublikası Prezidentinin «Narkomanlığa qarşı mübarizəni gücləndirmək tədbirləri haqqında» 1992-ci il 7 oktyabr tarixli 253 nömrəli fərmanı qüvvədən düşmüş hesab edilsin.

16. Bu fərman imzalandığı gündən qüvvəyə minir.

*Bakı şəhəri, 26 avqust 1996-cı il*

*№ 485*



# XRONİKİ ALKOQOLİKLƏRİN VƏ NARKOMANLARIN İXTİSASLAŞDIRILMIŞ TİBB MÜƏSSİSƏLƏRİNDƏ SAXLANMASI REJİMİ, NORMATİVLƏRİ VƏ MÜALİCƏSİ HAQQINDA ƏSASNAMƏ

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 5 dekabr tarixli 135 nömrəli qərarı ilə təsdiq edilmişdir.*

*(24 yanvar 2001-ci il 21 saylı; 6 mart 2001-ci il tarixli 59 saylı; 4 fevral 2002-ci il tarixli 21 saylı qərarlara əsasən əlavələr və dəyişikliklərlə)*

## 1. Ümumi müddəalar

1.1. Bu Əsasnamə xroniki alkoqoliklərin və narkomanların ixtisaslaşdırılmış tibb müəssisələrində saxlanması rejimini, normativlərini və müalicə qaydalarını müəyyən edir.

1.2. Cəmiyyətdən təcrid edilməsi ilə əlaqədar olmayan cəzalara məhkum edilmiş, cəzaçəkmə müəssisələrindən azad edilmiş, lakin müalicəsinin davam etdirilməsi zəruri olan xroniki alkoqoliklərin və narkomanların müalicəsi üçün Səhiyyə Nazirliyi nəzdində ixtisaslaşdırılmış tibb müəssisələri (İTM) fəaliyyət göstərir.

## 2. İTM-də tibbi-sanitar xidməti

2.1. İTM-in tibbi heyəti bütün xüsusi müalicə kompleksini təşkil edir və həyata keçirir. İTM-də saxlanılan şəxslərin əməyindən istifadə olunması məsələlərində məsləhət verir, sanitar-gigiyenik qaydalara və epidemiya əleyhinə tədbirlərə əməl olunmasına nəzarəti təmin edir və sanitariya-maarifi işini həyata keçirir.

2.2. İTM-in tibbi heyəti müalicə-profilaktik və sanitariya əks-epidemik işlərin aparılmasında səhiyyə haqqında qüvvədə olan qanunu, həmçinin Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin əmr və kollegiya qərarlarını rəhbər tutur.

2.3. Narkoloji tibb müəssisələrinin rəhbərləri həmin müəssisələrdə işləyən tibbi heyətin və xəstələrlə əlaqədə olan digər

şəxslərin narkoloji xəstələr tərəfindən törədilə biləcək təhlükəli hərəkətlərdən mühafizəsini təmin etməyə borcludurlar.

### 3. İTM-də əməyin və təlimin təşkili

3.1. İTM-də saxlanılan şəxsin islah və tərbiyə olunması onların mütləq ictimai faydalı əməyə cəlb olunmasına əsaslanır, onlar müdiriyyətin təyinatı ilə işləməyə borcludurlar.

Məcburi müalicədə olan şəxslərin xəstəliyinin spesifikliyini nəzərə alaraq onları əməyə cəlb etmək üçün emalatxanalar və köməkçi təsərrüfatlar bilavasitə İTM-in yaxınlığında yerləşdirilməli və ümumi hasarla əhatə olunmalıdır.

3.2. İTM-də saxlanılan şəxslərin əməyi, əməyin mühafizəsi və təhlükəsizlik texnikası qaydalarına əməl olunmaqla təşkil olunur.

3.3. İTM-də saxlanılan şəxslər üçün 8 saatlıq iş günü müəyyən olunur. Onlara həftədə bir istirahət günü verilir.

Əmək qanunvericiliyində nəzərdə tutulmuş qaydada onlar bayram günləri işdən azad olunurlar.

Bazar və bayram günləri onların işə cəlb olunmasına ehtiyac olduqda ay ərzində başqa günlərdə onlara istirahət verilir. İTM-də xəstənin işlədiyi müddət onun ümumi əmək stajına daxil olur.

3.4. İTM-də olan şəxslərə müstəsna hallarda, yaxın qohumunun vəfat etməsi və ya həyat üçün təhlükəli olan ağır xəstəliyi, həmin şəxsə və ya onun qohumuna ağır maddi ziyan vurmuş təbii fəlakət zamanı 10 gündən çox olmayaraq İTM-dən çıxmaq üçün qısamüddətli icazə verilə bilər.

Qısamüddətli çıxıb getmə üçün icazə məhkəmə orqanları ilə razılaşdırılmaqla müdriyyət tərəfindən, İTM-də saxlanılan şəxsin şəxsiyyəti və davranışı nəzərə alınmaqla verilir. Həmin şəxsin İTM-dən kənarda olduğu müddət İTM-də olma müddətinə hesablanır. Gediş haqqı onların özləri və ya qohumları tərəfindən ödənilir.

İTM-dən kənarda olduğu zaman həmin şəxsə əmək haqqı hesablanmır.

3.5. İTM-də saxlanılan şəxslərin əməyinin ödənilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi şərt və qaydalara əməl olunmaqla xalq təsərrüfatının müvafiq sahələrinin və



peşələrinin işçiləri üçün müəyyən olunmuş normativ tarif üzrə aparılır.

3.6. İTM-də saxlanılan şəxsin əmək haqqından İTM-in saxlanılmasına sərf olunan xərclərin qismən ödənilməsi üçün, həmçinin müəyyən olunmuş digər tutulmalar aparılır. İTM-də saxlanılan şəxsin şəxsi hesabına əmək haqqından tutulan bütün tutulmalardan asılı olmayaraq ona hesablanmış əmək haqqından 10%-dən az olmayaraq əmək haqqı keçirilir.

3.7. İTM-də saxlanılan şəxslər əmək haqqı ödənilmədən yalnız İTM-in və ona bitişik ərazinin abadlaşdırılması, həmçinin mədəni-məişət şəraitinin yaxşılaşdırılması işlərinə cəlb oluna bilər.

İTM-də saxlanılanlar bu işlərə bir qayda olaraq növbətçilik əsasında iş vaxtından kənar vaxtlarda cəlb olunurlar və onların müddəti həftədə iki saatdan çox olmamalıdır.

3.8. İTM-də olan və istehsalat ixtisası olmayan şəxslər üçün müəyyən olunmuş qaydada peşə-texniki təlim təşkil olunur.

### 4. İTM-də saxlanılan şəxslərin əsas vəzifə və hüquqları

4.1. İTM-də saxlanılan şəxslər bu Əsasnamə ilə müəyyən olunan məhdudiyyətlər çərçivəsində Azərbaycan Respublikası vətəndaşları üçün qanunda müəyyən olunmuş vəzifələrə və hüquqlara malikdirlər.

4.2. İTM-də saxlanılan şəxslər:

mövcud qanunvericiliyin tələblərinə, həmçinin müəssisənin daxili nizam-intizam qaydalarına dəqiq və ciddi

əməl etməyə;

vicdanla işləməyə və xüsusi müalicə üzrə tibbi heyətin tələblərini yerinə yetirməyə;

əmək intizamına, əməyin mühafizəsi və təhlükəsizlik texnikası qaydalarına əməl etməyə;

əmlaka ehtiyatlı yanaşmağa, yaşayış və istehsalat binalarına və İTM-in ərazisində təmizliyi və səliqəni gözləməyə, şəxsi gigiyenaya əməl etməyə;

nəzakətli olmağa borcludurlar.

4.3. İTM-də saxlanılan şəxslərin şikayət, ərizə və təkliflərlə dövlət orqanlarına, ictimai təşkilatlara və vəzifəli şəxslərə müraciət etmək hüquqları var. Onların şikayət, ərizə və təklifləri İTM-in daxili nizam qaydalarına müvafiq olaraq aidiyyəti üzrə göndərilir və qanunda müəyyən olunmuş qaydada həll olunur.

**5. İTM-də saxlanılan şəxslərə tətbiq olunan həvəsləndirmə və tənbeh etmə tədbirləri**

5.1. Altı aylıq müalicədən sonra müalicə uğurlu olarsa, tibbi rəyə əsasən müəssisədə olan şəxsin müalicə müddəti yarı müddətdən çox olmayaraq qısaldılır, müdiriyyət tərəfindən lazımi sənədlər məhkəməyə göndərilir və qərar əsasında xəstə evə buraxılır. İTM-ə təkrar göndərilmiş şəxslərə müddətin qısaldılması tətbiq olunmur (müstəsna hallardan başqa).

5.2. İTM-in daxili nizam qaydalarını pozan və ya iş-müalicədən yayınan şəxslərə əmək qanunvericiliyində nəzərdə tutulan cəzalar tətbiq olunur.

5.3. İTM-də və ya ora qəbul olunanadək törədilmiş cinayətə görə müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş və ya azadlığı məhdudlaşdırılan şəxslər cəzalarını çəkdikdən sonra məcburi müalicənin yarımçıq qalmış müddətini davam etdirmək üçün İTM-ə göndərilməlidirlər.

**6. İTM-in maddi-məişət təminatı, rejimi və müalicə növləri**

6.1. İTM-də saxlanılan şəxslər zəruri mənzil-məişət şəraitləri və sanitariya-gigiyena qaydaları ilə təmin olunurlar.

İTM-də saxlanan hər bir şəxsə düşən yaşayış sahəsi 2 kvadrat metrdən az olmamalıdır. Bir otaqda isə 10 nəfərə qədər xəstə yerləşdirilə bilər.

6.2. İTM-də saxlanan hər bir şəxsə fərdi yataq yeri və geyim ləvazimatı verilir, onlar mövsümə və məişət şəraitinə uyğun geyim, alt paltarları və ayaqqabı ilə təmin olunurlar, müəyyən olunmuş norma üzrə qida alırlar.



6.3. İTM-də imkan daxilində narkomanlar, xroniki alkoqoliklər və yeniyetmələr biri-birindən ayrı saxlanılırlar. Qadınların məcburi müalicəsi qadın şöbəsində aparılır.

6.4. İTM-ə yeni daxil olan xəstələr məcburi müalicə tibbi xarakterli tədbirlərlə və xəstələrin davranışının korreksiya olunmasına onların itirilmiş və ya enmiş sosial funksiyaların bərpa olunmasına (tibbi və sosial readaptasiya) yönəldilmiş tədbirlər kompleksi ilə təmin olunur.

6.5. Alkoqol əleyhinə və ya narkotik əleyhinə xüsusi müalicə ilə yanaşı xəstəliklərin müalicəsi və ümumi möhkəmləndirici müalicə, psixoterapevtik və psixoloqo-pedaqoji (tərbiyəvi) təsirlər və sosial nəzarət (saxlanma rejimi) məcburi müalicənin komponentləridir. Alkoqolizm və ya narkomaniyalı xəstələrin sosial reabilitasiyası prosesinin təmin olunmasında əmək tərbiyəsinin xüsusi əhəmiyyəti olduğuna görə ictimai faydalı əmək (əmək müalicəsi) məcburi müalicənin ən vacib komponentidir.

6.6. Detoksikasion terapiya alkoqoldan və ya narkotik maddələrdən kəskin fiziki və psixi asılılığın və abstinensiyanın digər əlamətlərinin aradan götürülməsi, ümumi möhkəmləndirici müalicə, qrup psixoterapiyası xəstə İTM-yə daxil olan kimi bağlanır və İTM-də saxlanan digər şəxslərdən izolyasiya olunmaqla stasionar şəraitində aparılır.

6.7. Alkoqol əleyhinə və ya narkotik əleyhinə xüsusi müalicə (sensibilizasiya, şərti-reflektor terapiya) xəstəyə belə müalicənin təyin olunması haqqında xəstənin yazılı ərizəsi olduqda aparılır.

6.8. Alkoqolizm və ya narkomaniyalı xəstələrin psixoterapiyası onun bütün növ və formalarında differensə olunmuş və ardıcıl olaraq xəstələri İTM-in şəraitinə adaptasiya olunmasına anozoqnoziyanın dəf olunmasına, könüllü olaraq müalicəyə və ayıqlığa meylin hasil olunmasına yönəldilir. Müalicənin bütün mərhələlərində əsas forma qrup psixoterapiyasıdır.

Müalicədən yayınan, xüsusilə şəxsiyyətin psixopatoloji dəyişikliyi ilə əlaqədar olan affektiv davranışlı xəstələrə fərdi nəzarət və əlavə psixofarmakorreksiya lazımdır.

6.9. İTM-də gün rejimi müalicənin mərhələsindən asılıdır və Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin «Xroniki alkoqolizm

və ya narkomaniyalı xəstələrin məcburi müalicəsinin Azərbaycan Respublikası Səhiyyə Nazirliyi sistemində təşkil və təmin olunması haqqında Təlimat»a əsasən tənzim edilir.

**7. İTM-dən evə yazılma**

7.1. İTM-də olan şəxs təyin olunmuş məcburi müalicə müddəti qurtardıqdan sonra evə yazıla bilər və bu haqda qəbul olunmuş qaydada məhkəmə orqanlarına sənəd göndərilir.

7.2. İTM-də saxlanan şəxs onun bu idarədə qalmasına mane olan xroniki-ruhi və digər ağır xəstəliklərlə xəstələndikdə müdiriyyət məhkəmə orqanlarının razılığı ilə həmin şəxsin vaxtından əvvəl İTM-dən ayrı xəstəxanaya köçürülməsi məsələsini həll edir.

7.3. İTM-dən xəstəliyə görə vaxtından əvvəl evə yazdıqda müdiriyyət belə şəxslərin yerli səhiyyə orqanları vasitəsilə müalicəsinin təşkil olunması üçün lazım olan tədbirləri görür və ya onları öz qohumlarına təhvil verir, qohumları olmadıqda isə onları əlillər və qocalar üçün internat evlərdə yerləşdirilməsi barədə sosial-təminat idarələri qarşısında məsələ qaldırır. Lakin qulluq tələb olunduğu hallarda müdiriyyət belə şəxsləri müvafiq idarələrə və ya seçilmiş yaşayış yerinə aparılmasını təşkil edir.

Ehtiyac olduğu hallarda müdiriyyət xəstəliyə görə İTM-dən vaxtından əvvəl evə yazılmış şəxslərin işlə təmin olunması üçün tədbirlər görür.

7.4. Xəstənin şəxsiyyət vəsiqəsi olmadıqda müdiriyyət onun evə yazılmasından 2 ay əvvəl şəxsiyyət vəsiqəsi verilməsi üçün lazım olan materialları İTM-in yerləşdiyi ərazi üzrə daxili işlər orqanlarına göndərir.

7.5. Əgər İTM-də olma müddəti bazar və ya bayram günü qurtarırsa, onda həmin şəxs şənbə, yaxud bayramdan əvvəlki gün evə yazılır.

Xəstə ilə tam hesablaşma aparılır, şəxsi əşya, sənəd və pulları ona qaytarılır. Əgər İTM-dən evə yazılarkən həmin şəxs əmlakın dəyərini tam ödəmək imkanına malik deyilsə, onda ödənilməmiş məbləğ xüsusi vəsait hesabına silinir.

Evə yazılan şəxsin əmək kitabçası olmadıqda ona İTM-dəki işin



müddəti və xarakteri haqqında arayış verilir. Evə yazılan şəxsə işinə görə xasiyyətnamə verilir.

İTM-dən evə yazılan şəxs yaşayış və yaxud iş yerinə pulsuz gedişlə təmin olunur. Həmçinin müəyyən olunmuş norma üzrə gediş müddətində ərzaq məhsulları və ya pulla təmin olunur.

İTM-dən evə yazılan şəxslər mövsümə uyğun paltar və ayaqqabı ilə təmin olunmalıdırlar. Onları almaq üçün pul olmadıqda isə evə yazılan şəxsə pulsuz paltar və ayaqqabı verilməlidir. İTM-də vəfat edən xəstələr qohumlarına verilir. Qohumları olmadıqda müəssisənin vəsaiti hesabına dəfn edilir.

7.6. İTM-dən evə yazılan şəxslər haqqında müdiriyyət onları işlə təmin olunmasına kömək etmək üçün yaşayış yeri üzrə icra hakimiyyətinin başçısına müraciət edir və dispanser müşahidəsini təmin etmək üçün müvafiq narkoloji dispanserə məlumat verir.

8. Cəmiyyətdən təcrid edilməsi ilə əlaqədar olmayan cəzalara məhkum edilmiş cəza almış və ixtisaslaşdırılmış tibb müəssisələrindən buraxılmış xroniki alkoqoliklər və narkomanlar yaşayış yerlərində və ya səhiyyə orqanlarında uçota götürülür, yerli icra hakimiyyəti ilə birlikdə onların sosial reabilitasiyasına köməklik göstərilir, davranışları və səhhətlərinə nəzarət edilməsi təmin olunur.

9. Müalicədən boyun qaçıran xroniki alkoqoliklər və narkomanlar barədə Səhiyyə Nazirliyi, Daxili İşlər Nazirliyi və ədliyyə orqanları mütəmadi olaraq bir-birlərinə müvafiq məlumatların göndərilməsini və ehtiyac olduğu halda bu məsələlərin həllində qarşılıqlı köməklik göstərilməsini təmin edirlər.

10. İxtisaslaşdırılmış tibb müəssisəsinin mühafizəsi Səhiyyə Nazirliyi və Daxili İşlər Nazirliyinin bağladıqları müqavilə əsasında həyata keçirilir.

## SƏRXOŞLUQ HALLARININ BÜTÜN NÖVLƏRİNİN VƏ İNSAN BƏDƏNİ DAXİLİNDƏ NARKOTİK VASİTƏLƏRİN VƏ PSİXOTROP MADDƏLƏRİN GİZLƏDİLMƏSİ HALLARININ MÜƏYYƏN EDİLMƏSİ MƏQSƏDİ İLƏ TİBBİ MÜAYİNƏNİN KEÇİRİLMƏSİ

## QAYDASI

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 7 avqust tarixli, 135 nömrəli qərarı ilə təsdiq edilmişdir.*

*(9 iyun 2003-cü il tarixli 78 saylı qərara əsasən əlavə və dəyişikliklərlə)*

1. İnsan psixikasına təsir göstərən maddələrdən sui-istifadə edilməsi nəticəsində yaranan sərxoşluq hallarının bütün növlərinin müəyyən edilməsi məqsədi ilə aparılan tibbi müayinə yalnız narkoloji tibb müəssisəsinin həkim-narkoloqu tərəfindən həyata keçirilir. Sərxoşluq hallarının müəyyən edilməsi məqsədi ilə aparılan tibbi müayinə təhqiqat, istintaq orqanlarının və ya məhkəmənin qərarı əsasında, habelə işəgötürənin vəsatəti və ya müayinə olunan şəxsin təşəbbüsü əsasında həyata keçirilir.

2. Tibbi müayinə vasitəsi ilə yoxlanılan şəxsin sərxoşluq vəziyyətində olub-olmaması, orqanizmdə olan narkotik vasitələrin və psixotrop maddələrin növü, ehtiyac olduqda miqdarı və istehlak etmə vaxtı təyin olunur.

Tibbi müayinənin keçirilməsinin səbəbi, gedişi, aparılan tədqiqatın növləri və nəticəsi tərtib edilmiş rəydə öz əksini tapır.

3. Müayinə aparan həkim-narkoloq 2 nüsxədə (əsli və surəti) Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilmiş xüsusi formaya uyğun tibbi müayinə protokolu tərtib edir. Protokolda yoxlanılan şəxsin pasport məlumatları, müayinə aparılması barədə qərar çıxaran orqanın adı, müayinənin səbəbi qeyd olunur. Müayinə zamanı həkim-narkoloq yoxlanılan şəxsdən geniş anamnez toplayır, onun xarici görünüşünə, davranışına nəzarət yetirir, şüurunun vəziyyətini, nitq qabiliyyətini, vegetativ damar reaksiyalarını, tənəffüsün tezliyini, nəbzini və arterial təzyiqini, bəbəklərinin



vəziyyətini, hərəkət sferasını, mimikasını yoxlayır, xüsusi sınaqlar aparır. Bunlarla yanaşı, yoxlanılan şəxsin psixi vəziyyəti (əhval-ruhiyyəsinin vəziyyəti və dəyişkənliyi, emosional fonu, yaddaş və diqqəti, psixi ajitasiya, aqressivlik, təfəkkürün sürəti, həyəcanlı, səksəkəli olması, vaxt gedişini qiymətləndirməsi, qeyri-adekvat ideyalar və sair) ətraflı müayinə olunur. Tibbi müayinə obyektiv və dəqiq anamnestik məlumatlarla birgə müayinə olunanın vəziyyətini qiymətləndirməyə və düzgün rəy verməyə imkan verir. Müayinənin nəticələri protokolda qeyd olunur və müayinə olunan şəxsə elan edilir. Müraciət olunduğu andan müayinə başlanmış hesab edilir və onun keçirilmə müddəti zəruri tədqiqatların aparılmasına sərf olunan vaxtdan asılıdır.

4. Əgər yaranmış vəziyyətlə əlaqədar (müayinə olunan şəxsin vəziyyətinin ağırlığı, müayinədən imtina edərək müqavimət göstərməsi və sairə) müayinənin tam həcmdə aparılması mümkün deyildirsə, tibbi müayinə protokolunda bu səbəb qeyd edilir və bioloji mayelərin (qan, tüpürcək, sidik, hava və s.) müayinəsi aparılır. Müayinə olunan şəxsdən götürülən bioloji mühit nümunələrinin mühafizəsini təmin etmək məqsədi ilə metodik göstərişlərin tələblərinə və digər zəruri şərtlərə riayət etməklə, həmin nümunələr 30 gündən az olmayaraq müayinə aparılan müəssisədə saxlanılmalıdır. Bioloji mayelərin müayinəsi ciddi olaraq xüsusi təlimat və metodika üzrə aparılır və müayinənin gedişi protokollaşdırılır. Bioloji mayelərin müayinəsinin və kliniki müayinənin nəticələri cəmləşdirilərək ümumi rəy verilir.

5. Protokolun surəti müayinə aparılan tibb müəssisəsində qalır və stasionar xəstənin tibbi kartları üçün müəyyən edilmiş qaydada mühafizə olunur.

6. Travma ilə əlaqədar tibb müəssisəsinə daxil olmuş xəstələri müayinə edərkən, onlarda sərxoşluq halı aşkara çıxarılarsa, rəydə sərxoşluq halının olması faktı qeyd edilir, qəbul olunmuş forma üzrə protokol tərtib olunur və ambulator və ya stasionar xəstələrin tibbi kartalarında sərxoşluq halı haqqında rəylə yanaşı, tibbi müayinə protokolunun say nömrəsi göstərilir.

Təxirəsalınmaz hallarda sərxoşluğun olması haqqında rəy stasionar xəstənin kartasında xəstənin statusu və laborator

müayinələrin nəticələri barədə məlumatlar əsasında verilir.

7. Tibbi protokolların olmaması müayinənin keçirilməsindən imtina üçün səbəb ola bilməz. Protokolun özbaşına şəkildə tərtib edilməsi yolverilməzdir. Hər bir halda protokol təsdiq olunmuş nümunəyə uyğun tərtib edilməlidir. Tibbi müayinənin xərcləri dövlət vəsaiti hesabına ödənilir.

8. Sərxoşluq hallarının müəyyən edilməsi məqsədi ilə həyata keçirilən müayinənin nəticələrinin yoxlanılması, müayinənin aparılması nəticəsində yaranmış mübahisələrin məhkəməyə qədər həll olunması üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin nəzdində münaqişə komissiyası təşkil edilir. Sərxoşluq hallarının müəyyən edilməsi məqsədi ilə aparılan müayinənin nəticələrindən narazı olan şəxs mübahisəli məsələlərin məhkəməyə qədər həll edilməsi üçün həmin münaqişə komissiyasına ərizə ilə müraciət edə bilər. Münaqişə komissiyasına daxil olmuş ərizə üzrə qərar işin məhkəmədə baxılmasına qədər çıxarılmalıdır. Sərxoşluq halının müəyyən edilməsi məqsədi ilə aparılan tibbi müayinə nəticəsində şəxsin narkotik vasitələr və ya psixotrop maddələri istehlak etməsi müəyyən edildikdə, bu barədə məlumat narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların dövriyyəsinə dair Ümummilli Məlumat Bankına verilməlidir.

9. Narkotik vasitələr və psixotrop maddələr daşınması haqqında əsaslı şübhələr olan şəxsin, narkotik sərxoşluq vəziyyətində olub-olmaması ümumi qaydalarla aşkar edilir, həmin şəxs tibbi müayinədən keçirilməklə yanaşı, xüsusi ayrılmış yerdə, eyni cinsdən olan tibb işçisi tərəfindən bilavasitə yoxlanılır və rentgenoloji müayinədən keçirilir.

10. Sərxoşluq hallarının bütün növlərinin təyini məqsədi ilə aparılan hər bir müayinə barədə mütləq qaydada qeydiyyat aparılır. Bunun üçün qeydiyyat jurnalından istifadə olunur. Jurnalda aşağıdakılar göstərilir:

1-ci sütunda sıra nömrəsi;

2-ci sütunda müayinənin keçirilmə vaxtı və tarixi;

3-cü sütunda müayinə olunanı göndərən təşkilatın adı, göndərişin tarixi;



4-cü sütunda müayinə olunanın soyadı, adı, atasının adı və yaşı;

5-ci sütunda müayinə olunanı təqdim edən şəxsin soyadı, adı, atasının adı, vəzifəsi, xidməti vəsiqəsinin nömrəsi;

6-cı sütunda müayinə aparan tibb işçisinin soyadı, adı, atasının adı;

7-ci sütunda müayinənin nəticəsi;

8-ci sütunda tibb işçisinin imzası;

9-cu sütunda müayinə protokolunun nömrəsi;

10-cu sütunda protokolu alan şəxsin imzası və ya poçtla göndərilən ünvan və tarix.

Jurnal müayinədə iştirak etmiş tibb işçisi tərəfindən doldurulur və müayinə aparılan kabinetdə saxlanılır.

Jurnalın doldurulan vərəqləri nömrələnməli, tikilməli və tibb müəssisəsinin möhürü ilə təsdiq edilməlidir.

# NARKOTİK VASİTƏLƏRİN VƏ PSİXOTROP MADDƏLƏRİN TİBBİ MƏQSƏDLƏRLƏ İSTİFADƏ EDİLMƏSİ QAYDASI VƏ ŞƏRTLƏRİ, HABELƏ NARKOLOJİ XƏSTƏLƏR BARƏSİNDƏ TİBBİ TƏDBİRLƏRİN TƏTBİQ EDİLMƏSİ

## QAYDASI

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli, 165 nömrəli qərarı ilə təsdiq edilmişdir.*

*(4 fevral 2002-ci il tarixli 21 saylı, 27 sentyabr 2002-ci il tarixli 148 saylı; 26 noyabr 2002-ci il tarixli 186 saylı; 9 iyun 2003-cü il tarixli 78 saylı qərarlara əsasən əlavələr və dəyişikliklərlə)*

### 1. Narkotik vasitələrdən və psixotrop maddələrdən tibbi məqsədlərlə istifadə edilməsi qaydası və şərtləri

1. Müalicə-profilaktika müəssisələrində narkotik və psixotrop dərman preparatları yalnız müalicə həkimləri tərəfindən xəstəlik tarixində preparatın adı, dozası, miqdarı, təyin olunma tarixi və vaxtı aydın göstərilməklə təyin edilir.

2. Narkotik və psixotrop dərman preparatlarının inyeksiya olunma əməliyyatı anestezist və ya palata tibb bacıları tərəfindən müalicə həkiminin (həkim-anestezioloqun) və ya onların saxlanılması və uçotu üçün məsul olan baş tibb bacısının iştirakı ilə yerinə yetirilir. Bu barədə xəstəlik tarixində və təyinat vərəqində müvafiq qeydiyyat aparılır.

3. Axşam və gecə növbələri zamanı təxirəsalınmaz tibbi yardım göstərmək məqsədi ilə narkotik və psixotrop dərman preparatları növbətçi həkim tərəfindən təyin edilir və təyinat onun iştirakı ilə növbətçi tibb bacısı tərəfindən yerinə yetirilir. Bu barədə xəstəlik tarixində və təyinat vərəqində müvafiq qaydada qeydiyyat aparılır.

4. Anestezioloji-reanimatoloji xidmətdə hemodinamikaya, tənəffüsə daimi nəzarət və onların korreksiya olunması mümkün olan hallarda narkotik və psixotrop dərman preparatlarından



narkoz aparma və ya narkotik yuxu vəziyyəti yaratmaq məqsədi ilə istifadə edildikdə, preparatların dozası fərdi qaydada müəyyən edilir və bu halda onların işlədilən miqdarı farmakopeya ilə müəyyən edilmiş birdəfəlik və sutkalıq dozadan artıq ola bilər.

5. Hemodinamikaya və tənəffüsə daimi nəzarətin və onların korreksiyasının (idarə olunan hipo və hipertoniya, süni tənəffüs) mümkün olmadığı bütün hallarda narkotik və psixotrop dərman preparatlarının farmakopeya ilə müəyyən edilmiş birdəfəlik və sutkalıq dozadan artıq miqdarda işlədilməsi yolverilməzdir.

6. Stasionarı olmayan müalicə-profilaktika müəssisələrində (poliklinikalar, təcili yardım stansiyaları) narkotiklər və miqdarı, uçotu aparılan psixotrop dərman preparatları xüsusi hallarda (onkoloji xəstəliklər zamanı, təxirəsalınmaz tibbi yardım göstərməsinə ehtiyac olduqda) müalicə həkimləri tərəfindən təyin edilir və təyinat onların iştirakı ilə tibb bacıları tərəfindən yerinə yetirilir.

7. Narkotik maddələrdən müəyyən müddət istifadə etdikdən sonra gözlənilən nəticə əldə edilmədikdə (xəstədə ağrı sindromunu aradan götürmək mümkün olmadıqda), təyin edilmiş doza müalicə həkimi və şöbə müdiri tərəfindən, tibbi sənədlərdə müvafiq əsaslandırılmış qeydlər aparılmaqla, 2-3 dəfə artırıla bilər.

8. Müstəsna hallarda narkotik dərman preparatlarını uzun müddət qəbul edən xəstələrdə (4-cü mərhələdə olan onkoloji xəstələr) narkotikə qarşı vərdiş hallarının meydana gəlməsi ilə əlaqədar dozanın artırılmasına ehtiyac duyulur. Bu zaman həkim-məsləhət komissiyası tərəfindən xəstə tam müayinədən keçirilir, narkotik dərman preparatının dozasının artırılmasına həqiqətən ehtiyac olduğu müəyyənləşdirilir və preparatın dozasının tələb olunan miqdara qədər artırılması barədə tibbi sənədlərdə müvafiq qeydiyyat aparılır.

Həkim-məsləhət komissiyası tərəfindən narkotik maddələrin həqiqətən də xəstə tərəfindən qəbul edildiyinə mütəmadi nəzarət həyata keçirilir.

9. Narkotik vasitələrdən müalicə-profilaktika müəssisələrində tibbi məqsədlərlə istifadə oluna bilər.

10. Narkotik vasitələr tibbi məqsədlərlə aşağıdakı hallarda istifadə edilir:

adi ağrıkəsici dərman preparatlarının təsirinin az olduğu və ya tam olmadığı hallarda güclü ağrı sindromunu aradan qaldırmaq məqsədi ilə;

cərrahi əməliyyatlardan əvvəl premedikasiya məqsədi ilə;

cərrahi əməliyyatlar vaxtı anesteziyanın komponenti kimi;

cərrahi əməliyyatlardan sonra ağrısızlaşdırmaq məqsədi ilə;

anafilaktik reaksiyaları aradan qaldırmaq məqsədi ilə;

narkoloji xəstələrin müalicəsində terapevtik vasitə kimi;

eksperimental tədqiqatlar zamanı hər hansı bir patologiyanın modelləşdirilməsi üzrə aparılan təcrübələrin həyata keçirilməsi məqsədi ilə.

11. Psixotrop maddələr tibbi məqsədlərlə mərkəzi sinir sisteminin, şüurun müxtəlif formalı və gedişli funksional, üzvi dəyişiklikləri müşahidə edilən hallarda profilaktik, müalicəvi vasitə kimi istifadə olunur.

## 2. Narkoloji xəstələr barəsində tibbi tədbirlərin tətbiq edilməsi

1. Azərbaycan Respublikasının ərazisində narkoloji xəstəliklərin müalicəsi cəzaçəkmə müəssisələri və istintaq təcridxanaları istisna olmaqla, yalnız narkoloji tibb müəssisələrində həyata keçirilir.

2. Narkoloji xəstələrin müalicəsi üsulları narkoloji xəstənin səhhətinin vəziyyəti və onu əhatə edən mühit nəzərə alınmaqla narkoloji müəssisədə (stasionar və ya ambulator şəraitdə) və ya xəstənin evində (ambulator şəraitdə) həkim-narkoloq tərəfindən tətbiq edilir. Ev şəraitində müalicə olunan narkoloji xəstələr haqqında tətbiq edilən bütün müalicə tədbirləri narkoloji xəstələrin müşahidəsi üçün nəzərdə tutulan ambulator kartasına daxil edilməlidir. Narkoloji xəstə barəsində fəal müalicə kursundan sonra aparılan sosial-psixoloji reabilitasiya kursu onun fərdi tələbatına uyğun olmalıdır.

3. Həkim-narkoloq psixoloqla birlikdə hər bir narkoloji xəstənin fərdi müalicə, sosial-psixoloji reabilitasiya və sonrakı müşahidə proqramını tərtib edir.



4. Azərbaycan Respublikasının ərazisində narkoloji xəstəliklərin müalicəsi cəzaçəkmə müəssisələri və istintaq təcridxanaları istisna olmaqla, yalnız narkoloji tibb müəssisələrində həyata keçirilir.

5. İnsan həyatı üçün təhlükə yaradan üsullarla narkoloji xəstələrin müalicəsi (kodlaşdırma və s.) yalnız dövlət narkoloji tibb müəssisələrində həyata keçirilir. Bu üsulların tətbiq edilməsinə yalnız narkoloji xəstə tərəfindən könüllü olaraq yazılı şəkildə verilmiş ərizə əsasında yol verilir. Bu üsulları tətbiq edən həkim xəstəni əvvəlcədən bütün baş verə biləcək nəticələr barədə yazılı şəkildə xəbərdar etməlidir.

6. Yalnız damardaxili və opium qrupuna daxil olan narkotik vasitələrdən qeyri-tibbi məqsədlərlə istifadə edən şəxslərə əvəzedici müalicədə istifadəsinə icazə verilmiş, tibb sənayesi tərəfindən istehsal olunan sintetik opium preparatları (metodon-hidroxlorid, buprofenmorfin, morfin-sulfat və s.) tətbiq olunur.

**7.Əvəzedici müalicə aşağıdakı məqsədlərlə tətbiq olunur:**

7.1. Narkotik vasitələrdən qeyri-tibbi məqsədlərlə istifadə edən şəxslərin somatik, psixoloji durumunu yaxşılaşdırmaq, onların sosioloji adaptasiyası və reinteqrasiyasını təmin etmək.

7.2. QİÇS və hepatit B, S və s. yoluxucu xəstəliklərin profilaktikasının səmərəliliyini artırmaq.

7.3. Narkotik vasitələrin qəbulu nəticəsində yaranmış xəstəliklərin (vərəm, QİÇS, dəri-zöhrəvi xəstəlikləri və s.) və ağırlaşmış vəziyyətlərin (sepsis və s.) müalicəsini və bu xəstəliklərin profilaktikasını təmin etmək.

7.4. Ana bətnində dölün normal inkişafını və müşahidəsini təmin etmək.

7.5. Narkomanları narkoloji tibb müəssisələrinə müalicəyə daha geniş cəlb etmək.

7.6. QİÇS xəstəliyinə düçar olmuş narkomanlarda narkotiklərin damardaxili istifadəsini aradan qaldırmaq.

### 3. Əvəzedici müalicənin təyini üçün vacib şərtlər aşağıdakılardır:

3.1. İki ildən az olmayaraq müddətdə narkotik vasitələrin damardaxili qəbulu, aparılmış müalicə kursunun ən azı 2 dəfə səmərəsiz nəticə verməsi.
3.2. Narkotik vasitələrin qəbulu nəticəsində yanaşı xəstəliklərin (xora xəstəliyi, sepsis, hepatitlər, kaxeksiya, QİÇS) əmələ gəlməsi.
3.3. Fəsadlı xəstəliklərin (xərçəng, şəkərli diabet və ağır somatik xəstəliklər) olması.
3.4. Hamiləlik.
3.5. Həkim-məsləhət komissiyası tərəfindən fərdi hallarda tövsiyə olunan vəziyyətlər.

### 4. Əvəzedici müalicənin təyin edilməsi

4.1. Əvəzedici müalicə belə növ fəaliyyətə xüsusi razılıq almış narkoloji tibb müəssisələrində həkim-narkoloq tərəfindən aparılır.
4.2. Narkoloji tibb müəssisəsi rəhbərinin əmri ilə təşkil olunmuş həkim-məsləhət komissiyası əvəzedici müalicənin təyin olunmasına, müalicənin düzgün, təlimatlara uyğun aparılmasına, səmərəli olmasına, müalicənin dayandırılmasına nəzarət edir və cavabdehlik daşıyır.
4.3. Əvəzedici müalicə qohumlarının razılığı ilə xəstənin təqdim etdiyi ətraflı ərizəyə, həkim-rentgenoloq və terapevtin rəylərinə əsasən həkim-məsləhət komissiyası tərəfindən təyin olunur. Əvəzedici müalicə xəstənin və həkimin hüquqlarının və vəzifələrini müəyyən edən müqavilə əsasında tətbiq olunur.
4.4. Əvəzedici müalicə anonim qaydada aparıla bilməz.
4.5. Əvəzedici müalicə təyin olunmuş xəstə haqqında 3 gün müddətində Səhiyyə Nazirliyinin baş narkoloquna və məlumat bankına xəbər verilməlidir.
4.6. Əvəzedici müalicə proqramlarına Səhiyyə Nazirliyinin baş narkoloqu koordinatorluq edir.



### 5. Fərdi qaydada müalicə planı

5.1. Hər narkomana fərdi qaydada müalicə planı tərtib olunur. Həmin plana aşağıdakılar daxildir:
narkotik vasitələri damardaxili qəbul edən şəxsin ildə bir dəfədən az olmayaraq vərəmə, QİÇS-ə,
hepatitə, sifilisə və s. görə tibbi müayinədən keçirilməsi;
fəsadlı xəstəliklər olduqda onların müalicəsinin təmin olunması;
psixoloji və sosioloji reabilitasiyanın həyata keçirilməsi (psixoloq, sosial müdafiə orqanları işçisinin iştirakı ilə).
5.2. Müalicə planının həyata keçirilməsinə üç ayda bir dəfədən az olmayaraq həkim-məsləhət komissiyası nəzarət edir və bu haqda tibbi sənədlərdə müvafiq qeydlər aparır.
5.3. Təxirəsalınmaz və ya ağır somatik vəziyyətlər müşahidə olunan hallarda həkim-narkoloq tərəfindən təyin olunan əvəzedici müalicə həkim-məsləhət komissiyası tərəfindən iki həftə ərzində təsdiqlənməli və ya ləğv edilməlidir. Təyinat həkim-məsləhət komissiyası tərəfindən təsdiqlənməyibsə, bu halda xəstəyə detoksikasiya müalicə kursu təyin edilir.
5.4. Narkotik vasitələrdən sui-istifadə edən şəxslərə əvəzedici müalicə aparılan zaman təyin edilmiş preparat ev şəraitində qəbul edilmək üçün həkim-məsləhət komissiyasının qərarı əsasında, qohumlarının ərizəsi, iştirakı və lazımi tibbi sənədin olması şərti ilə, xəstənin tibbi kartasında qeyd olunmaqla, xəstənin qohumlarına verilə bilər. Bu, xəstə tərəfindən narkoloji tibb müəssisəsində təyin olunmuş əvəzedici müalicənin tələblərinə üç aydan az olmayan müddətə tam şəkildə riayət edildiyi təqdirdə həyata keçirilə bilər.
5.5. Əvəzedici müalicənin dayandırılması yalnız həkim-məsləhət komissiyasının qərarı əsasında həyata keçirilə bilər.
5.6. Əvəzedici müalicəyə nəzarət və preparatların alınması, saxlanması, verilməsi, istifadə edilməsi mövcud normativ hüquqi aktlar əsasında həyata keçirilir.

## 6. Metadonla detoksikasiya müalicə kursunun keçirilməsi

6.1. Təxirəsalınmaz hallar istisna olunmaqla insan psixikasına təsir göstərən maddələrin sui-istifadəsi ilə əlaqədar detoksifikasiya tədbirləri narkoloji tibb müəssisəsində həyata keçirilir.

Narkomanlıq xəstəliyinə düçar olan şəxslər barəsində detoksifikasiyanın aparıldığı hər bir hal barədə məlumat narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların dövriyyəsinə dair ümummilli məlumat bankına verilməlidir.

6.2. Detoksikasiya müalicə kursu təyin edilməzdən qabaq xəstənin narkoman olması (opium qrupuna daxil olan narkotik vasitələrdən asılılıq halı) və müalicə olunmaq istəyi təsdiq olunmalıdır. Müalicə kursu qısa müddətli — 1 aya, orta müddətli — 3 aya və uzun müddətli — 6 aya qədər ola bilər.

6.3. Detoksikasiya müalicə kursu narkoloji tibb müəssisələrində həkim-narkoloq tərəfindən, həkim-məsləhət komissiyasının qərarı əsasında, rentgenoloji və laborator müayinələrin nəticələri nəzərə alınmaqla aparılır.

6.4. Detoksikasiya müalicəsi müqavilə əsasında aparılır.

6.5. Preparat tibb müəssisəsində təxirəsalınmaz hallarda evdə tibb işçisinin iştirakı ilə verilir və xəstə tərəfindən qəbul olunur.

6.6. Detoksikasiya müalicə kursu aparılarkən həkim tərəfindən təyin edilməmiş narkotik vasitələri xəstənin qəbul edib-etməməssinə daimi laborator nəzarəti həyata keçirilir.

6.7. Digər narkotik vasitələrin və psixotrop maddələrin qəbulu faktı təsdiq edildiyi hallarda xəstə ya stasionara göndərilir, ya da müalicə həkim-məsləhət komissiyasının qərarı əsasında dayandırılır. Bu halda xəstə metodonla əvəzedici müalicəyə keçirilə bilər.

6.8. Detoksikasiya müalicə kursu aparılarkən fərdi qaydada xəstənin psixoloji və somatik durumuna uyğun olaraq həkim tərəfindən əlavə təyinatlar verilə bilər.



## 7. Həkimin təyinatı olmadan narkotik vasitələrdən, psixotrop maddələrdən və onların analoqlarından istifadə edən şəxslərin müalicəsi

7.1. Narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən və barəsində narkomanlıq diaqnozu təyin edilmiş şəxs narkotik vasitələrdən və psixotrop maddələrdən asılılığını aradan qaldırmaq üçün könüllü həkim-narkoloqa müraciət etdikdə, o, həkim-narkoloq tərəfindən müayinə edilir.

Müayinə nəticəsində şəxsin ambulator və ya stasionar şəraitdə müalicəyə ehtiyacı olduğu müəyyən edilərsə, o, mülkiyyət formasından asılı olmayaraq belə növ fəaliyyətə xüsusi razılıq almış narkoloji tibb müəssisəsinə müvafiq göndərişlə təmin edilir.

7.2. Könüllü müalicə edilmək üçün narkoloji tibb müəssisəsinə müraciət etmiş şəxsin xahişi ilə, əvəzedici müalicə istisna olunmaqla, müalicənin anonimliyi təmin olunur. Belə müalicə haqqında məlumatlar yalnız ümummilli məlumat bankına daxil edilməsi üçün və ya həmin şəxs inzibati, yaxud cinayət məsuliyyətinə cəlb edildikdə hüquq mühafizə orqanına verilə bilər.

7.3. Könüllü müalicə olunan şəxsə əmək qabiliyyətsizliyi vərəqəsi verilir, müalicə başa çatdıqda isə onun xahişi ilə müalicənin məqsədini göstərən arayış verilir.

7.4. Cinayət törətmiş narkomanlar məhkəmə qərarı əsasında həmin şəxslər barəsində cinayət törətdiklərinə görə cəza tədbiri tətbiq edilməklə yanaşı, onlara cəza çəkdikləri müddətdə məcburi müalicə də tətbiq edilir.

7.5. Azadlıqdan məhrumetmə ilə cəzalandırılan narkomanlar azadlıqdan məhrumetmə yerlərindən azad olunduqdan sonra onlar məhkəmənin qərarı əsasında müalicəni davam etdirir, lazım gəldikdə altı aydan iki ilədək müddətdə narkoloji tibb müəssisəsində (İxtisaslaşdırılmış Tibb Müəssisəsi) müalicə alır, sonra isə beş il ərzində müşahidə olunurlar.

7.6. Barəsində azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəza tədbirləri görülmüş narkomanlar məhkəmə tərəfindən həkim-məsləhət komissiyasının rəyi əsasında məcburi müalicəyə cəlb edildikdə, həmin şəxslər məhkəmə zalından yerli polis orqanlarının

köməyi ilə məhkəmə nəzarətçiləri vasitəsi ilə birbaşa İTM-ə aparılır və sənədlərlə (məhkəmənin məcburi müalicə haqqında qərarı, ədliyyə polisinin göndərişi, şəxsiyyətini təsdiq edən sənəd) birlikdə akt əsasında təhvil verilirlər.

7.7. İTM Səhiyyə Nazirliyinin narkoloji xidmətinə daxildir və onun işlərinə ümumi rəhbərlik Səhiyyə Nazirliyi tərəfindən həyata keçirilir.

7.8. Məcburi müalicə təyin edilmiş narkoman İTM-ə qəbul olunduqda, ona Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilmiş stasionar xəstənin tibbi kartası açılır və müəyyən edilmiş qaydada doldurulur.

7.9. İTM-də məcburi müalicənin aparılması Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 5 dekabr tarixli, 135 saylı «Xroniki alkoqoliklərin və narkomanların ixtisaslaşdırılmış tibb müəssisələrində saxlanması rejimi, normativləri və müalicəsi haqqında Əsasnamənin təsdiq edilməsi barədə» qərarı ilə tənzimlənir.

7.10. Azərbaycan Respublikasının bütün tibb müəssisələri narkoloji xəstəliklərin və insan psixikasına təsir göstərən maddələrin sui-istifadəsi ilə bağlı nəticələr barədə məlumatları Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə təqdim etməyə borcludurlar.

**8. Həkimin təyinatı olmadan narkotik vasitələrdən, psixotrop maddələrdən istifadə edən şəxslərin narkoloji müəssisələrdə qeydiyyata götürülməsi**

8.1. Narkoloji xəstələrin qeydiyyatı dövlət narkoloji tibb müəssisələri tərəfindən aparılır.

8.2. Hər bir narkomanın narkoloji xəstə kimi qeydiyyata alınması barədə məlumat narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların dövriyyəsinə dair ümummilli məlumat bankına verilməlidir.

8.3. Qeyri-dövlət narkoloji tibb müəssisələri yalnız dövlət narkoloji tibb müəssisələrində qeydiyyata alınmış narkoloji xəstələrə narkoloji yardım göstərə bilərlər.

8.4. Tibbi yoxlama nəticəsində narkomanlıq diaqnozu, narkotik vasitələrdən, psixotrop maddələrdən və onların analoqlarından



həkimin təyinatı olmadan istifadə etmə faktı müəyyən edildikdə, tibbi yoxlamanın nəticələri barədə ambulator xəstənin tibbi vərəqəsində müvafiq qeydlər aparılır və həmin şəxslər haqqında «Dispanser müşahidənin nəzarət vərəqəsi» (030-1/U №-li qeydiyyat forması) doldurulur. Qeydiyyata götürülmüş şəxs haqqında 3 gün müddətində polis orqanına məlumat verilir.

8.5. Həkimin təyinatı olmadan narkotik vasitələrdən və ya digər bihuşedici maddələrdən istifadə etmələri ilə əlaqədar şəxslərə profilaktik kömək göstərilməsi və ya narkomanlıqdan müalicə olunmaları haqqında narkoloji tibb müəssisəsinə könüllü müraciət edənlər yalnız bu müəssisədə qeydiyyata götürülür. Belə müalicə haqqında məlumat ümummilli məlumat bankına daxil edilir və şəxs inzibati və ya cinayət məsuliyyətinə cəlb edildikdə həmin məlumat hüquq mühafizə orqanlarına verilə bilər.

8.6. Narkotik vasitələrdən, psixotrop maddələrdən və onların analoqlarından həkimin təyinatı olmadan istifadə edilməsi faktının və ya narkomanlıq diaqnozunun müəyyən edilib, həkim-narkoloq tərəfindən qeydiyyata götürülməsi yoxlamanın nəticələri və əldə edilmiş obyektiv materialların məcmusundan asılıdır.

Digər kifayət qədər əsaslandırılmamış məlumatların mövcudluğu, müayinə vaxtı isə orqanizmdə narkotik vasitələrin əlamətlərinin olmaması şəxsin qeydiyyata götürülməsi üçün əsas ola bilməz.

8.7. Narkomanlıq diaqnozu ilə razılaşmayan şəxs yuxarı səhiyyə orqanına və məhkəməyə şikayət edə bilər.

8.8. Narkomanlıq xəstəliyinə tutulmuş və ya narkotik vasitələrdən, psixotrop maddələrdən həkimin təyinatı olmadan istifadə edən şəxslər eyni zamanda ruhi xəstəliyə düçar olarsa, onlar həm psixiatr-həkim, həm də narkoloq-həkim tərəfindən qeydiyyata alınırlar. Ambulator xəstənin tibbi vərəqəsinin (025/U forma) üz hissəsində ruhi (psixi) xəstəlik haqqında qeydiyyat edilir.

Narkotik vasitələrdən, psixotrop maddələrdən və onların analoqlarından həkimin təyinatı olmadan istifadə etmə ruhi xəstəliklə müşayiət olunursa, belə xəstələrin müşahidəsi və müalicəsi psixonevroloji müəssisələrdə aparılır.

8.9. Bu Qaydaların 5.1-ci bəndinə əsasən qeydiyyata götürülmüş

şəxslər haqqında 4 bölmədən ibarət dinamik müşahidə kartotekası aparılır.

Birinci bölmədə (dispanser qeydiyyatı) — narkomanlıq diaqnozu müəyyən edilmiş şəxslərin (narkotik vasitələrin qəbulu);

İkinci bölmədə (dispanser qeydiyyatı) — psixotrop maddələrdən sui-istifadə diaqnozu müəyyən edilmiş şəxslərin;

Üçüncü bölmədə (profilaktik qeydiyyat) — həkimin təyinatı olmadan narkotik vasitələrdən istifadə edən, lakin narkomanlıq xəstəliyinə tutulmamış şəxslərin;

Dördüncü bölmədə — həkimin təyinatı olmadan psixotrop maddələrdən, bihuşedici vasitələrdən istifadə edən, lakin xəstəliyə tutulmamış şəxslərin vərəqələri cəmləşdirilir.

Narkotik vasitələrdən, psixotrop maddələrdən və onların analoqlarından həkimin təyinatı olmadan istifadə etməklə əlaqədar profilaktik yardım göstərilməsi, narkomaniyadan müalicə olunması haqqında könüllü müraciət edən şəxslərin nəzarət vərəqələri, vərəqələr toplusunda ayrıca yarımbölmə şəklində ayrılır.

Qeyd. Yetkinlik yaşına çatmamışların nəzarət vərəqələri müvafiq bölmələrdə müstəqil yarımbölmələrə ayrılır.

8.10. Qeydiyyat kateqoriyası dəyişdirildikdə və nəzarət vərəqələri digər bölmələrə keçirildikdə, qeydiyyatdan çıxarıldıqda tibb müəssisəsi (narkoloq-həkim) polis orqanını məlumatlandırır.

8.11. Tibbi müəssisənin qeydiyyatından çıxarılmış şəxslərin nəzarət vərəqələrində qeydiyyatdan çıxarılma tarixi və səbəbi göstərilir, vərəqələr dinamik müşahidə vərəqələri toplusunun müvafiq bölmələrində saxlanılmaqla, onlardan statistik hesabatların tərtibatında istifadə edilir. Təqvim ili tamamlandıqdan sonra vərəqələr tibb müəssisələrinin arxivinə verilir və tibbi sənədlər üçün müəyyən edilmiş ümumi qaydada saxlanılır.



**9. Narkoloji xəstələr barəsində tibbi tədbirlərin tətbiq edilməsinin məqsədi, narkoloji-tibbi yoxlamanın keçirilməsi**

9.1. Narkomaniya ilə mübarizənin gücləndirilməsi, əhalinin sağlamlığının mühafizəsi, hüquq qaydalarının möhkəmləndirilməsi məqsədi ilə səhiyyə, polis və ədliyyə orqanları, narkotik vasitələrdən, psixotrop maddələrdən və onların analoqlarından qeyri-tibbi məqsədlərlə istifadə edən şəxslərin qanunvericiliyə uyğun şəkildə aşkar edilməsini, narkoloji xəstələr barəsində tibbi tədbirlərin həyata keçirilməsini təmin edirlər.

9.2. Həkimin təyinatı olmadan narkotik vasitələrdən istifadə edən şəxslər müəyyən edildikdə, tədqiqat, istintaq, məhkəmə və səhiyyə orqanları tərəfindən müvafiq narkoloji müəssisələrə tibbi yoxlamaya göndərilirlər.

9.3. Narkoloji müəssisənin həkim-məsləhət komissiyasının müayinə olunan şəxsə aid narkomanlıq diaqnozunu təsdiq edən rəyi, yaxud psixotrop maddələrin qəbul edilməsi faktının müəyyən edilməsi belə şəxslərin qeydiyyata alınması üçün əsasdır.

9.4. Narkoloji-tibbi yoxlama yalnız şəxsin narkomanlıq xəstəliyinə düçar olmasının (narkoman olmasının) müəyyən edilməsi və ya təsdiqlənməsi məqsədi ilə mülkiyyət formasından asılı olmayaraq, narkoloji tibb müəssisələrində həyata keçirilir.

9.5. Narkomanlıq diaqnozu yalnız həkim-məsləhət komissiyası tərəfindən müəyyən edilir.

9.6. Narkoloji-tibbi yoxlamanın aparılması narkoloji tibb müəssisələrinin nəzdində təşkil olunmuş həkim-məsləhət komissiyasına həvalə olunur. Tibb müəssisəsinin rəhbəri tərəfindən müəyyənləşdirilən komissiyanın tərkibinə biri həkim-narkoloq olmaqla 3 nəfər həkim daxil olur. Komissiyanın fəaliyyətinə digər mütəxəssislər də cəlb oluna bilər.

9.7. Həkim-məsləhət komissiyasının tərkibinə daxil edilən həkim-narkoloq I ixtisas dərəcəsinə və ya azı 5 illik narkoman xəstələri müalicə etmə təcrübəsinə malik olmalıdır.

9.8. Narkoloji-tibbi yoxlama aparılarkən, yoxlama komissiyasının üzvləri yoxlanılan şəxs haqda məlumatları və yoxlamanın nəticəsini xüsusi jurnalda qeyd edirlər.

9.9. Şəxsin tibbi yoxlamadan keçməsi haqqında həkim-məsləhət komissiyasının tərtib etdiyi rəydə onun narkomanlıq xəstəliyinə düçar olub-olmaması, düçar olduğu halda xəstəliyin mərhələsi və bununla əlaqədar müalicəyə ehtiyac dərəcəsi əks etdirilir.

9.10. Yoxlanılan şəxs barəsində narkomanlıq diaqnozu müəyyən edildikdə, həkim-məsləhət komissiyası müvafiq qaydada ümummilli məlumat bankına məlumat verir.

9.11. Tibbi yoxlama məcburi və ya könüllü müraciət hallarında keçirilir.

Könüllü müraciət zamanı tibbi yoxlama nəticəsində «narkomanlıq» diaqnozu təsdiqlənibsə, şəxsin istəyi ilə, anonimlik təmin olunmaqla, müalicə aparıla bilər.

9.12. Məcburi tibbi yoxlama təhqiqat, ibtidai istintaq, prokurorluq, məhkəmə orqanlarının qərarı əsasında keçirilir və məhkəmənin qərarı əsasında müvafiq tibbi tədbirlər tətbiq edilir.

9.13. Konkret şəxsin qeyri-tibbi məqsədlərlə narkotik vasitələrdən, psixotrop maddələrdən və onların analoqlarından istifadə etməsi və yaxud narkotik sərxoşluq vəziyyətində olması barədə müxtəlif müalicə müəssisələrinin (toksikoloji, bərpa, travmatologiya məntəqələri və digər bölmələr), hüquq mühafizə orqanlarında olan yoxlama materialları əsasında, yaxud narkotik vasitələrdən istifadə etmə ilə əlaqədar tibbi yardım göstərilməsi barədə vətəndaşın müraciəti tibbi yoxlamaya göndərilməsi və ya gətirilməsi üçün əsas ola bilər.

9.14. Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən, inzibati, cinayət və mülki işin aparılması prosesində narkologiya sahəsində xüsusi biliyin olması tələb olunduğu hallarda inzibati, cinayət və mülki məsuliyyətə cəlb olunan şəxsə aid narkoloji-tibbi yoxlama təyin edilə bilər.

Cinayət işi aparılarkən cinayət məsuliyyətinə cəlb olunan şəxsin narkotik maddələrdən istifadə etməsi haqda məlumat olduğu və həmin şəxsin narkomanlıqdan əzab çəkməsindən şübhələnməyə əsas olduğu hallarda tibbi yoxlama təyin oluna bilər. Bu zaman komissiya üzvləri aşağıdakı suallara cavab verməlidirlər: müayinə olunan narkomandırmı? Narkomandırsa, xəstəliyin mərhələsi? Onun narkomanlıqdan müalicəyə ehtiyacı vardırmı? Belə müalicəyə tibbi əks-göstərişlər yoxdur ki?

Mülki proseslərdə narkotik maddələrdən sui-istifadə nəticəsində vətəndaşın fəaliyyət qabiliyyətinin məhdudlaşdırılması məsələsi haqda iş aparılarkən, həmin vətəndaşın narkoman olub-olmamasını müəyyən etmək üçün narkoloji-tibbi yoxlama təyin oluna bilər. Belə hallarda komissiya üzvləri tərəfindən «müayinə olunan şəxs narkomandırmı?» sualına cavab verilməlidir.

İnzibati, cinayət və mülki işin aparılması gedişində narkologiya sahəsində biliyin olması tələb olunduğu digər hallarda da narkoloji-tibbi yoxlama təyin oluna bilər.

9.15. İnzibati, cinayət və mülki iş materialları, tibbi sənədlər, yoxlama rəyləri, narkoloji-tibbi yoxlama komissiyasının işi haqqında hesabat, məhkəmə-istintaq orqanları ilə yazışma xüsusi seyflərdə saxlanılır.

Tibbi yoxlama qurtardıqdan sonra komissiya üzvlərinin rəyi və təqdim olunmuş bütün materiallar yoxlama təyin etmiş orqanlara qaytarılır.

Yoxlama aparılması ilə əlaqədar tibbi sənədlər (xəstəlik tarixi, tibbi yoxlama komissiyasının rəyinin surəti və s.) yalnız istintaq orqanına, prokurora, məhkəməyə və yuxarı səhiyyə orqanına verilə bilər. Tibbi sənədlərin verilməsi üçün göstərilən orqan və ya idarələrin müvafiq yazılı sorğusu əsasdır.

Tibbi sənədlər tibbi yoxlama komissiyası, narkoloji müəssisənin rəhbəri və ya onu əvəz edən şəxs tərəfindən verilir. Rəyi komissiyanın bütün üzvləri imzalayana qədər yoxlama müayinəsinin nəticəsi haqqında məlumat yoxlama təyin etmiş orqan da daxil olmaqla verilə bilməz.

9.16. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi və Mülki-Prossesual Məcəlləsi ilə məhkəmə ekspertləri üçün müəyyən olunmuş hüquq və vəzifələr narkoloji-tibbi yoxlama aparan həkimlərə də şamil edilir.

Tibbi yoxlama aparılarkən həkim-məsləhət komissiyasının üzvləri hərəkətlərində və çıxardıqları nəticələrdə müstəqildirlər və tibb elminin müvafiq tövsiyələrini, məhkəmə yoxlaması aparılması haqqında qanunları, eləcə də bu Qaydanı əldə rəhbər tuturlar.

9.17. Şəxsin ambulator tibbi yoxlanılması həkim-məsləhət

komissiyasının təşkil olunduğu narkoloji-tibb müəssisəsində aparılır.

9.18. Lazım olan bütün materiallarla birlikdə yoxlama aparılması haqda qərar komissiyaya daxil olduğu andan 15 gün müddətində tibbi yoxlamanın rəyi və işin materialları istintaq aparan şəxsə — müstəntiqə, prokurora və ya məhkəməyə göndərilməlidir. Əlavo materialların təqdim olunması haqqında komissiya üzvləri yazılı müraciət etdiyi hallarda yoxlama müvəqqəti dayandırılır və həmin materiallar təqdim edildikdən sonra bərpa olunur.

Tibbi yoxlamanın aparılması, müayinə olunanın yoxlamaya gətirilməsi vaxtı komissiya üzvləri və yoxlama təyin etmiş orqan arasında razılaşdırılır. Yoxlama işi çox olduqda komissiyanın sədri iş qrafiki tərtib edir.

Yoxlamanın təyin olunması haqqında qərar və onun aparılması üçün lazım olan digər materiallar komissiyaya daxil olduqdan sonra 7 gün ərzində müayinə olunan yoxlamaya gətirilməlidir.

Əgər göstərilən 7 günlük müddət yoxlamanı təyin etmiş orqanın günahı üzündən pozulmuş olarsa, onda yoxlamanın aparılması üçün müəyyən olunmuş 15 günlük müddət dayandırılır və müayinə olunan narkoloji-tibbi yoxlamaya gətirildikdən sonra bərpa olunur. Müayinə olunanın narkoloji-tibbi yoxlamaya gətirilməsi qüvvədə olan qanunvericiliyə müvafiq həyata keçirilir.

9.19. Tibbi yoxlama ambulator şəraitdə aparılır. Komissiya üzvləri qarşısında qoyulmuş sualları ambulator şəraitdə həll etmək mümkün olmadıqda (ambulator müayinənin bütün metod və imkanları qurtardıqdan sonra) və müayinə olunanı stasionar şəraitdə müşahidə etmək zərurəti yarandıqda stasionar tibbi yoxlama təyin oluna bilər. Həbsdə olan şəxslərin stasionar tibbi yoxlanılması həbsdə olanlar üçün məhkəmə-psixiatrik ekspertiza şöbələrində aparılır və müvafiq stasionar məhkəmə-psixiatrik ekspert komissiyasının üzvləri tərəfindən həyata keçirilir. Stasionar tibbi yoxlama ambulator tibbi yoxlama komissiyasının əsaslandırılmış rəyinə əsasən iş aparan orqan tərəfindən təyin olunur. Müayinə edilənin stasionarda qalma müddəti 20 gündən artıq olmamalıdır.

9.20. Narkomanlıq diaqnozunun qoyulması müayinə olunanın anamnestik məlumatlarının, onun psixi və somatik vəziyyətinin



öyrənilməsi, həmçinin yoxlama obyektinə aid işin materiallarının araşdırılması əsasında həyata keçirilir.

9.21. Tibbi yoxlama təyin etmiş orqan yoxlama obyektinə aid lazımi tibbi sənədlər əlavə olunmuş inzibati, cinayət və ya mülki iş materiallarını komissiya üzvlərinə təqdim etməyə borcludur.

9.22. Komissiya üzvləri yoxlama tədqiqatına aid materialları sərbəst toplaya bilməzlər. Qoyulmuş suallara cavab vermək üçün, müayinə olunanın qohumlarının və ya onu yaxından tanıyan digər şəxslərin ifadə verməsi lazım olan hallarda, tibbi yoxlama komissiyası göstərilən şəxslərin komissiya üzvlərinin iştirakı ilə əlavə məlumatların alınması haqda yoxlama təyin etmiş orqana yazılı müraciət edə bilər. Əgər komissiya üzvlərinə təqdim olunmuş materiallar rəy verilməsi üçün kifayət etmirsə, onlar əlavə materialların və tibbi sənədlərin təqdim olunması üçün yoxlamanı təyin etmiş orqana müraciət edirlər. Bu sənədlər təqdim olunmazsa, komissiya üzvləri rəy verilməsinin mümkün olmaması haqqında yoxlamanı təyin etmiş orqana yazılı məlumat verirlər.

9.23. Tibbi yoxlama aparılarkən müayinə edilən şəxsdə psixi pozğunluq aşkar olunarsa, komissiyanın üzvləri qoyulmuş suallara cavab verməklə bərabər öz rəylərinə məhkəmə psixiatrik ekspertizanın təyin olunması zərurətini də göstərirlər.

9.24. Yoxlamanın nəticələri tibbi yoxlamanın rəyi şəklində tərtib olunur.

Rəydə aşağıdakılar mütləq göstərilməlidir: yoxlama nə vaxt, harada, kim tərəfindən (soyadı, adı, atasının adı, təhsili, ixtisası, elmi dərəcəsi və rütbəsi, vəzifəsi), hansı qərar əsasında aparılmışdır, yoxlamanın aparılmasında kim iştirak etmişdir, komissiya üzvləri hansı materiallardan istifadə etmişlər, hansı müayinələri aparmışlar, komissiya üzvləri qarşısında hansı suallar qoyulmuşdur və onların əsaslandırılmış cavabları, yoxlama aparılarkən komissiya üzvləri üçün əhəmiyyət kəsb edən və xüsusi narkoloji bilik dairəsindən kənara çıxmayan hal müəyyən edilərsə və bu haqda komissiya üzvləri qarşısında sual qoyulmamışsa da, komissiya üzvləri öz rəylərində bu halları qeyd edə bilərlər.

Rəy komissiyasının bütün üzvləri tərəfindən imzalanır və tibbi yoxlama komissiyasının təşkil olunduğu müəssisənin möhürü ilə

təsdiq olunur.

Komissiya üzvləri arasında fikir ayrılığı olduqda komissiyanın digər üzvlərinin rəyi ilə razılaşmayan həkim ayrıca rəy tərtib edir və yoxlama təyin etmiş orqana göndərir.

Komissiyanın hər bir üzvü aparılmış müayinələrə və imzaladığı rəyə görə şəxsi məsuliyyət daşıyır.

10. Həkimin təyinatı olmadan narkotik vasitələrdən, psixotrop maddələrdən istifadə edən şəxslərin tibb müəssisələrində qeydiyyatdan çıxarılması

10.1. Sağalma (dözümlü remissiya) və ya narkotik vasitələrdən, psixotrop maddələrdən istifadə etməkdən özünü saxlama.

Qeyd. Narkomanlıq diaqnozu ilə qeydiyyatda olan şəxslər özünü narkotik vasitələrdən, psixotrop maddələrdən istifadə etməkdən saxlama müddətindən 5 il, belə vasitələrdən həkimin təyinatı olmadan istifadə edənlər isə bu əməldən çəkindiklərindən 1 il keçdikdən sonra qeydiyyatdan çıxarılırlar.

10.2. Milli Orduya çağırış.

Qeyd. Narkotik vasitələrdən, psixotrop maddələrdən həkimin təyinatı olmadan istifadə etməyə görə qeydiyyata alınmış şəxs orduya çağırıldıqda, narkoloji tibb müəssisəsi çağırışçının tibb vərəqəsində bu barədə qeyd aparır.

10.3. Qeydiyyatda olan şəxsin ölməsi.

10.4. Cinayət törətməyə görə 1 ildən artıq azadlıqdan məhrumetmə cəzasına məhkum edilmə.

10.5. Yaşayış yerinin dəyişdirilməsi.

Qeyd. Narkoloji qeydiyyatdan çıxarıldıqda qeydiyyat vərəqəsində qəbul edilmiş qərarın əsası göstərilir.



# NARKOTİK VASİTƏLƏRİN VƏ PSİXOTROP MADDƏLƏRİN ŞƏXSİ İSTEHLAK ÜÇÜN NƏZƏRDƏ TUTULAN MİQDARI

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 12 oktyabr tarixli 191 nömrəli qərarı ilə təsdiq edilmişdir.*

## 1. NARKOTİK VASİTƏLƏR

| № | Beynəlxalq adı | Ticarət adı | 1 dəfəlik qəbulun miqdarı mq-la | Sutkalıq qəbulun miqdarı mq-la |
|---|---|---|---|---|
| 1. | Alfentanil | Alfentanil | 0,1 | 0,4 |
| 2. | Piritramid | Dipidolor | 15 | 30 |
| 3. | Metilmorfin | Kodein | 50 | 200 |
| 4. | Metilmorfin fosfat | Kodein fosfat | 100 | 300 |
| 5. | Morfin | Morfin | 20 | 50 |
| 6. | Metadon | Metadon | 10 | 20 |
| 7. | Metadon intermediat | Metadon intermediat | 10 | 20 |
| 8. | Morfin hidroxlorid | Morfin hidroxlorid | 20 | 50 |
| 9. | Morfin preparatları | Morfin preparatları | 20 | 50 |
| 10. | Papaveratum | Omnopon | 30 | 100 |
| 11. | Papaveratum preparatları | Omnopon preparatları | 30 | 100 |
| 12. | Tiryək | Tiryək | 50 | 500 |
| 13. | Tiryəkin preparatları | Tiryəkin preparatları | 50 | 500 |
| 14. | Trimeperidin | Promedol | 50 | 200 |
| 15. | Trimeperidin preparatları | Promedol preparatları | 50 | 200 |
| 16. | Sulfentanil | Sulfentanil | 0,1 | 0,4 |
| 17. | Tebain | Tebain | 30 | 100 |
| 18. | Tilidin | Tilidin | 100 | 200 |

| | | | | |
|---|---|---|---|---|
| 19. | Tilidin preparatları | Tilidin preparatları | 100 | 200 |
| 20. | Fentanil | Fentanil | 5 | 5 |
| 21. | Fentanil preparatları | Fentanil preparatları | 5 | 5 |
| 22. | Dimenoksadol | Estosin | 60 | 180 |
| 23. | Dimenoksadol hidroxlorid | Estosin | 60 | 180 |
| 24. | Dimenoksadol hidroxlorid preparatları | Estosin | 60 | 180 |
| 25. | Etilmorfin | Dionin | 30 | 100 |
| 26. | Etilmorfin hidroxlorid | Dionin | 30 | 100 |
| 27. | Etilmorfin hidroxlorid preparatları | Dionin | 30 | 100 |
| 28. | Dekstropropoksifen | Dekstropropoksifen | 300 | 600 |
| 29. | Propanidid | Sombrevin | 500 | 500 |
| 30. | Kokain preparatları | Kokain preparatları | 30 | 30 |

## 2. PSİXOTROP MADDƏLƏR

| № | Beynəlxalq adı | Ticarət adı | 1 dəfəlik qəbulun miqdarı mq-la | Sutkalıq qəbulun miqdarı mq-la |
|---|---|---|---|---|
| 1. | Alprozolam | Ksanaks | 1 | 3 |
| 2. | Bromazepam | Bromedem, Leksotan, Lendormin | 12 | 36 |
| 3. | Klobazam | Frizium | 30 | 80 |
| 4. | Lorazepam | Tavor, Ativan, Merlit | 5 | 15 |
| 5. | Nitrozepam | Radedorm, Neozepam, Eunoktin, Moqadon | 10 | 30 |
| 6. | Flunitrazepam | Rogipnol | 2 | 2 |
| 7. | Klonazepam | Antilepsin, Rivotril | 7 | 20 |



| | | | | |
|---|---|---|---|---|
| 8. | Meprobomat | Meprobomat, Meprotan | 80 | 300 |
| 9. | Diazepam | Sibazon, Relanium, Apaurin, Velizon | 10 | 45 |
| 10. | Oksazepam | Nozepam, Tazepam | 30 | 90 |
| 11. | Xlordiazepoksid | Elenium, Xlozepid, Librium, Napoton | 15 | 50 |
| 12. | Fenobarbital | Luminal | 200 | 500 |
| 13. | Qlutetimid | Noksiron | 250 | 500 |
| 14. | Pentazosin | Pentazosin | 50 | 350 |
| 15. | Pentobarbital | Etaminal-natriya, Nembutal | 300 | 600 |
| 16 | Barbital | Veranol | 500 | 1000 |
| 17. | Barbital-natriya | Medinal | 500 | 1000 |
| 18. | Medazepam | Rudotel, Medazepam | 33,5 | 70 |
| 19. | Buprenorfin | Temqezik | 0,4 | 1,2 |
| 20. | Efedrin hidroxlorid | Efedrin hidroxlorid | 50 | 150 |
| 21. | Defedrin | Defedrin | 60 | 180 |
| 22. | Efedrin dimedrolla | Efedrin dimedrolla | 60 | 180 |
| 23. | Klofelin | Klofelin | 3 | 15 |
| 24. | Tramadol | Tramal | 100 | 400 |
| 25. | Triperiden | Norakin | 2 | 6 |
| 26. | Triheksefenidil | Sikladol, Romparkin, Parkinsan, Parkopan | 2 | 6 |
| 27. | Bromizoval | Bromural | 1000 | 2000 |
| 28. | Fenazepam | Fenazepam | 2,5 | 10 |
| 29. | Trimetozin | Trioksazin | 300 | 1200 |
| 30. | Tofizopam | Qrandaksin | 100 | 300 |

## NARKOTİK VASİTƏLƏRİN VƏ PSİXOTROP MADDƏLƏRİN İSTEHSALINDA İSTİFADƏ EDİLƏN VƏ DÖVRİYYƏSİNƏ NƏZARƏT EDİLƏN AVADANLIĞIN SİYAHISI

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 21 aprel tarixli 83 nömrəli qərarı ilə təsdiq edilmişdir.*

Narkotik vasitələrin və psixotrop maddələrin istehsalında istifadə edilən və dövriyyəsinə nəzarət edilən avadanlığın siyahısına öz texniki və istifadə meyarlarına görə aşağıdakılar daxil edilir:

1. Məişətdə istifadə olunmayan xüsusi təyinatlı, texniki təsvirinə və texniki xarakteristikasına görə narkotik vasitələrin və psixotrop maddələrin sintezi və ya istehsalı proseslərində tətbiqi üçün istifadə edilən avadanlıqlar.
2. Maddələrin qarışdırılması üçün istifadə edilən mətbəx komplektlərinə daxil olmayan avtomat və ya əl qarışdırıcıları.
3. Yarımfabrikatları, boş ampulları, şpris-tübikləri və müxtəlif həcmli kapsulları hazırlayan avadanlıqlar.
4. Ampulların, şpris-tübiklərin, kapsulların markalaşdırılması üçün maşınlar və ləvazimatlar.
5. Ekstraksiya və süzülmə zamanı məhlulların soyudulması üçün istifadə olunan (məişət soyuducularından başqa) qurğular, habelə ekstraksiya və süzülmə üçün istifadə edilən digər qurğular.
6. Vakuum altında məhlulların təmizlənməsi üçün istifadə edilən qurğular.



## FİZİKİ ŞƏXSLƏR TƏRƏFİNDƏN İSTEHSAL VƏ KOMMERSİYA MƏQSƏDLƏRİ ÜÇÜN NƏZƏRDƏ TUTULMAYAN MALLARIN AZƏRBAYCAN RESPUBLİKASININ GÖMRÜK SƏRHƏDİNDƏN KEÇİRİLMƏSİ QAYDALARI

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 31 may tarixli105 nömrəli qərarı ilə təsdiq edilmişdir.*

*(7 noyabr 2002-ci il tarixli, 176 nömrəli; 2 iyun 2003-cü il tarixli, 73 nömrəli; 30 aprel 2004-cü il tarixli, 59 nömrəli; 18 may 2004-cü il tarixli, 67 nömrəli; 9 avqust 2004-cü il tarixli, 109 nömrəli; 23 noyabr 2004-cü il tarixli, 181 nömrəli qərarlara əsasən dəyişikliklər və əlavələrlə)*

**1. Ümumi müddəalar**

1.1. Rezident və qeyri-rezident fiziki şəxslər (bundan sonra — fiziki şəxslər) tərəfindən təyinatı nəzərə alınmaqla yalnız istehsal və kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi (beynəlxalq poçt vasitəsilə göndərişlər də daxil olmaqla) bu Qaydalarla tənzimlənir.

1.2. Fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən malların təyinatı — fiziki şəxsin səfərinin bütün halları nəzərə alınmaqla, malların gömrük sərhədindən fiziki şəxsin və onun ailə üzvlərinin şəxsi istifadə və istehlak məqsədləri üçün keçirildiyini yəqin etməklə, onların xarakterinə və miqdarına, eləcə də sərhəddən keçirilməsinin tezliyinə görə Azərbaycan Respublikasının gömrük orqanları tərəfindən müəyyən edilir.

**2. Fiziki şəxslər tərəfindən istehsal və kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi**

2.1. Fiziki şəxslər təyinatı bu Qaydaların 1.2 bəndinə uyğun olaraq müəyyən edilməklə, istehsal və kommersiya məqsədləri üçün nəzərdə tutulmayan hesab edilmiş malları (nəqliyyat vasitələri və

aksizli mallar istisna olmaqla) sadələşdirilmiş qaydada bəyan etməklə aşağıdakı hallarda qanunvericiliklə müəyyən edilmiş gömrük ödənişlərini ödəmədən Azərbaycan Respublikasının gömrük sərhədindən keçirə bilərlər:

2.1.1. fiziki şəxs Azərbaycan Respublikasının gömrük sərhədini keçməklə ümumi dəyəri 1000 ABŞ dollarına ekvivalent və ya çəkisi 50 kiloqramdan artıq olmayan malları gətirdikdə (apardıqda);

2.1.2. beynəlxalq poçt göndərişləri vasitəsi ilə ümumi dəyəri 200 ABŞ dollarına ekvivalent və ya çəkisi 20 kiloqramdan artıq olmayan malları aldıqda (göndərdikdə);

2.1.3. qeyri-rezident fiziki şəxslər (şəxsiyyəti təsdiq edən sənəddə iki təqvim ilindən yuxarı xarici ölkədə yaşadığı barədə müvafiq qeydlər olduqda) daimi yaşayış məqsədilə Azərbaycan Respublikasına köçüb gələrkən (və ya rezident fiziki şəxslər Azərbaycan Respublikasından köçüb gedərkən) 20.000 ABŞ dollarına ekvivalent dəyər həcmində ailə üçün zəruri olan məişət əşyalarını özü gömrük sərhədindən keçərək gömrük orqanlarına bəyan etməklə müşayiət olunan və ya müşayiət olunmayan baqajla gətirdikdə (apardıqda);

2.1.4. zəruri ehtiyacların ödənilməsi üçün şəxsi əşyaları gömrük qaydalarına əməl etməklə müvəqqəti olaraq gətirdikdə (apardıqda);

2.1.5. açılmış vərəsəlik hüququ əsasında əldə edilmiş əşyaları (gətirilməsi və aparılması qadağan edilmiş əşyalardan başqa) Azərbaycan Respublikasının gömrük sərhədindən keçirdikdə.

2.2. Fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən istehsal və kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mal vahidinin və ya dəstinin dəyəri (avtonəqliyyat vasitələri və aksizli mallar istisna olmaqla) bu Qaydaların 2.1.1 yarımbəndi ilə müəyyən edilmiş dəyər həddini ötdükdə, həmin malların gömrük rəsmiləşdirilməsi xarici-iqtisadi fəaliyyətin tarif və qeyri-tarif tənzimlənməsinə uyğun gömrük ödənişləri alınmaqla sadələşdirilmiş qaydada aparılır.

2.3. Azərbaycan Respublikasının gömrük sərhədindən müşayiət olunmayan baqajla (bu Qaydaların 2.2 və 2.14 yarımbəndlərində göstərilən hallar istisna olmaqla), habelə bu Qaydaların 2.1 yarımbəndi ilə müəyyən edilmiş miqdar və dəyər hədlərindən artıq



gətirilən (aparılan) malların gömrük rəsmiləşdirilməsi xarici iqtisadi fəaliyyətin tarif və qeyri-tarif tənzimlənməsinə uyğun olaraq gömrük ödənişləri alınmaqla aparılır.

2.4. Azərbaycan Respublikasının gömrük sərhədindən müşayiət olunmayan baqajla fiziki şəxslər tərəfindən sadələşdirilmiş və güzəştli qaydada keçirilən mallardan gömrük rəsmiləşdirilməsinə görə gömrük yığımları mövcud qanunvericiliyə uyğun olaraq tutulur.

2.5. Bu Qaydaların 2.1. bəndi ilə müəyyən edilmiş hallarda Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən mallardan gömrük rəsmiləşdirilməsinə görə gömrük yığımları alınmır.

2.6. Fiziki şəxslər tərəfindən xidməti və mülki silah, onların döyüş sursatları Azərbaycan Respublikasının gömrük sərhədindən Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi icazəsi təqdim edildikdə keçirilə bilər.

2.7. Fiziki şəxslər tərəfindən heyvanlar, baytarlıq təbabətində tətbiq olunan dərman, bioloji preparatlar və baytarlıq ləvazimatları, bitkilər, heyvan və bitki mənşəli xammal Azərbaycan Respublikasının gömrük sərhədindən baytarlıq orqanları və bitkilərin karantini üzrə müvafiq dövlət orqanlarının icazəsi olduqda keçirilə bilər.

2.8. Fiziki şəxslər tərəfindən yalnız şəxsi istifadə üçün zəruri olan miqdarda dərman vasitələri Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilə bilər.

2.9. Fiziki şəxslər tərəfindən 250 qrama qədər balıq kürüsü gömrük ərazisindən keçirilə bilər.

2.10. Fiziki şəxslər Azərbaycan Respublikasının gömrük sərhədindən fərdi istehlak üçün 3 litr alkoqollu içki, 3 blok siqaret və avtomobilin bakında texniki pasportu ilə nəzərdə tutulmuş miqdarda yanacaq keçirə bilərlər.

2.11. Bədii, tarixi, elmi və digər mədəni əşyalar Azərbaycan Respublikasının gömrük ərazisinə gömrük ödənişləri ödənilmədən məhdudiyyətsiz miqdarda gətirilə bilər.

2.12. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş və Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi

tərəfindən mühafizə siyahısına daxil edilmiş mədəniyyət sərvətləri xüsusi rejim əsasında verilmiş mühafizə dərəcəsinə müvafiq surətdə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin ixracın mümkünlüyü barədə verdiyi şəhadətnamə Azərbaycan Respublikasının gömrük orqanlarına təqdim edildiyi və komissiyon dəyərinin 100 faizi məbləğində gömrük rüsumu ödənildikdən sonra, mühafizə dərəcəsi verilməmiş mədəniyyət sərvətləri isə sərbəst surətdə Azərbaycan Respublikasının gömrük ərazisindən aparıla bilər.

2.13. Fiziki şəxslər xarici valyuta sərvətlərini və milli valyutanı (manatı) Azərbaycan Respublikasının gömrük buraxılış məntəqələrindən müvafiq Qanuna və Azərbaycan Respublikasının Milli Bankı tərəfindən müəyyən edilmiş qaydada keçirə bilərlər

2.14. Fiziki şəxslər tərəfindən istehsal və kommersiya məqsədləri üçün nəzərdə tutulmayan, xarici-iqtisadi fəaliyyətin mal nomenklaturasının yalnız 8703 mal qrupuna aid edilən avtonəqliyyat vasitələri aşağıdakı hallarda güzəştli və ya sadələşdirilmiş qaydada Azərbaycan Respublikasının sərhədindən keçirilə bilər:

2.14.1. iki təqvim ilindən yuxarı xarici ölkələrdə yaşamış fiziki şəxslər (şəxsiyyəti təsdiq edən sənəddə müvafiq qeydlər olduqda) daimi yaşayış məqsədilə, Azərbaycan Respublikasına köçüb gəldikdə, istehsal-buraxılış tarixindən, yürüş kilometrindən, gömrük dəyərindən və mənşə ölkəsindən asılı olmayaraq ailə üçün bir avtonəqliyyat vasitəsini Azərbaycan Respublikasının gömrük ərazisinə qanunvericiliklə müəyyən edilmiş gömrük rüsumu ödəmədən gətirə bilərlər;

2.14.2. Azərbaycan Respublikasından daimi yaşayış məqsədilə xarici ölkələrə köçüb gedən fiziki şəxslərə onların sahibliyində olan avtonəqliyyat vasitəsini qanunvericiliklə müəyyən edilmiş gömrük ödənişlərini ödəmədən Azərbaycan Respublikasının gömrük ərazisindən aparmağa icazə verilir;

2.14.3. fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük ərazisinə ölkənin gömrük sərhədini keçənədək istehsal-buraxılış tarixindən 1 ilədək keçmiş avtonəqliyyat vasitələri gətirilərkən yürüş kilometrindən, gömrük dəyərindən və mənşə ölkəsindən (bu Qaydaların 2.22 bəndində nəzərdə tutulan hallar istisna olmaqla) asılı olmayaraq, mühərrikin həcminin hər kub santimetrinə görə 0,4 ABŞ dollarına ekvivalent məbləğdə gömrük rüsumları və qanunvericiliklə müəyyən edilmiş miqdarda digər gömrük ödənişləri alınır;

2.14.4. fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük ərazisinə bu ölkənin gömrük sərhədini keçənədək istehsal-buraxılış tarixindən 1 ildən çox ötmüş avtonəqliyyat vasitələri gətirilərkən yürüş kilometrindən, gömrük dəyərindən və mənşə ölkəsindən (bu Qaydaların 2.22 bəndində nəzərdə tutulan hallar istisna olmaqla) asılı olmayaraq, mühərrikin həcminin hər kub santimetrinə görə 0,7 ABŞ dollarına ekvivalent məbləğdə gömrük rüsumları və qanunvericiliklə müəyyən edilmiş miqdarda digər gömrük ödənişləri alınır.

2.15. Azərbaycan Respublikasının gömrük sərhədindən fiziki şəxslər tərəfindən bu Qaydaların 2.2 və 2.14 bəndlərinə uyğun olaraq sadələşdirilmiş qaydada keçirilən mallardan və mal qismində nəqliyyat vasitələrindən gömrük ödənişləri gömrük mədaxil orderi tətbiq olunmaqla alınır.

2.16. Xarici dövlətlərdə daimi qeydiyyatda olan bütün növ avtonəqliyyat vasitələrinin rezident, xarici iqtisadi fəaliyyətin əmtəə nomenklaturasının 8703 mal qrupuna aid edilən avtonəqliyyat vasitələri istisna olunmaqla digər avtonəqliyyat vasitələrinin isə qeyri-rezident fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük ərazisinə müvəqqəti olaraq gətirilməsinə sərbəst dövriyyə üçün buraxılış rejiminə uyğun həcmdə gömrük ödənişlərinə ekvivalent məbləğdə pul vəsaiti sərhəd-buraxılış məntəqələrində depozitə qoyulmaqla icazə verilir.

2.17. Xarici dövlətlərdə daimi qeydiyyatda olan, xarici iqtisadi fəaliyyətin əmtəə nomenklaturasının yalnız 8703 mal qrupuna aid edilən avtonəqliyyat vasitələrinin qeyri-rezident fiziki şəxslərin bilavasitə özləri tərəfindən Azərbaycan Respublikasının gömrük ərazisinə müvəqqəti olaraq gətirilməsinə gömrük qaydalarına əməl edilməklə 30 günədək müddətə, bu müddətin uzadılmasına görə isə sərbəst dövriyyə üçün buraxılış rejiminə uyğun həcmdə gömrük ödənişlərinə ekvivalent məbləğdə pul vəsaiti sərhəd-buraxılış məntəqələrində depozitə qoyulmaqla icazə verilir.

2.18. Xarici dövlətlərdə daimi qeydiyyatda olmayan (və ya qeydiyyatdan çıxarılmış) avtonəqliyyat vasitələrinin rezident və qeyri-rezident fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük ərazisinə müvəqqəti olaraq gətirilməsinə icazə verilmir.

2.19. Əlillər üçün xüsusi olaraq hazırlanmış avtonəqliyyat vasitələrinin Azərbaycan Respublikasının gömrük ərazisinə daxil olmasına Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təsdiqedici sənədi olduğu təqdirdə gömrük ödənişləri alınmadan icazə verilir.

2.20. Gömrük ödənişləri gömrük rəsmiləşdirilməsi aparılan günə Azərbaycan Respublikasının Milli Bankı tərəfindən müəyyən edilən məzənnəyə görə manatla alınır.

2.21. Fiziki şəxslər tərəfindən bu Qaydalarla müəyyən edilmiş dəyər və miqdar məhdudiyyətlərindən yuxarı sayda və məbləğdə Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən mallar və mal qismində nəqliyyat vasitələri xarici-iqtisadi fəaliyyətin tarif və qeyri-tarif tənzimlənməsinə uyğun olaraq ümumi qaydalarla gömrük rəsmiləşdirilməsindən keçirilir.

2.22. Azərbaycan Respublikasının xarici dövlətlərlə azad ticarət haqqında sazişlərində malların idxalına gömrük idxal rüsumunun qarşılıqlı surətdə tətbiq edilməməsi nəzərdə tutulduqda bu Qaydaların 2.2 və 2.3 bəndlərində, habelə 2.14.3 və 2.14.4 yarımbəndlərində nəzərdə tutulan hallarda mənşə ölkəsi həmin ölkələr olan mallara və mal qismində nəqliyyat vasitələrinə gömrük idxal rüsumları tətbiq edilmir.

2.23. Diplomatik xidmət əməkdaşlarının, diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərin xaricdə işlədikləri dövrdə əldə etdikləri vəsaitin və əmlakın (təqdim edilmiş sənədlər əsasında) Azərbaycan Respublikasına gətirilməsinə görə gömrük ödənişləri tutulmur.

**3. Fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi qadağan olunan mallar**

3.1. Azərbaycan Respublikasına fiziki şəxslər tərəfindən gətirilməsi və beynəlxalq poçt göndərişləri vasitəsilə alınması qadağan olunmuş mallar:



3.1.1. Azərbaycan Respublikasının qanunvericiliyi ilə dövriyyəsi qadağan olunmuş xidməti və mülki silahlar, hərbi təyinatlı bütün əşyalar, partlayıcı maddələr, hərbi texnika;

3.1.2. radioaktiv maddələr;

3.1.3. narkotik və psixotrop maddələr, onlardan istifadə üçün ləvazimat;

3.1.4. əxlaq pozğunluğunu, zorakılığı, terrorizmi təbliğ və reklam edən materiallar;

3.1.5. narkotik, psixotrop, zəhərləyici, partlayıcı maddələrin hazırlanması texnologiyasına aid materiallar.

3.2. Azərbaycan Respublikasından fiziki şəxslər tərəfindən aparılması və beynəlxalq poçt vasitəsilə göndərilməsi qadağan olunmuş mallar:

3.2.1. aparılmasına və ya göndərilməsinə, gətirilməsinə və ya alınmasına Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin icazəsi olmayan zooloji kolleksiyalar, onların hissələri və ya ayrı-ayrı obyektləri, o cümlədən heyvanlar aləmi obyektləri;

3.2.2. qiymətli ağac cinsləri (qoz, şabalıd, cökə, palıd, fıstıq, dəmir ağacı);

3.2.3. Azərbaycan Respublikasının qanunvericiliyi ilə dövriyyəsi qadağan olunmuş xidməti və mülki silahlar, hərbi təyinatlı bütün əşyalar, partlayıcı maddələr, hərbi texnika;

3.2.4. radioaktiv maddələr;

3.2.5. narkotik və psixotrop maddələr, onlardan istifadə üçün ləvazimat;

3.2.6. əxlaq pozğunluğunu, zorakılığı, terrorizmi təbliğ və reklam edən materiallar;

3.2.7. narkotik, psixotrop, zəhərləyici, partlayıcı maddələrin hazırlanması texnologiyasına aid materiallar;

3.2.8. xüsusi məxfi rabitə vasitələri, onların şifrləri və istismarı haqqında ədəbiyyat;

3.2.9. Azərbaycan Respublikası Müdafiə Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, Dövlət Sərhəd Xidməti və Daxili İşlər Nazirliyinin operativ istintaq fəaliyyəti üzrə informasiya sistemləri, sənədləri və arxivləri;

3.2.10. dövlət əhəmiyyətli sənədlər, ixtiralar, layihələr;

3.2.11. xammal şəklində olan qiymətli metallar və qiymətli daşlar;

3.2.12. Azərbaycan Respublikasının Qırmızı Kitabına düşmüş nadir bitkilər, maral və cüyür buynuzları;

3.2.13. müvəqqəti sərgi, qastrol səfərləri, bərpa işləri, prezentasiya, beynəlxalq mədəniyyət tədbirlərinin keçirilməsi halları istisna olmaqla Azərbaycan Respublikasının milli mədəniyyət əmlakı Dövlət Siyahısına daxil olan milli mədəniyyət əmlakı olan obyektlər.

3.3. Silah və onun döyüş sursatlarının fiziki şəxslər tərəfindən göndərilməsinə yol verilmir.

3.4. Odlu silah və onun döyüş sursatının poçt vasitəsi ilə göndərilməsi qadağandır.



## İNSAN PSİXİKASINA TƏSİR GÖSTƏRƏN MADDƏLƏRİN SUİ-İSTİFADƏSİ İLƏ ƏLAQƏDAR DETOKSİFİKASİYANIN KEÇİRİLMƏSİ QAYDASI

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 31 iyul tarixli 120 nömrəli qərarı ilə təsdiq edilmişdir.*

1. İnsan psixikasına təsir göstərən maddələrin sui-istifadəsi ilə əlaqədar detoksifikasiya (maddələrin və ya onların dağılması məhsullarının orqanizmdən çıxarılması yolu ilə orqanizmin zəhərlənmə nəticəsində pozulmuş funksiyalarının bərpası, insan psixikasına təsir göstərən maddələrinn doğurduğu abstinent sindromunun və asılılığın aradan qaldırılması) narkoloji tibb müəssisəsində təşkil olunmuş intensiv terapiya palatasında həyata keçirilir.

2. İstisna hallarda xəstənin həyatı üçün bilavasitə təhlükə yarandıqda, detoksifikasiya digər tibb müəssisələrində (reanimasiya, toksikologiya şöbələri) həyata keçirilə bilər. Xəstənin həyatı üçün təhlükə aradan qaldırıldıqdan sonra o, narkoloji tibb müəssisəsinə keçirilməlidir.

3. Detoksifikasiya müddəti narkoloji xəstənin psixi və somatik vəziyyətindən asılı olaraq müəyyən edilir.

4. Detoksifikasiya əsasən dezintoksikasiya, hemosorbsiya və plazmaferez metodlarla həyata keçirilir.

5. Göstərilən detoksifikasiya metodları aşağıdakı hallara tətbiq edilə bilər:

narkoloji xəstəliklərlə əlaqədar həyat üçün təhlükə yaradan vəziyyətlərin (ağır abstinensiya halı, psixozlar, koma və s.) mövcudluğu;

narkoloji xəstəliklərlə yanaşı, digər xəstəliklərin (diabet, onkoloji xəstəliklər, hepatitlər, vərəm və s.) olması;

xəstələrin arzusu ilə (yazılı şəkildə) seçilən detoksifikasiya üsulunun Həkim Məsləhət Komissiyasının qərarı əsasında qiymətləndirilməsi və təyininin mümkünlüyü.

# İNSAN HƏYATI ÜÇÜN TƏHLÜKƏ YARADAN ÜSULLARLA NARKOLOJİ XƏSTƏLƏRİN MÜALİCƏSİ QAYDASI

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 12 avqust tarixli 130 nömrəli qərarı ilə təsdiq edilmişdir.*

İnsan həyatı üçün təhlükə yaradan üsullarla (kodlaşdırma və s.) narkoloji xəstələrin müalicəsi hüquqi əhəmiyyətlə bərabər sırf psixoterapevtik əhəmiyyət də kəsb edir və aşağıdakı qaydalara riayət edilməklə həyata keçirilir:

1. insan həyatı üçün təhlükə yaradan üsulların tətbiq edilməsinə yalnız narkoloji xəstə tərəfindən könüllü olaraq yazılı şəkildə verilmiş ərizə əsasında yol verilir;
2. əgər bu üsullarla müalicə üçün müraciət edən narkoloji xəstə yetkinlik yaşına çatmayıbsa və yaxud məhkəmənin qərarı ilə məhdud fəaliyyət qabiliyyətli hesab edilərsə, bu halda onun yaxın qohumlarının bu üsulların tətbiqinə etiraz etmədikləri həmin ərizədə qeyd olunmalıdır;
3. bu üsullarla narkoloji xəstələrin müalicəsi dövlət narkoloji ambulator və ya stasionar müəssisələrində həkim komissiyasının qərarı əsasında aparılır:
4. bu üsulların tətbiqindən əvvəl xəstənin vəziyyəti qiymətləndirilməli və lazım gəldikdə, müvafiq müalicə tədbirləri həyata keçirilməlidir;
5. həkim-narkoloq tərəfindən psixoloqla birlikdə hər bir narkoloji xəstə üçün fərdi müalicə, sosial psixoloji reabilitasiya və sonrakı müşahidə proqramı tərtib edilir;
6. bu üsullarla müalicə üçün xəstə könüllü müraciət etdikdə, onun öz hərəkətlərini, davranışını qiymətləndirə bilmək bacarığı həkim tərəfindən müəyyən edilir;
7. bu üsulları tətbiq edən həkim xəstəni əvvəlcədən bütün baş verə biləcək nəticələr barədə yazılı surətdə xəbərdar edir və bu sənəd həmişə xəstənin üzərində saxlanılır;



8. bu üsulların tətbiqi digər müalicə tədbirlərinin həyata keçirilməməsinə səbəb ola bilməz;
9. digər müalicə üsullarının tətbiqi zamanı xəstəyə həyatı üçün təhlükə yaradan müalicə üsullarının tətbiq edilməsi nəzərə alınır.

## NARKOLOJİ YARDIMIN HƏYATA KEÇİRİLMƏSİ ZAMANI ŞƏXSLƏR ÜZƏRİNDƏ XÜSUSİ MÜŞAHİDƏNİN APARILMASI QAYDASI

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 12 avqust tarixli 131 nömrəli qərarı ilə təsdiq edilmişdir.*

1. Narkoloji yardımın həyata keçirilməsi zamanı şəxslər üzərində xüsusi müşahidə ambulator şəkildə narkoloji tibb müəssisələri tərəfindən aparılır.

Bu şəxslərə açılmış ambulator müşahidə kartası qeydiyyatda olan narkoloji xəstələr üçün nəzərdə tutulmuş qaydada aparılır.

2. Xüsusi müşahidə şəxslər üzərində ərazi narkoloji dispanseri (poliklinikası) tərəfindən aşağıdakı müddətdə və qaydada həyata keçirilir:

alkoqol psixozu, narkotik vasitələrin və psixotrop maddələrin qəbulu nəticəsində əmələ gəlmiş intoksikasion psixozu keçirmiş narkoloji xəstələr üzərində 1 (bir) il müddətində;

yetkinlik yaşına çatmayan uşaqları olan narkoloji xəstələrə — bu müşahidə növü xroniki alkoqolizm xəstəliyi olduğu halda 3 (üç) il, narkomaniya və toksikomaniya xəstəlikləri olduğu halda aidiyyəti orqanlarla birlikdə 5 (beş) il müddətində (yeniyetmələrlə işləyən komissiya, təhsil müəssisəsi və s.);

yetkinlik yaşına çatmayan narkoloji xəstələr üzərində 18 yaşına qədər, aidiyyəti orqanlarla (yeniyetmələrlə işləyən komissiya, təhsil aldığı müəssisə və s.) birlikdə;

HIV/AIDS-dən, hepatitlərdən, zöhrəvi xəstəliklərdən və aktiv formada vərəm xəstəliyindən əzab çəkən narkoloji xəstələrin narkoloji tibb müəssisələri — müvafiq tibb müəssisələri ilə birlikdə (QİÇS-lə Mübarizə Mərkəzi, ərazi poliklinikaları, dəri-zöhrəvi və vərəm əleyhinə dispanserləri) xroniki alkoqolizmlə xəstələr üzərində — 3 (üç) il, narkomaniya və toksikomaniya ilə xəstələr üzərində — 5 (beş) il müddətində;



İnsan psixikasına təsir göstərən maddələrin qəbul edilməsi nəticəsində dönməz psixi və şəxsiyyət dəyişiklikləri olan narkoloji xəstələr üzərində bütün həyatları boyu.

Tibbi göstəriş olduqda, həkim-narkoloq psixoloqla birlikdə narkoloji xəstə üçün fərdi müalicə proqramı tərtib edir.

3. Narkoloji tibb müəssisələri yuxarıda göstərilən aidiyyəti təşkilatlarla birlikdə ildə bir dəfədən az olmamaq şərti ilə xüsusi müşahidə altında olan şəxslərin vəziyyəti və sağlamlığı haqqında qarşılıqlı məlumat mübadiləsi aparmalıdırlar.

4. Xüsusi müşahidə müddəti ərzində xəstədə residiv olarsa, ona stasionar müalicə təklif edilməlidir.

5. Xüsusi müşahidə altında olan şəxs narkoloji tibb müəssisəsinə müraciət etmədiyi halda ən azı hər altı aydan bir tibb işçiləri xəstəni ev şəraitində müşahidə etməli (aktiv müşahidə) və müvafiq məlumatlar toplamalıdırlar. Aktiv müşahidə haqqında da xəstənin ambulator tibb kartasında müvafiq qeydlər aparılır.

6. İnsan psixikasına təsir göstərən maddələrin qəbul edilməsi nəticəsində geriyədönməz psixi və şəxsiyyət dəyişiklikləri olan narkoloji xəstələr əmək qabiliyyətini itirdikləri halda sosial məsələlərin həlli üçün onlar dövlət narkoloji tibb müəssisəsi tərəfindən müvafiq Tibbi-Sosial Ekspert Komissiyasına göndərilir.

Qeyd:

1. Alkoqol psixozu və narkotik vasitələrin və psixotrop maddələrin qəbulu nəticəsində əmələ gəlmiş intoksikasion psixozu keçirmiş narkoloji xəstələr aktiv müşahidədə saxlanılmaqla 1 ildən sonra müvafiq bölmələrə keçirilirlər.

2. Yetkinlik yaşına çatmayan narkoloji xəstələr yeniyetmələr üçün ayrılmış kabinetdə müşahidəyə götürülürlər və bu zaman müvafiq orqanlarla sıx informasiya mübadiləsi aparılır.

## NARKOLOJİ TİBB MÜƏSSİSƏLƏRİNDƏ TƏHLÜKƏSİZLİK TƏDBİRLƏRİNİN TƏTBİQ EDİLMƏSİ QAYDASI

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 12 avqust tarixli, 132 nömrəli qərarı ilə təsdiq edilmişdir.*
*(28 fevral 2003-cü il tarixli, 33 nömrəli qərara əsasən əlavələr və dəyişikliklərlə)*

1. Narkoloji tibb müəssisələrində təhlükəsizlik tədbirləri (müəssisələrdə işləyən tibbi heyətin və xəstələrlə əlaqədə olan digər şəxslərin narkoloji xəstələr tərəfindən törədilə biləcək təhlükəli hərəkətlərdən mühafizəsi) həmin müəssisələrin rəhbərliyi tərəfindən həyata keçirilir.

2.Narkoloji tibb müəssisələrində tətbiq edilən təhlükəsizlik tədbirləri həmin müəssisələrdə işləyən şəxslərin, müalicə olunan digər xəstələrin, bu xəstələrə baş çəkən şəxslərin ləyaqətinə xələl gətirməməli və onların hüquqlarını məhdudlaşdırmamalıdır.

3. Xəstə tibb müəssisəsinə daxil olduqda, palatada yerləşdirilməli və 3 gün müddətində ciddi nəzarət altında olmalıdır. Onun səhhəti həkim tərəfindən qiymətləndirilməli, daxili rejim və təhlükəsizlik qaydaları ilə xəstə tanış edilməli və bu qaydalara riayət edilməsi barədə ondan yazılı iltizam alınmalıdır.

4. Alkoqol və ya intoksikasion psixozlu xəstələrdə düşüncə pozuntuları olduğu halda, onun sağlamlığını qorumaq məqsədi ilə yataqda fiksə edilə bilər.

5. Narkoloji tibb müəssisələrində xəstələrin şöbədənkənar hərəkətləri məhdudlaşdırıla bilər.

6. Müalicə olunan xəstələr onların psixoloji vəziyyəti, spirtli içkilərə, narkotik və psixotrop maddələrə meyllərin olması nəzərə alınaraq tibb işçilərinin daimi nəzarətində olmalı, onların yanına gələn şəxslərin kimliyi aydınlaşdırılmalı, sayı məhdudlaşdırılmalı və gətirilən ərzaq və s. əşyalar yoxlanılmalıdır.



7. Müalicə olunan xəstənin yanına gəlmə vaxtı və müddəti daxili qaydalar əsasında məhdudlaşdırılır və bu xəstəyə kəsici, iti əşyaların, şüşə qabların, psixoaktiv maddələrin gətirilməsi qadağan edilir.

8. Narkoloji tibb müəssisələrində daxili rejimə və təhlükəsizlik tədbirlərinə əməl olunmasına bölmə rəhbəri, növbətçi həkim və növbətçi tibb personalı cavabdehlik və məsuliyyət daşıyırlar.

9. Tibb personalı tərəfindən daxili rejim və təhlükəsizlik tədbirlərinə riayət edilmədikdə, qanunvericilikdə müəyyən olunmuş qaydada tədbirlər görülə bilər.

10. Psixi pozuntuları olmayan, müalicəyə könüllü müraciət edən narkoloji xəstələr tərəfindən daxili rejimə və təhlükəsizlik tədbirlərinə əməl edilmədikdə, onlar narkoloji tibb müəssisəsinin rəhbərliyinin qərarı ilə xəstəxanadan xaric edilə bilərlər.

Qeyd: Yetkinlik yaşına çatmamış narkoloji xəstələr, habelə özlərinin və ətrafdakı şəxslərin səhhəti və həyatı üçün təhlükə yaradan narkoloji xəstələr digər xəstələrdən ayrı yerləşdirilirlər.

# NARKOLOJİ XƏSTƏLƏRİN QEYDİYYATININ APARILMASI QAYDASI VƏ ONLARIN QEYDİYYATDA OLMA MÜDDƏTİ

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 19 avqust tarixli 136 nömrəli qərarı ilə təsdiq edilmişdir.*

## I. Narkoloji xəstələrin qeydiyyatının aparılması qaydası

1. Narkoloji xəstələr (alkoqolizmə, narkomanlığa və toksikomaniyaya düçar olan şəxslər) və insan psixikasına təsir göstərən maddələrdən (spirtli içkilərdən, narkotik vasitələrdən, psixotrop və bihuşedici maddələrdə) sui-istifadə edən şəxslər dövlət narkoloji tibb müəssisələri tərəfindən aşağıdakı hallarda qeydiyyata götürülürlər:

könüllü müalicə olunmaq üçün müraciət etdikdə;

ibtidai istintaq, prokurorluq, məhkəmə orqanlarının qərarı əsasında məcburi tibbi müayinə zamanı yoxlanılan şəxsdə narkoloji xəstəlik aşkar edildikdə;

tibbi müayinə üçün könüllü müraciət edən şəxsdə narkoloji xəstəlik müəyyən edildikdə;

işə götürən idarə və ya müəssisənin göndərişi əsasında keçirilən tibbi müayinə zamanı narkoloji xəstəlik aşkara çıxarıldıqda.

2. Konkret şəxsin qeyri-tibbi məqsədlərlə narkotik vasitələrdən, psixotrop və bihuşedici maddələrdən və onların analoqlarından istifadə etməsi və yaxud narkotik sərxoşluq vəziyyətində olması barədə müxtəlif tibb müəssisələrindən (toksikoloji, travmatoloji, dəri-zöhrəvi, vərəm əleyhinə tibb müəssisələri, QİÇS laboratoriyaları və s.) alınan məlumatlar həmin şəxsin qeydiyyata götürülməsi üçün əsas verir.

3. Narkoloji xəstələr və insan psixikasına təsir göstərən maddələrdən sui-istifadə edən şəxslər qeydiyyata götürülərkən həkim-narkoloq həmin şəxslərə ambulator xəstələrin tibbi kartasını açır və bu kartada qeydiyyatda olduğu müddətdə xəstənin səhhəti barədə müvafiq qeydlər aparır (aparılan müalicə, verilən sorğular, alınan cavablar və s. barədə).



4. Qeydiyyata götürülmüş şəxslər haqqında altı bölmədən ibarət aşağıdakı qaydada dinamik müşahidə kartotekası aparılır:

birinci bölmədə — narkomanlığa düçar olan şəxslər haqqında;

ikinci bölmədə — toksikomaniyaya düçar olan şəxslər haqqında;

üçüncü bölmədə — alkoqolizmə düçar olan şəxslər haqqında;

dördüncü bölmədə — həkim təyinatı olmadan narkotik vasitələrdən istifadə edən, lakin narkoloji xəstəliyə tutulmamış şəxslər haqqında;

beşinci bölmədə — həkim təyinatı olmadan psixotrop və bihuşedici maddələrdən sui-istifadə edən, lakin narkoloji xəstəliyə tutulmamış şəxslər haqqında;

altıncı bölmədə — spirtli içkilərdən sui-istifadə edən, lakin narkoloji xəstəliyə tutulmamış şəxslər haqqında.

5. Qeydiyyatı aparan narkoloji tibb müəssisəsi narkomanlığa düçar olan, habelə narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslər barəsində kəmiyyət göstəricilərinin ümummilli banka daxil edilməsi üçün Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə göndərir.

6. Narkoloji tibb müəssisələri tərəfindən narkoloji xəstələrin və insan psixikasına təsir göstərən maddələrdən sui-istifadə edən şəxslərin qeydiyyatının aparılması zamanı xəstənin səhhəti haqqında məlumatların konfidensiallığı təmin edilir və hər hansı şəxs barəsində narkoloji yardımın həyata keçirilməsinə dair məlumatlar Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada verilə bilər.

## II. Narkoloji xəstələrin qeydiyyatda olma müddəti

1. Narkoloji xəstələrin, spirtli içkilərdən, narkotik vasitələrdən, psixotrop və bihuşedici maddələrdən sui-istifadə edən şəxslərin qeydiyyatda olma müddəti aşağıdakı kimi müəyyən edilir:

narkoloji xəstələr üçün — sağalma (dözümlü remissiya) və ya narkotik vasitələrdən, psixotrop maddələrdən sui-istifadə etməkdən özünüsaxlama müddəti — 5 il;

alkoqolizmə düçar olan xəstələr üçün — sağalma müddəti (dözümlü remissiya) — 3 il;

insan psixikasına təsir göstərən maddələrdən sui-istifadə edən şəxslər üçün — narkotik vasitələrdən, psixotrop və bihuşedici maddələrdən sui-istifadə etməkdən özünüsaxlama müddəti — 1 il, spirtli içkilərdən sui-istifadə etməkdən özünüsaxlama müddəti — 1 il.

2. Qeydiyyatda olan narkoloji xəstələr aşağıdakı hallarda qeydiyyatdan çıxarılaraq olduğu yeni yer üzrə qeydiyyata götürülürlər:

cinayət törəməyə görə 1 ildən artıq azadlıqdan məhrumetmə cəzasına məhkum edildikdə;

yaşayış yeri dəyişildikdə;

həqiqi hərbi xidmətə çağırıldıqda.



# NARKOLOJİ XƏSTƏLƏR ÜÇÜN FƏALİYYƏT MƏHDUDİYYƏTİ NƏZƏRDƏ TUTULMUŞ PEŞƏ NÖVLƏRİNİN VƏ VƏZİFƏLƏRİN SİYAHISI VƏ MƏHDUDİYYƏTİN MÜDDƏTİ

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 12 sentyabr tarixli 145 nömrəli qərarı ilə təsdiq edilmişdir.*

*(23 noyabr 2004-cü il tarixli, 181 nömrəli qərara əsasən dəyişikliklərlə)*

## I. Peşə növlərinin və vəzifələrin siyahısı

1. Dərman preparatlarının, narkotik vasitələrin, psixotrop maddələrin prekursorların tədqiqatı, istehsalı, qablaşdırılması, tətbiqi, saxlanılması və satışı prosesində iştirak edən idarə, müəssisə və təşkilatlarda bütün növ peşə və vəzifələr.
2. Təcili tibbi yardım stansiyalarının həkimləri, tibb müəssisələrində anestezioloq-reanimatoloq, onkoloq və digər bilavasitə narkotik maddələrin istifadə edilməsi və məsləhət görülməsi ilə əlaqəli olan tibbi vəzifələr.
3. Tədris-tərbiyə müəssisələrində bütün növ peşə və vəzifələr.
4. Uşaq və yeniyetmələrin sağlamlıq müəssisələrində (mövsümi), məktəbdənkənar müəssisələrdə bütün növ peşə və vəzifələr.
5. Məktəbəqədər uşaq müəssisələrində bütün növ peşə və vəzifələr.
6. İstehsalatda texniki təhlükəsizliyin təmin edilməsində bütün növ peşə və vəzifələr.
7. Xüsusi rabitə şəbəkəsində bütün növ peşə və vəzifələr.
8. Hərbiləşdirilmiş mühafizə xidmətlərində bütün növ peşə və vəzifələr.
9. Silah və sursatın daşınmasına, tətbiq edilməsinə və saxlanmasına xüsusi icazəsi olan bütün növ peşə və vəzifələr.
10. Müdafiə, təhlükəsizlik, məhkəmə və hüquq-mühafizə orqanlarında bütün növ peşə və vəzifələr.
11. Bütün müəssisələrdə və bank sistemində xəzinə müdirləri, xəzinədarlar və nəğd pul əməliyyatları ilə məşğul olan mühasib və

nəzarətçilər.

12. İnkassatorlar.

13. Qazxilasetmə xidmətinin, açıq qaz və neft fəvvarələrinin qarşısının alınması və aradan qaldırılması üzrə dağxilasetmə komandalarının, yanğından mühafizə xidmətinin bütün növ peşə və vəzifələri.

14. Neft-qaz sənayesi müəssisələrində bilavasitə istehsalat prosesi ilə bağlı bütün növ peşə və vəzifələr üzrə işçilər.

15. 127 V və daha yüksək gərginlikli qurğulara xidmət göstərən, operativ dəyişmələr edən növbətçi heyət, həmin elektrik qurğularında sazlama, quraşdırma və yüksək gərginlik altında sınaqlar və iş aparan heyət.

16. İqtisadiyyatın bütün sahələri üzrə dispetçerlər.

17. Partlayıcı maddələr tətbiq olunan, partlayış və yanğın təhlükəsi olan istehsalat sahələrində məşğul olan bütün növ peşə və vəzifələr.

18. Nəqliyyatın bütün növlərini idarə edən işçilər, o cümlədən müəssisədaxili hərəkətlə bilavasitə əlaqədar olan işçilər (avtoyükləyicilərin, elektrokarların sürücüləri, nizamlayıcılar).

**II. Məhdudiyyətin müddəti**

Narkoman və toksikomanlar üçün məhdudiyyət müddəti davamlı remissiya olması şərti ilə 5 il, xroniki alkoqolizm xəstəliyinə düçar olanlar üçün 3 il olmalıdır.

Göstərilən müddət başa çatdıqdan sonra bu xəstələr, 9 və 10-cu bəndlər istisna olmaqla, digər peşə və vəzifələrdə işləyə bilərlər.



## NARKOLOJİ XƏSTƏLİKLƏRİN SİYAHISI

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 24 oktyabr tarixli 163 nömrəli qərarı ilə təsdiq edilmişdir.*

**I. Psixoaktiv maddələrin qəbulu nəticəsində yaranan psixi və davranış pozuntuları, o cümlədən:**

alkoqol qəbulu nəticəsində psixi və davranış pozuntuları;

opioidlərin qəbulu nəticəsində psixi və davranış pozuntuları;

kannabinoidlərin qəbulu nəticəsində psixi və davranış pozuntuları;

sedativ və ya yuxugətirici maddələrin qəbulu nəticəsində psixi və davranış pozuntuları;

kokain qəbulu nəticəsində psixi və davranış pozuntuları;

kofein daxil olmaqla digər stimulyatorların qəbulu nəticəsində psixi və davranış pozuntuları;

hallüsinogenlərin qəbulu nəticəsində psixi və davranış pozuntuları;

tütündən istifadə nəticəsində psixi ya davranış pozuntuları;

üçüncü həlledicilərin qəbulu nəticəsində psixi və davranış pozuntuları;

narkotiklərdən və digər psixoaktiv maddələrdən birlikdə istifadə nəticəsində psixi və davranış pozuntuları.

**II. Psixoaktiv maddələrin qəbulu nəticəsində yaranan kəskin informasiya, o cümlədən:**

fəsadsız:

travma və ya digər bədən xəsarətləri ilə:

digər tibbi fəsadlarla, məsələn qanlı qusma ilə, qusma möhtəviyyatının tənəffüs

yoluna düşməsi ilə;

deliriya ilə;

qavramanın pozuntusu ilə;

koma ilə;

qıcolmalarla:

patoloji sərxoşluq (yüngül, orta, ağır dərəcəli).

**III. Psixoaktiv maddələrin zərərli nəticələrlə təkrar qəbulu**

**IV. Psixoaktiv maddələrdən asılılıq sindromu, o cümlədən:**
başlanğıc (birinci) mərhələ;
orta (ikinci) mərhələ;
son (üçüncü) mərhələ;
mərhələsi məlum deyildir

**V. Psixoaktiv maddələrin qəbulunun dayandırılması vəziyyəti (abstinentlik halı), o cümlədən:**

fəsadlaşmamış;
qıcolma tutmaları ilə;
ƏGO (əlavə göstəricisi olmayan).

**VI. Psixoaktiv maddələrin qəbulunun dayandırılması, vəziyyəti deliriya, o cümlədən:**

klassik:
qıcolma tutmaları ilə;
zümzüməli;
«peşə»:
hallüsinasiyalarsız (lüsid):
abortiv:
digər:
dəqiqləşdirilməmiş.

**VII. Psixoaktiv maddələrin qəbulu nəticəsində psixotik pozuntular, o cümlədən:**

şizofreniyaya bənzər;
sayıqlamanın üstünlüyü ilə;
hallüsinator üstünlüyü ilə (alkoqol hallüsinozu da daxil edilməklə);



polimorf əlamətlərin üstünlüyü ilə;
depressiv əlamətlərin üstünlüyü ilə;
maniakal əlamətlərin üstünlüyü ilə;
qarışıq;
alkoqol hallüsinozu;
alkoqol qısqanclıq sayıqlaması;
alkoqol paranoyası;
ƏGO alkoqol psixozları.

**VIII. Psixoaktiv maddələrin qəbulu nəticəsində yaranan amnestik sindrom, o cümlədən:**

Alkoqol və ya digər psixoaktiv maddələr tərəfindən törədilən Korsakov psixozu və ya sindromu.

**IX. Psixoaktiv maddələrin qəbülu nəticəsində yaranan rezidual (qalıq) psixotik və gecikmiş debütlü psixotik pozuntu, o cümlədən:**

flestik;
şəxsiyyət və ya davranış pozuntuları;
rezidual affektiv pozuntuları;
demensiya;
digər dayanıqlı koqnitiv pozuntu;
gecikmiş debütlü.

**X. Psixoaktiv maddələrin qəbulu nəticəsində yaranan digər psixi və davranış pozuntuları, o cümlədən:**

psixotik;
qeyri-psixotik.

**XI. Psixoaktiv maddələrin qəbulu nəticəsində yaranan dəqiqləşdirilməmiş psixi və davranış pozuntuları, o cümlədən:**

psixotik;
psixotik olmayan (qeyri-psixotik);

dəqiqləşdirilməmiş.

Qeyd.

1. Göstərilən narkoloji xəstəliklərin Siyahısı Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) təşəbbüsü ilə tərtib edilən «Xəstəliklərin Beynəlxalq Təsnifatı»na (10-cu baxış) əsasən hazırlanmışdır.

2. Bu xəstəliklərin kodlaşdırılması həmin «Xəstəliklərin Beynəlxalq Təsnifatı»nda göstərilən kodlara uyğun həyata keçirilməlidir.



## ŞƏXSİN NARKOLOJİ XƏSTƏLİYƏ DÜÇAR OLMASININ (NARKOLOJİ XƏSTƏLİYİN DİAQNOZUNUN) MÜƏYYƏN EDİLMƏSİ VƏ YA TƏSDİQLƏNMƏSİ MƏQSƏDİ İLƏ TİBBİ YOXLAMANIN APARILMASI QAYDASI

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 26 noyabr tarixli 186 nömrəli qərarı ilə təsdiq edilmişdir.*

1. Şəxsin narkoloji xəstəliyə düçar olmasının (narkoloji xəstəliyin diaqnozunun) müəyyən edilməsi və ya təsdiqlənməsi məqsədi ilə həmin şəxs müəssisələrdə tibbi yoxlamadan keçirilməlidir.

2. Tibbi yoxlamanın aparılması üçün şəxs narkoloji müəssisələrə könüllü olaraq müraciət edə bilər və bu halda onun narkoloji diaqnozu həkim-narkoloq tərəfindən müəyyən edilir.

3. Tibbi yoxlama təhqiqat, istintaq orqanlarının və ya məhkəmənin qərarı əsasında aparıldıqda, şəxsin narkoloji xəstəliyinin diaqnozunu həkim-məsləhət komissiyası müəyyən edir.

4. Həkim-məsləhət komissiyasının tərkibi tibb müəssisəsinin rəhbəri tərəfindən müəyyənləşdirilir və ona biri həkim-narkoloq olmaqla 3 nəfər həkim daxil olur.

Komissiyanın fəaliyyətinə digər mütəxəssislər də cəlb edilə bilərlər.

5. Həkim-məsləhət komissiyasının tərkibinə daxil edilən həkim-narkoloq I ixtisas dərəcəsinə və ya azı 5 illik narkoloji xəstələri müalicəetmə təcrübəsinə malik olmalıdır.

6. Tibbi yoxlama aparılarkən həkim-məsləhət komissiyasının üzvləri yoxlanılan şəxs haqqında məlumatları və yoxlamanın nəticəsini xüsusi jurnalda qeyd edirlər. Şəxsin tibbi yoxlamadan keçməsi haqqında həkim-narkoloqun və ya həkim-məsləhət komissiyasının tərtib etdiyi rəydə onun narkoloji xəstəliyə düçar olub-olmaması, düçar olduğu halda xəstəliyin növü, mərhələsi və bununla əlaqədar müalicəyə ehtiyac dərəcəsi əks etdirilir.

7. Tibbi yoxlama nəticəsində şəxsin narkoloji xəstəliyinin diaqnozu müəyyən və ya təsdiq edildikdə, yaxud şəxsin narkotik vasitələrin, psixotrop maddələrin və ya onların analoqlarını qəbul

etməsi faktı müəyyən edildikdə, həmin şəxs qeydiyyata götürülür.

8. Könüllü müraciət zamanı tibbi yoxlama nəticəsində narkoloji xəstəlik diaqnozu təsdiqlənərsə, şəxsin istəyi ilə anonimlik və konfidensiallıq təmin olunmaqla müalicə aparıla bilər.

9. Narkoloji xəstəliyin diaqnozunun müəyyən edilməsi məqsədi ilə aparılan müayinə nəticəsində şəxsin narkotik vasitələri və psixotrop maddələri istehlak etməsi sübut edildikdə, bu barədə məlumat narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların dövriyyəsinə dair ümummilli məlumat bankına verilir.

10. Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən inzibati, cinayət və mülki işin aparılması prosesində narkologiya sahəsində xüsusi biliyin olması tələb olunarsa, inzibati, cinayət və mülki məsuliyyətə cəlb olunan şəxsə aid aşağıdakı hallarda narkoloji tibbi yoxlama təyin edilə bilər:

cinayət məsuliyyətinə cəlb olunan şəxsin insan psixikasına təsir edən maddələrdən istifadə etməsi haqqında məlumat və həmin şəxsin narkoloji xəstəlikdən əzab çəkməsindən şübhələnməyə əsas olduğu hallarda;

insan psixikasına təsir edən maddələrin istifadəsi nəticəsində cinayət törədən zaman şəxsdə psixotik pozuqluqlar müşahidə olunursa, onun anlaqlı və ya anlaqsız vəziyyətdə olmasını müəyyənləşdirmək üçün müvafiq məhkəmə-istintaq orqanının qərarı əsasında (ambulator va ya stasionar şəraitində): bu hallarda tibbi yoxlamanın nəticəsinə əsasən müvafiq tibbi xarakterli məcburi tədbirlər haqqında məsləhət verilə bilər;

mülki proseslərdə insan psixikasına təsir edən maddələrdən sui-istifadə nəticəsində vətəndaşın fəaliyyət qabiliyyətinin məhdudlaşdırılması məsələsi haqda, həmin vətəndaşın narkoloji xəstə olub-olmamasını müəyyən etmək üçün;

inzibati, cinayət və mülki işin aparılması gedişində narkologiya sahəsində biliyin olması tələb olunduğu digər hallarda.

11. İnzibati, cinayət və mülki materiallar, tibbi sənədlər, yoxlama rəyləri, həkim-məsləhət komissiyasının işi haqqında hesabat, məhkəmə-istintaq orqanları ilə yazışma xüsusi seyflərdə saxlanılır.

12. Yoxlama aparılması ilə əlaqədar tibbi sənədlər (xəstəlik tarixi, həkim-məsləhət komissiyasının rəyinin surəti və s.) yalnız istintaq orqanına, prokurora, məhkəməyə və yuxarı səhiyyə orqanına verilə bilər. Tibbi sənədlərin verilməsi üçün göstərilən orqan və ya idarələrin, məqsəd göstərilməklə, müvafiq yazılı sorğusu əsasdır.



13. Tibbi yoxlamanın nəticəsi barədə müvafiq tibbi sənədlər narkoloji müəssisənin rəhbəri və ya onu əvəz edən şəxs tərəfindən verilir.

14. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi və Mülki-Prosessual Məcəlləsi ilə məhkəmə ekspertləri üçün müəyyən olunmuş hüquq və vəzifələr istintaq orqanlarının və ya məhkəmənin qərarı əsasında tibbi yoxlamanı aparan həkim-məsləhət komissiyasının həkimlərinə də şamil edilir.

15. Tibbi yoxlama aparılarkən həkim-məsləhət komissiyasının üzvləri hərəkətlərində və çıxardıqları nəticələrdə müstəqildirlər və tibb elminin müvafiq tövsiyələrini, məhkəmə yoxlaması aparılması qanunları, eləcə də bu Qaydanı əldə rəhbər tuturlar.

16. Tibbi yoxlamanın nəticəsi yoxlama aparılması haqqında istintaq orqanlarının və ya məhkəmənin qərarının komissiyaya daxil olduğu andan 15 gün müddətində istintaq aparan şəxsə-müstəntiqə, prokurora və ya məhkəməyə göndərilməlidir. Əlavə materialların təqdim olunması haqqında komissiya üzvləri yazılı müraciət etdiyi hallarda yoxlama müvəqqəti dayandırılır və həmin materiallar təqdim edildikdən sonra bərpa olunur.

17. Komissiya üzvləri qarşısında qoyulmuş sualları ambulator şəraitdə həll etmək mümkün olmadıqda və müayinə olunanı stasionar şəraitdə müşahidə etmək zərurəti yarandıqda, stasionar tibbi yoxlama təyin oluna bilər. Həbsdə olan şəxslərin stasionar tibbi yoxlanması həbsdə olanlar üçün məhkəmə-psixiatrik ekspertiza şöbələrində aparılır və müvafiq stasionar məhkəmə-psixiatrik ekspert komissiyasının üzvləri tərəfindən həyata keçirilir. Stasionar tibbi yoxlama ambulator tibbi yoxlama komissiyasının əsaslandırılmış rəyinə əsasən iş aparan orqan tərəfindən təyin olunur. Müayinə edilənin stasionarda qalma müddəti 20 gündən artıq olmamalıdır.

18. Tibbi yoxlama təyin etmiş orqan yoxlama obyektinə aid lazımi tibbi sənədlər əlavə olunmuş inzibati, cinayət və mülki iş

materiallarını komissiya üzvlərinə təqdim etməyə borcludur.

19. Komissiyaya təqdim olunmuş materiallar rəy verilməsi üçün kifayət etmirsə, o zaman əlavə materialların və tibbi sənədlərin təqdim olunması üçün tibbi yoxlamanı təyin etmiş orqana müraciət edirlər. Bu sənədlər təqdim olunmadığı halda, komissiya üzvləri rəy verilməsinin mümkün olmaması haqqında yoxlamanı təyin etmiş orqana yazılı məlumat verirlər.

20. Tibbi yoxlama aparılarkən müayinə edilən şəxsdə ruhi pozuqluq aşkar olunarsa, komissiya qoyulmuş suallara cavab verməklə bərabər öz rəylərində məhkəmə psixiatrik ekspertizasının təyin olunması zərurətini də göstərir.

21. Tibbi yoxlamanın nəticəsi tibbi-məsləhət komissiyasının rəyi şəklində tərtib olunur və bu rəydə aşağıdakılar əks etdirilir:

tibbi yoxlama keçirən şəxsin soyadı, adı, atasının adı, yaşı, yaşadığı yer;

tibbi yoxlama aparılmasının vaxtı və yeri;

tibbi yoxlamanı aparmış tibbi-məsləhət komissiyasının üzvləri haqqında məlumat

(soyadı, adı, atasının adı, təhsili, ixtisası, elmi dərəcəsi və rütbəsi, vəzifəsi);

tibbi yoxlamanın aparılması üçün əsas verən sənəd (müvafiq istintaq və ya məhkəmənin) qərarı;

komissiya qarşısında qoyulan suallar;

tibbi yoxlama zamanı aparılmış müayinələr, rəyin əsaslandırılması.

Rəy komissiyanın bütün üzvləri tərəfindən imzalanır və tibbi yoxlama komissiyasının təşkil olunduğu müəssisənin möhürü ilə təsdiq edilir.

Komissiya üzvləri arasında fikir ayrılığı olduqda, komissiyanın digər üzvlərinin rəyi ilə razılaşmayan həkim ayrıca rəy tərtib edir və yoxlama təyin etmiş orqana göndərir.

Komissiyanın hər bir üzvü aparılmış müayinələrə və imzaladığı rəyə görə şəxsi məsuliyyət daşıyır.



## DÖVLƏT BÜDCƏSİNİN VƏSAİTİ HESABINA GÖSTƏRİLƏN NARKOLOJİ YARDIMIN MİNİMAL STANDARTLARI

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 10 dekabr tarixli 193 nömrəli qərarı ilə təsdiq edilmişdir.*

Dövlət büdcəsinin vəsaiti hesabına göstərilən narkoloji yardımın minimal standartları aşağıdakılardır:

1. narkoloji xəstəliklərə düçar olmuş şəxslərdə bu xəstəliklər nəticəsində onların həyatı üçün təhlükə yaradan hallarda (kəskin psixotik pozuntular, qıcolmalar, narkotik vasitələrin və psixotrop maddələrin şəxsi istehlak miqdarından qat-qat artıq birdəfəlik istifadəsi nəticəsində yaranan komatoz (dərin şüur pozuntusu) vəziyyətdə) təxirəsalınmaz tibbi tədbirlər;
2. insan psixikasına təsir göstərən maddələrin sui-istifadəsi ilə əlaqədar detoksifikasiyanın keçirilməsi;
3. psixoloji və fiziki vəziyyətin korreksiyası – ümumi möhkəmləndirici, psixotrop maddələrlə və suqestiv psixoterapiya;
4. metadon hidroxlorid əvəzedici preparatla müalicə.

# PEŞƏ FƏALİYYƏTİNİN AYRI-AYRI NÖVLƏRİ VƏ YÜKSƏK TƏHLÜKƏ MƏNBƏYİ İLƏ BAĞLI OLAN FƏALİYYƏTLƏ MƏŞĞUL OLAN ŞƏXSLƏRİN DÖVLƏT NARKOLOJİ TİBB MÜƏSSİSƏSİNDƏ TİBBİ MÜAYİNƏDƏN (TİBBİ YOXLAMADAN) KEÇMƏSİ QAYDASI

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 8 fevral tarixli, 18 nömrəli qərarı ilə təsdiq edilmişdir.*

1. Əhalinin hüquqlarının, qanuni mənafelərinin və dövlətin təhlükəsizliyinin müdafiəsi məqsədi ilə peşə fəaliyyətinin ayrı-ayrı növləri və yüksək təhlükə mənbəyi ilə bağlı olan fəaliyyətlə məşğul olan şəxslər işə qəbul olunduqda, işlədiyi müddətdə isə ildə bir dəfədən az olmayaraq dövlət narkoloji tibb müəssisəsində tibbi müayinədən (tibbi yoxlamadan) keçməlidirlər.

2. Göstərilən şəxslərin dövlət narkoloji tibb müəssisəsində tibbi müayinədən (tibbi yoxlamadan) keçirilməs aidiyyəti idarə və ya müəssisələrin rəhbərləri tərəfindən təmin olunmalıdır.

3. Göstərilən şəxslərin tibbi müayinədən (tibbi yoxlamadan) keçməsi üçün aidiyyəti idarə və ya müəssisə rəhbərinin göstərişi əsasdır.

4. Dövlət narkoloji tibb müəssisəsinin rəhbərliyi göstərilən şəxslər tibbi müayinədən (tibbi yoxlamadan) keçən zaman zərurət yarandıqda, onlar haqqında əlavə məlumat əldə etmək məqsədi ilə müvafiq idarə və müəssisələrə sorğu ilə müraciət edə bilər.

5. Dövlət narkoloji tibb müəssisəsi tərəfindən tibbi müayinə (tibbi yoxlama) haqqında rəy tərtib edilməli, onun əsli isə işə götürən idarəyə və ya müəssisəyə göndərilməli və işçinin şəxsi işinə tikilməlidir. İşçinin vaxtlı-vaxtında tibbi müayinədən (tibbi yoxlamadan) keçməsi təmin olunmalıdır.

6. Dövlət narkoloji tibb müəssisəsi tərəfindən tibbi müayinə (tibbi yoxlama) haqqında verilən rəydə şəxsin narkoloji xəstəliyə düçar olub-olmaması və ya insan psixikasına təsir edən maddələrin qəbulu faktının aşkar olunması, zərurət olduqda isə laborator tədqiqatlarının nəticələri əsasında həmin maddələrin növü barədə



məlumatlar əks olunmalıdır.

7. Narkoloji tibb müəssisələrində tibbi müayinə (tibbi yoxlama) zamanı əldə olunan nəticə xüsusi jurnalda qeyd edilir. Jurnalın səhifələri nömrələnməli, tikilməli və narkoloji tibb müəssisəsinin möhürü ilə təsdiqlənməlidir.

8. Narkoloji tibb müəssisələrində həyata keçirilən tibbi müayinənin (tibbi yoxlamanın) nəticələrindən narazı qalan şəxs mübahisəli məsələlərin məhkəməyə qədər həll edilməsi üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin nəzdində təşkil edilmiş münaqişə komissiyasına ərizə ilə müraciət edə bilər.

# NARKOTİK VASİTƏLƏRİN, PSİXOTROP MADDƏLƏRİN SAXLANILMASI, ALINMASI, SATILMASI, ƏLDƏ EDİLMƏSİ, BÖLÜŞDÜRÜLMƏSİ, BURAXILMASI, DAŞINMASI, GÖNDƏRİLMƏSİ, ONLARDAN İSTİFADƏ EDİLMƏSİ, HABELƏ NARKOTİK VASİTƏLƏRİN, PSİXOTROP MADDƏLƏRİN DÖVRİYYƏSİNƏ DAİR SƏNƏDLƏRİN TƏRTİB EDİLMƏSİ, SAXLANILMASI VƏ ONLARIN DÖVRİYYƏSİ İLƏ ƏLAQƏDAR QANUNVERİCİLİKLƏ NƏZƏRDƏ TUTULMUŞ DİGƏR ƏMƏLİYYATLARIN HƏYATA KEÇİRİLMƏSİ QAYDASI

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 13 may tarixli, 57 nömrəli qərarı ilə təsdiq edilmişdir.*

**1. Narkotik vasitələrin alınması, saxlanılması, satılması, əldə edilməsi, bölüşdürülməsi, buraxılması, göndərilməsi, daşınması və onlardan istifadə edilməsi**

1.1. Narkotik vasitələrə illik tələbat Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən müəyyən edilir. Narkotik vasitələr həmin tələbata uyğun olaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq sərəncamına əsasən Səhiyyə Nazirliyi tərəfindən istehsal müəssisələrindən alınır.

1.2. Narkotik vasitələr tibbi məqsədlər üçün müalicə-profilaktika müəssisələri, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən müəyyənləşdirilmiş dövlət aptekləri, öz tibb müəssisələri olan nazirlik və təşkilatlar arasında onların tələbatı nəzərə alınmaqla bölüşdürülür və təyinatı üzrə göndərilir.

1.3. Elmi tədqiqat institutları, təhsil müəssisələri (laboratoriyalar), digər dövlət təşkilatları qeyri-tibbi məqsədlər üçün narkotik vasitələri Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi vasitəsi ilə əldə edirlər.

1.4. Narkotik vasitələr ambulator xəstələrə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən müəyyənləşdirilmiş apteklərdən müalicə həkiminin yazdığı xüsusi resept əsasında buraxılır.



1.5. Müalicə - profilaktika müəssisələri, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən müəyyənləşdirilmiş apteklər tibbi məqsədlər üçün, elmi tədqiqat institutları, təhsil müəssisələri (laboratoriyalar) və digər təşkilatlar isə qeyri-tibbi məqsədlər üçün narkotik vasitələri Səhiyyə Nazirliyinin tabeliyində olan aptek anbarından müəssisə rəhbərinin imzası və möhürü ilə təsdiq edilmiş müvafiq sənədlər (vəkalətnamə və tələbnamələr) əsasında alırlar.

1.6. Tibb müəssisələrində və eləcə də ambulator şəraitində narkotik vasitələrdən qüvvətli ağrıkəsici və narkoz kimi istifadə edilir.

1.7. Narkotik vasitələrdən və psixotrop maddələrdən tibbi məqsədlər üçün istifadə edilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli, 165 nömrəli qərarı ilə təsdiq edilmiş «Narkotik vasitələrin və psixotrop maddələrin tibbi məqsədlərlə istifadə edilməsi qaydası və şərtləri, habelə narkoloji xəstələr barəsində tibbi tədbirlərin tətbiq edilməsi Qaydası» ilə tənzimlənir.

1.8. Yeni təşkil olunan və narkotik vasitələr saxlanılan aptek anbarlarının (bazalarının) rəhbərləri həmin anbarların (bazaların) iş fəaliyyətini təmin etməzdən əvvəl narkotik vasitələr saxlanılan otaqların mühafizəsini təmin etmək, onların üzərində nəzarəti gücləndirmək məqsədi ilə polis orqanlarına aşağıda göstərilən sənədləri təqdim etməlidirlər:

anbar müdiri tərəfindən yazılan ərizə;

Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən binanın narkotik vasitələr saxlanılmaq üçün yararlı olduğunu təsdiq edən arayış;

narkotik vasitələr saxlanılan otağa daxil olmağa icazəsi olan şəxslərin siyahısı;

aptek anbarının açılması barədə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin əmrinin surəti.

1.9. Narkotik vasitələrin zirzəmilərdə, çadırlarda, açıq səma altında, talvarlarda və tezalışan metallarla yanaşı saxlanılması qadağandır.

1.10. Aptek anbarları (bazaları), apteklər, müalicə-profilaktika müəssisələri, elmi tədqiqat institutları, təhsil müəssisələri

(laboratoriyalar) və digər təşkilatlar narkotik vasitələri xüsusi nəqliyyatla və yol sənədinə (qaiməyə) əsasən daşıya bilər.

1.11. Narkotik vasitələr minik maşınında daşınarkən, maşında sürücüdən başqa yükü müşayiət edən ən azı iki nəfər cavabdeh şəxs olmalıdır.

1.12. Aptek anbarlarında (bazalarında), apteklərdə, müalicə-profilaktika müəssisələrində, elmi tədqiqat institutlarında, təhsil müəssisələrində və digər təşkilatlarda narkotik vasitələrin oğurlanması və itməsi halları baş verdikdə, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə, yaxud rayon səhiyyə şöbəsinə və hüquq mühafizə orqanlarına dərhal məlumat verilir və bu Qaydanın 1 nömrəli əlavəsi ilə müəyyən edilmiş forma tərtib edilir.

1.13. Narkotik vasitələr Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə razılaşdırılmış müvafiq təlimatlarında nəzərdə tutulan tələblərə cavab verən otaqlarda saxlanılmalıdır.

1.14. Bu Qaydalar narkotik vasitələri alan bütün dövlət və qeyri-dövlət müəssisələrinə şamil edilir.

## 2. Narkotik vasitələrin dövriyyəsinə dair sənədlərin tərtib edilməsi, saxlanılması və onların dövriyyəsi ilə əlaqədar qanunvericiliklə nəzərdə tutulmuş digər əməliyyatların həyata keçirilməsi

2.1. Material otağından narkotik vasitələrin cari işlər üçün assistent otağına verilməsi yalnız aptekin müdiri və ya bu iş üçün təyin olunmuş maddi məsul şəxs tərəfindən həyata keçirilir.

2.2. Müalicə-profilaktika müəssisələrində və onların aptek şöbələrində narkotik vasitələrin ehtiyatı aylıq tələbatdan çox olmamalıdır. Narkotik vasitələrin ehtiyatı aptekin təchizat bazasına uzaqlığından asılı olaraq, yerli tibb müəssisələrinin tələbatına və ambulator onkoloji xəstələrin sayına uyğun verilir.

2.3. Aptek şöbəsinin assistentinin otağında narkotik vasitələrin ehtiyatı 5 (beş) günlük tələbatdan çox olmamalıdır.

2.4. Apteklərdə narkotik vasitələrin mədaxil və məxaricinə dair hesabat nömrələnmiş, qaytanlanmış və yuxarı təşkilat rəhbərinin imzası və möhürü ilə təsdiq olunmuş xüsusi kitabda (bu Qaydanın 2 nömrəli əlavəsi ilə müəyyən edilmiş forma) aparılmalıdır. Birinci



səhifədə narkotik vasitənin adı yazılır. Hər bir dərmanın forması, dozası, qablaşdırılma forması ayrıca qeyd edilir. Hər bir narkotik vasitənin miqdarı ayrıca yazılır. Aparılmış düzəlişlər maddi məsul şəxsin imzası ilə təsdiq edilir. Narkotik vasitələrin mədaxili ayrı-ayrılıqda mədaxil sənədlərinə əsasən nömrəsi və tarixi ilə göstərilir. Ambulator resept əsasında müalicə-profilaktika müəssisəsinə və aptek şöbəsinə buraxılmış narkotik vasitələrin məxarici xüsusi kitabda müvafiq qaydada hər iş gününün axırında qeyd edilir.

2.5. Hər ayın 1-də aptek şöbəsinin müdiri narkotik vasitələrin faktiki qalığı ilə kitabdakı qalığını yoxlayır. Aptekin (aptek şöbəsinin) əmtəə-material inventarizasiyası zamanı narkotik preparatların faktiki qalığı müəyyən olunur və bu haqda ayrıca inventarizasiya aktı tərtib edilir. Faktiki qalığın kitabdakı qalıqdan fərqləndiyi hallarda aptekin müdiri dərhal bu haqda yuxarı təşkilata yazılı məlumat verməlidir. Yuxarı təşkilat 3—5 gün ərzində lazım olan araşdırmanı aparmalıdır. İstifadə edilmiş narkotik vasitələrə aid resept nüsxələri aylar və illər üzrə tikilir, nömrələnir, möhürlənir və 5 (beş) il müddətində maddi məsul şəxsin seyfində saxlanılır, sonra müalicə müəssisəsinin narkotik preparatların işlədilməsinə nəzarət üzrə yaradılmış daimi komissiyası tərəfindən məhv edilir.

2.6. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin və ya rayon səhiyyə şöbələrinin, daxili işlər orqanlarının və sanitar nəzarəti nümayəndələrinin iştirakı ilə yararlılıq müddəti qurtarmış və xarab olmuş narkotik vasitələr mövcud qayda üzrə ildə bir dəfə silinib məhv edilir.

2.7. Öz apteki olmayan müalicə-profilaktika müəssisələri narkotik vasitələri ancaq sənaye üsulu ilə və ya aptekdə hazırlanmış hazır dərman formasında almalıdır. Müalicə-profilaktika müəssisələrinin aptekdən aldığı, tərkibində narkotik maddə olan dərmanların siqnaturasında və etiketində «Daxilə», «Xaricə», «İnyeksiya üçün», «Göz damcısı» və s. sözləri yazılmalı, həmçinin dərmanı hazırlayan aptekin nömrəsi, şöbənin (kabinetin) adı, tələbnamədə göstərilənlərə müvafiq dərmanın tərkibi, hazırlanma tarixi, analiz nömrəsi, yararlılıq müddəti, dərmanı hazırlayan, yoxlayan və aptekdən buraxan şəxsin imzası dəqiq və aydın göstərilməlidir.

Dərman bağlamasının üstündə 2.7-ci bənddə göstərilən qeydlər olmadıqda, həmin dərmanın müalicə-profilaktika müəssisəsində saxlanılmasına və işlədilməsinə icazə verilmir. Dərmanı şöbənin (kabinetin) qabına çəkib tökmək, qabını doldurmaq və bükmək, həmçinin etiketini dəyişdirmək qəti qadağandır.

Apteklərdə narkotik vasitələr bağlı və plomblanmış seyfdə saxlanılır.

Seyfin qapısının içəri tərəfində birdəfəlik və sutkalıq dozalar göstərilməklə narkotik dərman maddələrinin siyahısı olmalıdır.

2.8. İnyeksiya üçün, daxilə və xaricə işlənən narkotik vasitələr xüsusi rəfdə ayrıca saxlanılmalıdır.

2.9. Müəssisə rəhbərinin əmrinə əsasən şöbələrdə (kabinetlərdə) narkotik vasitələrin ehtiyatı 3 günlük tələbatdan çox olmamalıdır.

Müalicə-profilaktika müəssisəsinin aptek şöbəsində və apteklərdə isə həmin ehtiyat aylıq tələbatdan çox olmamalıdır.

2.10. Axşam və gecə vaxtı zəruri və təxirəsalınmaz tibbi yardım göstərmək məqsədi ilə stasionarların qəbul şöbələrində narkotik vasitələrin 5 günlük ehtiyatını yaratmağa icazə verilir. Göstərilən ehtiyat məsul növbətçi həkimin icazəsi ilə stasionarın bütün şöbələrində işlədilə bilər.

Müalicə-profilaktika müəssisələrində işlənmiş narkotik vasitələrin boş ampulalarının məhv edilməsinin qeydiyyatı bu Qaydanın 3 nömrəli əlavəsi ilə müəyyən edilmiş formaya uyğun aparılmalıdır.

2.11. Narkotik vasitələrin saxlanılmasına və xəstələrə verilməsinə görə məsuliyyət baş həkimin (onun müavininin), həmçinin müəssisə üzrə əmrlə təsdiq edilmiş maddi məsul şəxslərin üzərinə düşür.

2.12. Narkotik vasitələrin inyeksiya formasında işlədilməsi bu preparatlara maddi məsul tibb bacısının iştirakı ilə aparılmalıdır.

2.13. Müalicə-profilaktika müəssisəsində narkotik vasitələr saxlanılan yerdə, növbətçi həkim və tibb bacısının sahəsində narkotik vasitələrin ən yüksək birdəfəlik və sutkalıq dozalarına aid, həmçinin zəhərlənmələr zamanı görülməli tədbirlərin cədvəli olmalıdır.

2.14. Müalicə-profilaktika müəssisələrinin şöbə və kabinetlərində bütün narkotik vasitələrin qeydiyyatı nömrələnmiş, qaytanlanmış və baş həkimin imzası ilə təsdiq olunmuş xüsusi kitabda bu Qaydanın 4 nömrəli əlavəsi ilə müəyyən edilmiş formaya uyğun aparılmalıdır.



2.15. Narkotik vasitələr üçün xüsusi resept nüsxələrinin qeydiyyatı nömrələnmiş, tikilmiş, surğuclanmış və rəhbərlik tərəfindən təsdiq olunmuş jurnalda (6 nömrəli əlavə) aparılır.

Müalicə-profilaktika müəssisəsinə narkotik vasitələr üçün daxil olan xüsusi resept nüsxələri (bu Qaydanın 5 nömrəli əlavəsi ilə müəyyən edilmiş forma) baş həkimin təyin etdiyi komissiya tərəfindən qəbul olunur və akta müvafiq olaraq qeydiyyat jurnalında (bu Qaydanın 6 nömrəli əlavəsi ilə müəyyən olunmuş forma) qeyd edilir. Müalicə müəssisəsinin rəhbərliyinin əmri ilə narkotik vasitələrə aid xüsusi resept alınması, saxlanılması, qeydiyyatı və buraxılması üzrə maddi məsul şəxs təyin edilir.

2.16. Müalicə həkimləri tərəfindən narkotik vasitələrin təyininin məqsədəuyğunluğunu, narkotik vasitələrin və xüsusi resept nüsxələrinin saxlanılması, qeydiyyatı və işlədilməsinin vəziyyətini yoxlamaq məqsədi ilə hər bir müalicə-profilaktika müəssisəsində müəssisə rəhbərinin əmrinə əsasən daimi komissiya təşkil olunur. Komissiya ayda 1 dəfədən az olmayaraq müvafiq yoxlama aparır. Narkotik vasitələr reseptlərdə yazılarkən onların miqdarının yazı ilə göstərilməsi vacibdir.

2.17. Müalicə-profilaktika müəssisəsində xüsusi resept nüsxələrinin ehtiyatı aylıq tələbatdan çox olmamalıdır. Artıq nüsxələr başqa müalicə-profilaktika müəssisələrində işlədilmək üçün yerli səhiyyə orqanına təhvil verilməlidir.

Zəruri hallarda baş həkimin müalicə işləri üzrə müavininin icazəsi ilə konkret xəstə üçün müalicə həkiminə xüsusi resept nüsxəsi (nüsxələri) verilməsinə icazə verilir.

2.18. Narkotik vasitələr üçün xüsusi resept nüsxələrinin ehtiyatı yalnız seyfdə saxlanılmalıdır. Seyfin açarı müəssisənin rəhbərində və yaxud müəssisə üzrə əmrlə bu iş həvalə olunmuş məsul şəxsdə olmalıdır.

Narkotik vasitələrin və narkotik vasitələr üçün xüsusi resept nüsxələrinin səmərəli işlədilməsi, saxlanılması, qeydiyyatı və mühafizəsi üçün bütün məsuliyyəti müalicə-profilaktika müəssisəsinin rəhbəri daşıyır.

**3. Xəstələr tərəfindən istifadə olunmamış narkotik vasitələrin və xüsusi reseptlərin silinməsi və məhv edilməsi**

3.1. Yararlılıq müddəti qurtarmış, həmçinin sınmış, yaxud xarab olmuş narkotik vasitələr müalicə-profilaktika müəssisəsinin nəzdində yaradılmış komissiyanın, polis orqanları və sanitar xidməti nümayəndələrinin iştirakı ilə müvafiq akt yazılaraq məhv edilir.

3.2. İstifadə olunmamış xüsusi reseptlərin və tərkibində narkotik maddə olan preparatların vəfat etmiş xəstənin qohumlarından geri alınması və ölüm haqqında şəhadətnamənin tərtib olunması müalicə müəssisəsi üzrə əmrlə məsul işçiyə həvalə olunur. Həmin işçi ambulator vərəqəsində qeyd olunmuş növbəti reseptin alındığı andan xəstəlik tarixi üzrə işlədilmiş dərmanın miqdarını yoxlamalıdır. İstifadə olunmamış narkotik vasitələrin və onlara aid reseptlərin hesabatı nömrələnmiş, qaytanlanmış, müəssisə rəhbərinin imzası və dairəvi möhürü ilə təsdiq olunmuş xüsusi jurnalda aparılır (bu Qaydanın 7 nömrəli əlavəsi ilə müəyyən edilmiş forma). Təhvil verilmiş resept və dərmanlar bu Qaydanın 3.3-cü bəndində nəzərdə tutulmuş qaydada məhv olunana kimi seyfdə saxlanılmalıdır.

3.3. Hər ayın 30-dan gec olmayaraq, güclü təsirə malik narkotik preparatların yararsız yığılmış toz, həb və boş ampulaları müalicə müəssisəsinin narkotik preparatların işlədilməsinə nəzarət üzrə daimi komissiyasının iştirakı ilə yandırılmaqla, ampulalar isə yalnız əzilməklə məhv edilməlidir. Məhv edilmiş dərmanların miqdarı jurnalda qeyd edilir. Məhvedilmə haqqında bu Qaydanın 3 nömrəli əlavəsi ilə müəyyən edilmiş forma üzrə akt tərtib olunur. Akt müalicə idarəsinin baş həkimi tərəfindən təsdiq edilir.

3.4. Xəstə tərəfindən istifadə edilməmiş (xəstə öldükdə və ya dərman əks təsir göstərdikdə) narkotik dərman preparatı akt əsasında komissiyanın iştirakı ilə alındığı aptek şöbəsinə qaytarılır.

**4. Aptek anbarlarında (bazalarında) narkotik vasitələrin və narkotik vasitələr üçün xüsusi resept nüsxələrinin saxlanılması, qeydiyyatı və buraxılması**

4.1. Narkotik vasitələr dərman formasından asılı olmayaraq, icazəsi olan aptek anbarlarında saxlanılır. Narkotik vasitələr



saxlanılan yer qüvvədə olan xüsusi texniki tələblərə cavab verməlidir (apteklərdə olduğu kimi).

4.2. Narkotik vasitələr saxlanılan otaq iş günü qurtardıqdan sonra bağlanmalı, möhürlənməli və yaxud plomblanmalıdır, açar, möhür və ya plomb isə narkotik vasitələrin saxlanılmasına məsul olan maddi məsul şəxsdə qalmalıdır.

4.3. Narkotik vasitələrin və ciddi hesabat blankı olan xüsusi resept nüsxələrinin saxlanılması və mühafizəsi aptek anbarının müdirinə həvalə olunur.

4.4. Narkotik vasitələr və ciddi hesabat blankı olan xüsusi resept nüsxələri saxlanılan otağa girməyə anbar müdirinin əmrinə əsasən yalnız onlarla işləyən şəxslərə icazə verilir.

4.5. Narkotik vasitələr alındıqda, anbar müdiri və ya onun müavini alınan miqdarın qoşma sənədə uyğun olmasını şəxsən yoxlamalıdır.

4.6. Narkotik vasitələr anbardan yalnız möhürlənmiş vəziyyətdə buraxılır və bu zaman hər bağlamanın üzərinə göndərən müəssisənin adı, narkotik vasitənin adı və analiz nömrəsi qeyd olunmuş etiket yapışdırılır.

4.7. Narkotik vasitələrin buraxılması müəssisə rəhbərinin və ya onun müavininin imza etdiyi və müəssisənin möhürü vurulmuş tələbnamə və vəkalətnamə əsasında həyata keçirilir.

Narkotik vasitələrə aid bütün tələbnamə və hesabatlar digər məhsullara aid tələbnamə və hesabatlardan ayrı saxlanılır.

Narkotik vasitələrin verilməsi müəyyən olunmuş qaydada, alınan maddənin adı və yazı ilə miqdarı göstərilmiş ayrıca vəkalətnamə əsasında həyata keçirilir. Vəkalətnamə 15 gün müddətində etibarlıdır.

4.8. Narkotik vasitələr buraxılmazdan əvvəl maddi məsul şəxs narkotik preparatların buraxılması üçün əsas olan sənədləri, buraxılan narkotik vasitələrin qoşma sənədlə uyğunluğunu, qablaşdırmanın düzgünlüyünü şəxsən yoxlamalı və hesab-fakturanın anbarda qalan surətinə imza etməlidir.

4.9. Aptek anbarlarında nömrələnmiş və qaytanlanmış, surğuclanmış, möhür və yuxarı təşkilat rəhbərinin imzası ilə təsdiq olunmuş kitabda (bu Qaydanın 8 nömrəli əlavəsi ilə müəyyən

edilmiş forma) dərman formasından asılı olmayaraq narkotik vasitələrin mədaxil və məxaricinin hesabatı aparılır.

4.10. Tibbi praktikada tətbiq olunmasına icazə verilməmiş narkotik vasitələrin aptek anbarlarında saxlanılması qadağandır.

**5. Nəzarət-analitik laboratoriyasında narkotik vasitələrin saxlanılması və qeydiyyatı**

5.1. Nəzarət-analitik laboratoriyasında istifadə edilən narkotik vasitələr bağlı və surğuclanmış seyfdə saxlanılmalıdır.

5.2. Narkotik vasitələrin saxlanılmasına laboratoriyanın müdiri, onun müavini və ya əmr əsasında bu vasitələrin saxlanılması həvalə olunmuş maddi məsul şəxs məsuliyyət daşıyır. Narkotik vasitələr saxlanılan seyfin açarı məsul şəxslərdə olmalıdır.

5.3. Analiz üçün provizor-analitikə verilmiş narkotik vasitələr və ya tərkibində narkotik vasitələr olan dərmanlar kimyaçı-analitikin xüsusi nəzarətində qapalı yerdə saxlanılır.

5.4. Müvafiq laboratoriyaya analiz üçün gətirilmiş narkotik vasitələrin mədaxilinin hesabatı nömrələnmiş, tikilmiş və müəssisənin rəhbəri tərəfindən möhür və imza ilə təsdiq edilmiş xüsusi kitabda (bu Qaydanın 9 nömrəli əlavəsi ilə müəyyən edilmiş forma) aparılır. Narkotik vasitələrə aid sənədlər 5 (beş) il müddətində aidiyyəti laboratoriyanın müdirinin şəxsi nəzarətində saxlanılır və sonra müalicə müəssisəsinin narkotik preparatların işlədilməsinə nəzarət üzrə daimi komissiyası tərəfindən məhv edilir.

**6. Səhiyyə sisteminin elmi tədqiqat institutlarında və tədris müəssisələrində (laboratoriyalarında) narkotik vasitələrin saxlanılması və qeydiyyatı**

6.1. Elmi tədqiqat institutlarında və tədris müəssisələrində (laboratoriyalarında) narkotik vasitələr ayrıca otaqda, bağlı və möhürlənmiş seyfdə saxlanılmalıdır.

6.2. Narkotik vasitələr saxlanılan otaqların qapısı dəmirlə üzlənməli, pəncərəsi dəmir çərçivəyə alınmalıdır.

6.3. Narkotik vasitələr saxlanılan otağın və seyfin açarları, həmçinin möhür və plomb bu vasitələrin saxlanması həvalə olunmuş maddi məsul şəxsin nəzarətində olmalıdır.



6.4. Narkotik vasitələrin və onların sənədlərinin düzgün saxlanılması və təşkil olunmasının məsuliyyəti müəssisə rəhbərinin və ya onun müavininin üzərinə düşür.

6.5. Tədris müəssisələrində tələbələrə praktiki məşğələlər üçün verilmiş narkotik vasitələrdən düzgün istifadə olunmasının məsuliyyəti tələbələrlə praktiki məşğələ keçən müəllimin üzərinə düşür və bu Qayda ilə müəyyən edilmiş məsuliyyət həmin müəllimlərə də şamil edilir.

Tədris məşğələləri qurtardıqdan sonra narkotik vasitələrin auditoriyalarda saxlanılmasına icazə verilmir.

6.6. Narkotik vasitələrin qəbulu zamanı müəssisənin rəhbəri və ya onun müavini narkotik vasitələrin qoşma sənədə uyğun olmasını şəxsən yoxlamağa borcludur.

6.7. Narkotik vasitələrin ehtiyatı saxlanılan otağa girməyə yalnız müəssisə rəhbərinin əmri ilə müəyyən olunan və bilavasitə onlarla işləyən şəxslərə icazə verilir.

6.8. Narkotik vasitələrin cari işlər üçün buraxılması yalnız müəssisənin rəhbərinin və ya onun müavininin yazılı icazəsi ilə bu maddəni alanın soyadı və vəzifəsi göstərilən və laboratoriya müdirinin imza etdiyi tələbnamə əsasında həyata keçirilir.

6.9. Narkotik vasitələr buraxılmazdan əvvəl onların saxlanılmasına maddi məsul şəxs narkotik vasitələrin buraxılması üçün əsas və qoşma sənədlərin düzgün tərtib olunmasını və qablaşdırmanın keyfiyyətini şəxsən yoxladıqdan sonra tələbnamənin surətinə imza etməlidir.

6.10. Narkotik vasitələrin mədaxil və məxaricinin qeydiyyatı nömrələnmiş, qaytanlanmış və yuxarı təşkilatın rəhbərinin möhürü və imzası ilə təsdiq olunmuş kitabda (bu Qaydanın 10 nömrəli əlavəsi ilə müəyyən edilmiş forma) aparılır.

**7. Psixotrop maddələrin saxlanılması, alınması, satılması, əldə edilməsi, bölüşdürülməsi, buraxılması, daşınması, göndərilməsi, onlardan istifadə edilməsi**

7.1. Psixotrop maddələrin idxalı, ixracı və dövriyyəsi əczaçılıq fəaliyyəti ilə məşğul olan dövlət və lisenziyalaşdırılmış qeyri-dövlət təşkilatları tərəfindən həyata keçirilir.

7.2. Müalicə-profilaktika və aptek müəssisələri dövriyyəsi

məhdudlaşdırılmış və nəzarət edilən psixotrop maddələri Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin lisenziyası əsasında əczaçılıq fəaliyyəti ilə məşğul olan hüquqi şəxslərdən (Mərkəzi aptek bazası, rayonlararası aptek anbarı, dərman vasitələrinin və tibb ləvazimatlarının topdansatış müəssisələri) almalıdır.

7.3. Dövriyyəsi məhdudlaşdırılmış və nəzarət edilən psixotrop dərman maddələri başqa dərman maddələrindən ayrılıqda və mütəmadi nəzarətdə saxlanılmalıdır.

7.4. Dövriyyəsi məhdudlaşdırılmış və nəzarət edilən psixotrop dərman maddələri tələbnamələr, qaimələr və həkimin yazdığı resept nüsxələri əsasında buraxılmalıdır və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilmiş xüsusi kitablarda idxal və ixracı ilə əlaqədar aylıq hesabatı aparılmalıdır.

**8. Psixotrop maddələrin dövriyyəsinə dair sənədlərin tərtib edilməsi, saxlanılması və onların dövriyyəsi ilə əlaqədar qanunvericiliklə nəzərdə tutulmuş digər əməliyyatların həyata keçirilməsi**

8.1. Psixotrop dərman preparatları üçün resept nüsxələri Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin təsdiq etdiyi formada, bütün bölmələri aydın xətlə doldurmaqla latın və ya Azərbaycan dilində yazılmalıdır.

8.2. Psixotrop dərman preparatlarına aid yazılmış reseptlər 15 gün müddətinə etibarlıdır.

8.3. Miqdarı barədə hesabatı aparılan psixotrop dərman preparatları üçün müalicə-profilaktika müəssisəsinin ştampı, möhürü və müalicə edən həkimin möhürü və imzası ilə təsdiq edilmiş resept nüsxəsi yazılmalıdır.

8.4. Bir resept nüsxəsinə yalnız 1 psixotrop dərman preparatı yazılmalıdır.

8.5. Fərdi tibb fəaliyyəti ilə məşğul olan psixiatrlara psixotrop dərman preparatlarına aid güzəştli reseptlər yazmaq qadağandır.

8.6. Bir terapevtik dozadan artıq psixotrop dərman preparatı təyin edilərsə, həmin miqdar yazılmalı və sonunda nida işarəsi qoyulmalıdır.

8.7. Xroniki xəstələrə psixotrop dərman preparatları üçün resept



nüsxəsi 1 ay müddətinə yazıla bilər. Bu halda reseptdə «xüsusi göstəriş» sözləri yazılmalı, həkimin imzası ilə və müalicə müəssisəsinin möhürü ilə təsdiq edilməlidir.

8.8. Miqdarı barədə hesabatı aparılan psixotrop dərman preparatları yazılan resept nüsxələri, qaimə və tələbnamələr dərman buraxan müəssisələrdə 1 il müddətində saxlanılmalı və sonra müvafiq qaydada akt tərtib olunaraq məhv edilməlidir.

*«Narkotik vasitələrin, psixotrop maddələrin saxlanılması, alınması, satılması, əldə edilməsi, bölüşdürülməsi, buraxılması, daşınması, göndərilməsi, onlardan istifadə edilməsi, habelə narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsinə dair sənədlərin tərtib edilməsi, saxlanılması və onların dövriyyəsi ilə əlaqədar qanunvericiliklə nəzərdə tutulmuş digər əməliyyatların həyata keçirilməsi Qaydası»na*
*1 nömrəli əlavə*

## Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə narkotik vasitələrin oğurlanması və itməsi haqqında təqdim olunan növbədənkənar məlumat forması

| Sıra №-si | Nə haqqında məlumat verilir | Məlumatın məzmunu | Məlumatı kim təqdim edir | Təqdim etmə qaydası |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| 1. | Aptek və müalicə-profilaktika müəssisələrindən narkotik vasitələrin oğurlanması və itməsi haqqında | Müəssisənin adı və ünvanı, kateqoriyası, narkotik vasitələrin mühafizəsini təmin edən xüsusi vasitələr (mühafizə siqnalizasiyası, (siqnalizasiya sistemini göstərməli), müəssisədənkənar mühafizə,gözətçi mühafizəsi, mühafizə yoxdur) barədə. Binanın xarakteristikası (nümunəvi layihə üzrə tikilmişdir, uyğunlaşdırılmış binadır, daşdan, kərpicdən, taxtadandır). Narkotik vasitələrin saxlanma üsulları (xüsusi təchiz olunmuş yerdə, material və yaassistent otağında, seyfdə, metal şkafda). Otağın pəncərələrində metal şəbəkənin olması barədə (var, yoxdur). Oğurluğun başvermə tarixi, oğruların otağa girmə üsulu. Oğurlanmış narkotik vasitələrin adı və miqdarı. Oğurluq haqqında daxili işlər orqanına məlumatın verilmə tarixi | Ərazi səhiyyə orqanının rəhbəri, ərazi aptek idarəsinin rəhbəri | Təxirəsalınmaz məlumat Səhiyyə Nazirliyinin Baş İdarəsinə və yerli hüquq mühafizə orqanlarına göndərilir |



*«Narkotik vasitələrin, psixotrop maddələrin saxlanılması, alınması, satılması, əldə edilməsi, bölüşdürülməsi, buraxılması, daşınması, göndərilməsi, onlardan istifadə edilməsi, habelə narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsinə dair sənədlərin tərtib edilməsi, saxlanılması və onların dövriyyəsi ilə əlaqədar qanunvericiliklə nəzərdə tutulmuş digər əməliyyatların həyata keçirilməsi Qaydası»na*
*2 nömrəli əlavə*

## Apteklərdə narkotik vasitələrin mədaxili və məxaricinə dair hesabat forması

| Ay | Hər ayın 1-nə qalıq | Mədaxil | | | Məxar icin növü | Məxaric | | | | | | | | | | | | | Ayrı-ayrı şöbələr üzrə aylıq hesabat | Ay ərzində bütün məxaric növlərinin cəmi | Kitab qalığı | Həqiqi qalıq | Maddi məsul şəxsin imzası |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Haradan alınmışdır, sənədin №-si | miqdar | Qalıqla birlikdə mədaxilin cəmi | | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 və s. | | | | | |
| | | | | | | | | | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | | | | | | | | | |

*«Narkotik vasitələrin, psixotrop maddələrin saxlanılması, alınması, satılması, əldə edilməsi, bölüşdürülməsi, buraxılması, daşınması, göndərilməsi, onlardan istifadə edilməsi, habelə narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsinə dair sənədlərin tərtib edilməsi, saxlanılması və onların dövriyyəsi ilə əlaqədar qanunvericiliklə nəzərdə tutulmuş digər əməliyyatların həyata keçirilməsi Qaydası»na*
*3 nömrəli əlavə*

«Təsdiq edirəm»

Baş həkim ____________________

«___» _______________ 200___-cü il

**Müalicə-profilaktika müəssisələrində işlənmiş narkotik vasitələrdən yığılmış toz, həb qalıqlarının, habelə boş ampulaların məhv edilməsi**

**Aktı**

Aşağıdakı şəxslərin (üç nəfərdən az olmayaraq komissiya üzvlərinin soyadı, adı, atasının adı, vəzifəsi)

1. ____________________ 2. ____________________

3. ____________________ 4. ____________________

5. __________________ iştirakı ilə ______________

«___» ________ 200__-cü il tarixdə ______ tarixdən ______

tarixə kimi dövrdə ________ (sayı) xəstəyə (soyadı, adı, atasının adı və xəstəlik tarixlərinin nömrəsi göstərilməklə)
________ işlənmiş narkotik preparatların ______ (sözlə yazılmalı) miqdarda qalığı, ________ (sözlə yazılmalı) ədəd boş ampulası məhv edildi.
Sədr:
(imza) ____________________
Komissiya üzvləri:
(imza) ____________________

**Qeyd:** Akt beş il müddətində saxlanılır.



*«Narkotik vasitələrin, psixotrop maddələrin saxlanılması, alınması, satılması, əldə edilməsi, bölüşdürülməsi, buraxılması, daşınması, göndərilməsi, onlardan istifadə edilməsi, habelə narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsinə dair sənədlərin tərtib edilməsi, saxlanılması və onların dövriyyəsi ilə əlaqədar qanunvericiliklə nəzərdə tutulmuş digər əməliyyatların həyata keçirilməsi Qaydası»na 4 nömrəli əlavə*

______________________________________
*(idarənin adı)*

**Şöbə və kabinetlərdə narkotik vasitələrin qeydiyyatı**

**Kitabı**

Preparatın adı ______________________________

Forması ______________________________

| Mədaxil | | | | | Mədaxil | | | |
|---|---|---|---|---|---|---|---|---|
| alınma tarixi | haradan alınmışdır və sənədin №-si | miqdarı | alanın soyadı, adı, atasının adı, imzası | verilmə tarixi | xəstəlik tarixinin №-si, xəstənin soyadı, adı, atasının adı | miqdarı | qalıq | saxlanılma və verilmə üçün məsul şəxsin imzası |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| | | | | | | | | |

*«Narkotik vasitələrin, psixotrop maddələrin saxlanılması, alınması, satılması, əldə edilməsi, bölüşdürülməsi, buraxılması, daşınması, göndərilməsi, onlardan istifadə edilməsi, habelə narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsinə dair sənədlərin tərtib edilməsi, saxlanılması və onların dövriyyəsi ilə əlaqədar qanunvericiliklə nəzərdə tutulmuş digər əməliyyatların həyata keçirilməsi Qaydası»na 5 nömrəli əlavə*

**Narkotik vasitələrin xüsusi resept nüsxəsinin Forması**

Tərkibində narkotik maddə olan dərmanı almaq hüququ verən resept

Ad № 000000

(Müalicə-profilaktika müəssisəsinin ştampı)

______________ 200__-cü il

Xüsusi qeydiyyat sənədi Resept aptekdə qalır

Rp: ______________________

______________________

______________________

______________________

Qəbul qaydası ______________

______________________

Vətəndaş ______________



Xəstəlik tarixi №-si __________

Həkim ______________________________

(adı, atasının adı, soyadı aydın yazılmalıdır)

M.Y.

Mürəkkəblə doldurulur

Düzəlişə icazə verilmir

Qeyd. Blank xüsusi nişanları olan çəhrayı rəngli kağızdan hazırlanır.

*«Narkotik vasitələrin, psixotrop maddələrin saxlanılması, alınması, satılması, əldə edilməsi, bölüşdürülməsi, buraxılması, daşınması, göndərilməsi, onlardan istifadə edilməsi, habelə narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsinə dair sənədlərin tərtib edilməsi, saxlanılması və onların dövriyyəsi ilə əlaqədar qanunvericiliklə nəzərdə tutulmuş digər əməliyyatların həyata keçirilməsi Qaydası»na 6 nömrəli əlavə*

______________________________

*(idarənin adı)*

**Narkotik vasitələr üçün xüsusi resept nüsxələrinin qeydiyyatı Jurnalı**

| Mədaxil | | | | | | Mədaxil | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| sıra №-si | sənədin daxil olma tarixi | haradan alınmışdır və sənədin №-si | nüsxənin ümumi sayı | seriya №-si | sayı | verilmə tarixi | seriya №-si | miqdarı | kimə verilmişdir, həkimin soyadı | alanın imzası | nüsxəni verənin adı, soyadı, atasının adı | qeyd |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 |
| | | | | | | | | | | | | |

*«Narkotik vasitələrin, psixotrop maddələrin saxlanılması, alınması, satılması, əldə edilməsi, bölüşdürülməsi, buraxılması, daşınması, göndərilməsi, onlardan istifadə edilməsi, habelə narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsinə dair sənədlərin tərtib edilməsi, saxlanılması və onların dövriyyəsi ilə əlaqədar qanunvericiliklə nəzərdə tutulmuş digər əməliyyatların həyata keçirilməsi Qaydası»na 7 nömrəli əlavə*

## İstifadə olunmamış narkotik vasitələrin və onlara aid reseptlərin hesabatı Jurnalı

| Mədaxil | | | | | Mədaxil | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| sıra №-si | qəbul olunma tarixi | xəstənin soyadı, adı, atasının adı, ünvanı | reseptlərin ümumi sayı | o cümlədən nömrələri | təhvil verilən narkotik preparatın adı | ampul, toz və həbin miqdarı | təhvil verənin soyadı və imzası | qəbul edənin soyadı və imzası | məhv edilmə miqdarı və üsulu haqqında qeydiyyat |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| | | | | | | | | | |
| | | | | | | | | | |

*«Narkotik vasitələrin, psixotrop maddələrin saxlanılması, alınması, satılması, əldə edilməsi, bölüşdürülməsi, buraxılması, daşınması, göndərilməsi, onlardan istifadə edilməsi, habelə narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsinə dair sənədlərin tərtib edilməsi, saxlanılması və onların dövriyyəsi ilə əlaqədar qanunvericiliklə nəzərdə tutulmuş digər əməliyyatların həyata keçirilməsi Qaydası»na 8 nömrəli əlavə*

__________________________________

*(idarənin adı)*

## Aptek anbarlarında narkotik vasitələrin mədaxil və məxaricinin hesabat

## Kitabı



Preparatın adı __________________________

Forması _______________________________

| Mədaxil | | | | | | Məxaric | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| ay | ayın əvvəlinə qalıq | kimdən alınmışdır | sənədin №-si və tarixi | miqdarı | ay ərzində qalıqla mədaxilin cəmi | kimə buraxılmışdır | sənədin №-si və tarixi | miqdarı | ay ərzində cəmi məxaric | qalıq | maddi məsul şəxsin imzası |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |
| | | | | | | | | | | | |

*«Narkotik vasitələrin, psixotrop maddələrin saxlanılması, alınması, satılması, əldə edilməsi, bölüşdürülməsi, buraxılması, daşınması, göndərilməsi, onlardan istifadə edilməsi, habelə narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsinə dair sənədlərin tərtib edilməsi, saxlanılması və onların dövriyyəsi ilə əlaqədar qanunvericiliklə nəzərdə tutulmuş digər əməliyyatların həyata keçirilməsi Qaydası»na 9 nömrəli əlavə*

__________________________________

*(idarənin adı)*

## Analiz üçün daxil olmuş narkotik vasitələrin mədaxilinin hesabat kitabı

| Mədaxil | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| sıra №-si | daxil olan vaxt | əczaçılıq təşkilatının adı və sənədin №-si | seriya №-si və prob | miqdarı | tarix | ilkin miqdarı | analizin keçirüdiyi tarix | istifadə olunandan sonra qalığın miqdarı | analizdən qalan qalıq | anbara təhvil verilməsi və məhv edilməsi haqqında qeyd | laboratoriya müdirinin imzası | analiz aparanın adı, soyadı, atasının adı |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 |
| | | | | | | | | | | | | |

*«Narkotik vasitələrin, psixotrop maddələrin saxlanılması, alınması, satılması, əldə edilməsi, bölüşdürülməsi, buraxılması, daşınması, göndərilməsi, onlardan istifadə edilməsi, habelə narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsinə dair sənədlərin tərtib edilməsi, saxlanılması və onların dövriyyəsi ilə əlaqədar qanunvericiliklə nəzərdə tutulmuş digər əməliyyatların həyata keçirilməsi Qaydası»na 10 nömrəli əlavə*

______________________________________
*(idarənin adı)*

**Səhiyyə sisteminin elmi tədqiqat institutlarında və tədris müəssisələrində (laboratoriyalarında)narkotik vasitələrin mədaxil və məxaricinin hesabat**

**Kitabı**

Narkotik vasitələrin adı ______________________

Forması ______________________

Məxaric

| Mədaxil | | | | Məxaric | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | İmzalar | | qalıq |
| alınma tarixi | haradan alınmışdır və sənədin nömrəsi | miqdarı | maddi məsul şəxsin imzası | verilmə tarixi | kimə verilmişdir (nəyə sərf olunmuşdur) | miqdarı | verildi | alındı | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| | | | | | | | | | |



# NARKOTİK VASİTƏLƏRİN, PSİXOTROP MADDƏLƏRİN DÖVRİYYƏSİNƏ VƏ ONLARIN PREKURSORLARININ İDXALINA, İXRACINA, TRANZİT NƏQL EDİLMƏSİNƏ VƏ İSTEHSALINA, HABELƏ NARKOTİK VASİTƏLƏRİN VƏ PSİXOTROPMADDƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNDƏ İŞTİRAK EDƏN, O CÜMLƏDƏN NARKOMANLIQ XƏSTƏLİYİNƏ DÜÇAR OLAN ŞƏXSLƏRƏ DAİR ÜMUMMİLLİ MƏLUMAT BANKINA MƏLUMATLARIN GÖNDƏRİLMƏSİ VƏ ORADAN MƏLUMATLARIN ALINMASI

## QAYDASI

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 6 oktyabr tarixli, 181 nömrəli qərarı ilə təsdiq edilmişdir.*

1. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyində təşkil edilmiş ümummilli məlumat bankına narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsinə və onların prekursorlarının idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına, habelə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirak edən, o cümlədən narkomanlıq xəstəliyinə düçar olan şəxslərə dair məlumatlar daxil edilir.

2. Ümummilli məlumat bankı aşağıdakı üç bölmədən ibarətdir:

2.1. narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsinə və onların prekursorlarının idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına dair, habelə belə dövriyyədə iştirak edən şəxslərə dair məlumat bölməsi;

2.2. narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinə və onların prekursorlarının qanunsuz idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına dair, habelə belə dövriyyədə iştirak edən şəxslərə dair məlumat bölməsi;

2.3. narkomanlıq xəstəliyinə düçar olan və narkotik vasitələrdən

və psixotrop maddələrdən sui-istifadə edən şəxslərə dair məlumat bölməsi.

Narkomanlıq xəstəliyinə düçar olan şəxslərin qeydiyyatını aparan narkoloji-tibb müəssisəsi, həmin şəxslər, habelə narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən digər şəxslər barəsində yalnız kəmiyyət göstəricilərini əks etdirən məlumatları ümummilli məlumat bankına daxil edilməsi üçün Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə göndərir.

3. Ümummilli məlumat bankına məlumatlar aşağıdakı qaydada göndərilir:

3.1. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin müvafiq idarə və şöbələri:

tibbi məqsədlə istifadə etmək üçün idxal, ixrac, tranzit nəql olunan və istehsal edilən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının siyahısı və miqdarı barədə məlumatı;

narkotik vasitələri, psixotrop maddələri və onların prekursorlarını istifadə edən ixtisaslaşdırılmış dövlət və qeyri-dövlət tibb müəssisələrindən aldıqları məlumatları;

məhkəmə-narkoloji ekspert komissiyalarının keçirdikləri ekspertizalar əsasında əldə edilən məlumatları;

narkoloji tibb müəssisələrində ümumi əsaslarla müalicə olunan şəxslər haqqında məlumatları;

narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsində, onların prekursorlarının idxalında, ixracında, tranzit nəql edilməsində və istehsalında iştirak edən şəxslərə verilmiş hər bir lisenziya (xüsusi razılıq) barədə bildirişi (bildirişdə hüquqi və fiziki şəxsin tam adı, fəaliyyət növü, ünvanı, onlar barədə məlumatlar, lisenziyanın müddəti, istifadə olunan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının adı (azərbaycanca və latınca), saxlanma yeri, istifadə üçün yararlılıq müddəti və Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş digər məlumatlar göstərilməlidir) ümummilli məlumat bankına göndərir.

3.2. Narkoloji tibb müəssisələri hər bir narkomanın müalicəsi barədə, narkomanlıq xəstəliyinə düçar olan şəxslər barəsində



detoksifikasiyanın aparıldığı hər bir hal barədə məlumatları, aparılan tibbi müayinə nəticəsində şəxsin narkotik vasitələri və psixotrop maddələri istehlak etməsi müəyyən edildikdə bu barədə məlumatı və könüllü olaraq anonim müalicə kursu keçmək üçün müraciət etmiş narkoman şəxslər haqqında məlumatı ümummilli məlumat bankına göndərirlər. Bu məlumat ümummilli məlumat bankında kodlaşdırılmış qapalı bölmədə saxlanılır.

3.3. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, Ədliyyə Nazirliyi, Baş Prokurorluğu, Dövlət Gömrük Komitəsi, Dövlət Sərhəd Xidməti öz işlərində respublika ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsinə və onların prekursorlarının idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına, habelə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirak edən şəxslərə dair məlumatı ümummilli məlumat bankına göndərirlər.

3.4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi azadlıqdan məhrum etmə yerlərində narkomaniyaya qarşı müalicə keçən şəxslər, məcburi müalicənin tətbiq edilməsi, cəzanın müddəti və onun icra olunduğu yer, narkoloji xəstənin cəzanı icra edən müəssisədən azad olunması, habelə barəsində məcburi tədbirlərin dayandırılması, təxirə salınması qərarı olan şəxslər haqqında malumatları ümummilli məlumat bankına təqdim edir.

3.5. Səlahiyyətli dövlət orqanları narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsinə, habelə qanunsuz dövriyyəsinə aid məlumatları ümummilli məlumat bankına təqdim etməyə borcludurlar.

4. Ümummilli məlumat bankına məlumatlar dəqiqləşdirildikdən sonra 10 gün müddətində göndərilir.

5. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin, Daxili İşlər Nazirliyinin, Milli Təhlükəsizlik Nazirliyinin, Ədliyyə Nazirliyinin, İqtisadi İnkişaf Nazirliyinin, Baş Prokurorluğunun, Dövlət Gömrük Komitəsinin, Dövlət Sərhəd Xidmətinin, digər aidiyyəti dövlət orqanlarının nəzdində fəaliyyət göstərən idarələr, komissiyalar, istintaq orqanları ümummilli məlumat bankının informasiya mərkəzlərindən onlara aid məlumatları almaq üçün təsdiq edilmiş

xüsusi sorğu tərtib edib ümummilli məlumat bankına müraciət edirlər.

Ümummilli məlumat bankında sorğu öyrənilir, onun qanunauyğun, aidiyyəti olduğunu müəyyən edir və qanunvericilikdə nəzərdə tutulmuş vaxt ərzində sorğu barədə məlumat verir.

Narkoloji tibb müəssisələrində könüllü olaraq anonim müalicə kursu keçmiş narkoman şəxslər haqqında məlumatlar ümummilli məlumat bankından yalnız həmin şəxs inzibati, yaxud cinayət məsuliyyətinə cəlb edildikdə hüquq-mühafizə orqanına verilə bilər.

Narkoloji xidməti və nəzarəti həyata keçirən, habelə xidməti vəzifələri həyata keçirərkən qulluq mövqeyinə görə narkoloji xəstələr barəsində məlumatları əldə edən digər şəxslər həmin məlumatların yayılmasına yol verməməlidirlər.

6. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyində, Daxili İşlər Nazirliyində, Milli Təhlükəsizlik Nazirliyində, Ədliyyə Nazirliyində, İqtisadi İnkişaf Nazirliyində, Baş Prokurorluğunda, Dövlət Gömrük Komitəsində, Dövlət Sərhəd Xidmətində və digər aidiyyəti dövlət orqanlarında ümummilli məlumat bankına informasiya göndərilməsinin vaxtlı-vaxtında yerinə yetirilməsinə nəzarət etmək və oradan məlumat alınmasını təşkil etmək üçün cavabdeh şəxs təyin olunur.



## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNVERİCİLİYİNƏ UYĞUN OLARAQ MÜSADİRƏ EDİLMİŞ NARKOTİK VASİTƏLƏRİN, PSİXOTROP MADDƏLƏRİN VƏ ONLARIN PREKURSORLARININ MƏHV EDİLMƏSİ QAYDASI

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 6 oktyabr tarixli, 181 nömrəli qərarı ilə təsdiq edilmişdir.*

1. Narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları ekspert rəyi ilə qanunvericilikdə nəzərdə tutulmuş məqsədlər üçün istifadə edilməsi məqsədəuyğun hesab edilmədikdə, tam həcmdə məhv edilməlidir.

2. Müsadirə edilmiş və üzərinə həbs qoyulmuş narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları məhkəmə baxışı zamanı və ya istintaq prosesi müddətində bu maddələr üçün istintaq aparan orqanlara məxsus xüsusi təchiz olunmuş otaqlarda maddi sübutların saxlanılması barədə müəyyən olunmuş qaydalara əsasən müvəqqəti olaraq ciddi nəzarət altında saxlanılmalıdır.

3. Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üçün əsas kimi məhkəmənin qərarı, habelə müstəntiqin, yaxud təhqiqat orqanının qanunvericilikdə nəzərdə tutulmuş hallarda cinayət işinə xitam verilməsi və ya cinayət işinin başlanılmasının rədd edilməsi barədə qərarı hesab olunur.

Məhvetmə qərarını qəbul edən orqan müsadirə edilmiş narkotik vasitələri, psixotrop maddələri və onların prekursorlarını qərar qəbul edildikdən sonra 3 gün müddətində bu Qaydanın 4-cü bəndində nəzərdə tutulan komissiyaya təhvil verir.

4. Müsadirə edilmiş narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları Azərbaycan Respublikasının məhkəmə, prokurorluq orqanlarının və Daxili İşlər Nazirliyinin, Milli Təhlükəsizlik Nazirliyinin, Ədliyyə Nazirliyinin (Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin), Səhiyyə Nazirliyinin, Dövlət Gömrük Komitəsinin, Dövlət Sərhəd Xidmətinin nümayəndələrindən ibarət tərkibdə yaradılmış müsadirə edilmiş narkotik vasitələri, psixotrop

maddələri və onların prekursorlarını məhvetmə komissiyası (bundan sonra—Komissiya) tərəfindən aktlaşdırılaraq məhv edilir.

Komissiya Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri tərəfindən formalaşdırılır və görülmüş işlər barədə ona hesabat verir.

5. Barəsində məhvetmə qərarı qəbul edilmiş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhvetmə üsulu, yeri və vaxtı Komissiya tərəfindən müəyyən edilir.

6. Komissiyanın tərtib etdiyi aktda aşağıdakılar göstərilməlidir:

aktın tərtib olunduğu yer və tarix;

məhvetmədə iştirak etmiş şəxslərin iş yeri, vəzifəsi, adı, atasının adı, soyadı;

məh vedilmənin əsası;

məhv olunan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının adı, miqdarı, onların saxlanıldığı qab barədə məlumatlar;

məhv edilmə üsulu.

Aktın nüsxələrinin sayı məhvedilmədə iştirak etmiş şəxslərin sayına uyğun olaraq müəyyən edilir.

Məhvetmə aktının bir nüsxəsi cinayət işinin materiallarına əlavə olunur.

Həmin aktlar nümayəndəsi məhvetmədə iştirak etmiş dövlət orqanlarında saxlanılır. Aktların saxlanılma müddəti, cinayət işinin və ya materiallarının saxlanılma müddəti ilə eyni olmalıdır.

7. Barəsində məhv edilmə qərarı çıxarılmış narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının sonrakı istifadəyə verilməsi qadağandır.

8. Bu Qaydanın pozulmasına görə vəzifəli şəxslər qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.



## QANUNSUZ DÖVRİYYƏDƏN AZƏRBAYCAN RESPUBLİKASININ QANUNVERİCİLİYİNƏ UYĞUN OLARAQ MÜSADİRƏ EDİLMİŞ, LAKİN DƏRMAN PREPARATLARI ŞƏKLİNDƏ OLDUĞUNA VƏ TİBBİ MƏQSƏDLƏRLƏ İSTİFADƏ OLUNA BİLƏCƏYİNƏ GÖRƏ MƏHV EDİLMƏSİ MƏQSƏDƏUYĞUN OLMAYAN NARKOTİK VASİTƏLƏRİN VƏ PSİXOTROP MADDƏLƏRİN TİBBİ MƏQSƏDLƏRLƏ İSTİFADƏ EDİLMƏSİ ÜÇÜN TƏHVİL VERİLMƏSİ

## QAYDASI

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 6 oktyabr tarixli, 181 nömrəli qərarı ilə təsdiq edilmişdir.*

1. Qanunsuz dövriyyədən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müsadirə edilmiş, lakin dərman preparatları şəklində olduğuna və tibbi məqsədlərlə istifadə oluna biləcəyinə görə məhv edilməsi məqsədəuyğun olmayan müsadirə edilmiş narkotik vasitələrin və psixotrop maddələrin nümunələri ibtidai araşdırmanı aparan müvafiq orqan tərəfindən analiz edilməsi üçün Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə təqdim edilir.

2. Analiz üçün göndərilən narkotik vasitələrin və psixotrop maddələrin nümunələrinin miqdarı aşağıdakı kimi müəyyənləşdirilir:

toz şəklində 2 qr;
həb şəklində 20 ədəd;
ampula şəklində 10 qr.

3. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Mərkəzi Nəzarət Laboratoriyası tərəfindən analiz edilmiş narkotik vasitələrin və psixotrop maddələrin nümunələri tibbi məqsədlərlə istifadə üçün yararlı hesab olunarsa, bu barədə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi narkotik vasitələri və psixotrop maddələri analiz üçün təqdim etmiş orqana məlumat verir.

4. Qanunsuz dövriyyədən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müsadirə edilmiş, lakin dərman preparatları şəklində olduğuna və tibbi məqsədlərlə istifadə oluna biləcəyinə görə məhv edilməsi məqsədəuyğun olmayan müsadirə edilmiş narkotik vasitələr və psixotrop maddələr ibtidai araşdırmanı aparan müvafiq orqan tərəfindən Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə təhvil verilir.

Yalnız bundan sonra həmin narkotik vasitələrdən və psixotrop maddələrdən Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının saxlanılması, alınması, satılması, əldə edilməsi, paylaşdırılması, buraxılması, daşınması, göndərilməsi, onlardan istifadə edilməsi, habelə narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə dair sənədlərin tərtib edilməsi, saxlanılması və onların dövriyyəsi ilə əlaqədar Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər əməliyyatların keçirilməsi qaydasına uyğun olaraq tibb müəssisələrində istifadə oluna bilər.



## AZƏRBAYCAN RESPUBLİKASININ CİNAYƏT MƏCƏLLƏSİ

*(çıxarış)*

**Maddə 93. Tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsinin əsasları**

93.1. Tibbi xarakterli məcburi tədbirlər məhkəmə tərəfindən:

93.1.1. bu Məcəllənin Xüsusi hissəsində nəzərdə tutulmuş əməli (hərəkət və ya hərəkətsizliyi) anlaqsız vəziyyətdə törətmiş şəxslərə;

93.1.2. cinayət törətdikdən sonra cəzanın təyin edilməsini və ya onun icrasını istisna edən psixi xəstəliyə düçar olmuş şəxslərə;

93.1.3. cinayət törətmiş və anlaqlılığı istisna etməyən psixi pozuntu vəziyyətində olan şəxslərə;

93.1.4. cinayət törətmiş, alkoqolizmdən və ya narkomaniyadan müalicəyə ehtiyacı olan şəxslərə təyin edilə bilər.

93.2. Bu Məcəllənin 93.1.1—93.1.4-cü maddələrində nəzərdə tutulmuş şəxslərə tibbi xarakterli məcburi

tədbirlər o halda təyin edilir ki, psixi pozuntu şəxsin özünə və ya başqa şəxslərə zərər yetirilməsi təhlükəsi yaradır.

93.3. Tibbi xarakterli məcburi tədbirlərin tətbiqi qaydası Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunur.

93.4. Bu Məcəllənin 93.1.1—93.1.4-cü maddələrində göstərilən və öz psixi vəziyyətinə görə təhlükə törətməyən şəxslər barəsində zəruri materiallar həmin şəxslərin müalicə olunması üçün və ya onların psixonevroloji müəssisələrə göndərilməsi üçün səhiyyə orqanlarına verilir.

**Maddə 94. Tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsinin məqsədi**

Tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi məqsədi bu Məcəllənin 93.1.1—93.1.4-cü maddələrində göstərilən şəxslərin müalicə olunması və ya psixi vəziyyətinin yaxşılaşdırılmasından, habelə həmin şəxslər tərəfindən yeni cinayət törədilməsinin qarşısının alınmasından ibarətdir.

**Maddə 95. Tibbi xarakterli məcburi tədbirlərin növləri**

95.0. Məhkəmə aşağıdakı tibbi xarakterli məcburi tədbirləri təyin edə bilər:

95.0.1. məcburi ambulatoriya müşahidəsi və psixiatr müalicəsi;

95.0.2. ümumi tipli psixiatriya stasionarlarında məcburi müalicə;

95.0.3. ixtisaslaşdırılmış psixiatriya stasionarlarında məcburi müalicə;

95.0.4. ixtisaslaşdırılmış psixiatriya stasionarlarında intensiv müşahidə altında məcburi müalicə.

**Maddə 96. Məcburi ambulatoriya müşahidəsi altında olma və psixiatr tərəfindən müalicə edilmə**

Şəxsin stasionar psixiatriya müəssisələrində yerləşdirilməsinə zərurət olmadıqda həmin şəxsin məcburi ambulatoriya müşahidəsi altında olması və psixiatr tərəfindən müalicə edilməsi bu Məcəllənin 93.2-ci maddəsində nəzərdə tutulan əsaslar olduqda təyin edilir.

**Maddə 97. Psixiatriya stasionarlarında məcburi müalicə olunma**

97.1. Əgər psixi pozuntunun xarakteri müalicə şəraitinin, şəxsin saxlanmasının və onun üzərində müşahidənin yalnız psixiatriya stasionarlarında həyata keçirilməsini tələb edərsə, psixiatriya stasionarlarında məcburi müalicə olunma bu Məcəllənin 93.2-ci maddəsində nəzərdə tutulmuş əsaslar olduqda təyin edilə bilər.

97.2. İntensiv müşahidə tələb etməyən və öz psixi vəziyyətinə görə stasionar müalicəyə və müşahidəyə ehtiyacı olan şəxslər barəsində ümumi tipli psixiatriya stasionarlarında məcburi müalicə təyin edilə bilər.

97.3. Öz psixi vəziyyətinə görə daimi müşahidə tələb edən şəxslərə xüsusi ixtisaslaşdırılmış psixiatriya stasionarlarında məcburi müalicə təyin edilə bilər.

97.4. Öz psixi vəziyyətinə görə ətrafdakılar və özü üçün təhlükəli olan, intensiv və daimi müşahidə tələb edən şəxslərə ixtisaslaşdırılmış psixiatriya stasionarlarında intensiv müşahidə altında məcburi müalicə təyin edilə bilər.



**Maddə 98. Tibbi xarakterli məcburi tədbirlərin tətbiqinin uzadılması, dəyişdirilməsi və ləğv edilməsi**

98.1. Tibbi xarakterli məcburi tədbirlərin tətbiqinin uzadılması, dəyişdirilməsi və ya ləğv edilməsi həkim-psixiatr komissiyasının rəyi əsasında məcburi müalicəni həyata keçirən tibb müəssisəsinin müdiriyyətinin vəsatəti ilə məhkəmə tərəfindən həyata keçirilir.

98.2. Barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş şəxs bu tədbirin tətbiqinin ləğv edilməsi və ya dəyişdirilməsi məsələsinin həll edilməsi məqsədi ilə altı ay müddətində bir dəfədən az olmayaraq həkim-psixiatr komissiyasında baxışdan keçirilməlidir. Tibbi xarakterli məcburi tədbirlərin ləğv edilməsi və ya dəyişdirilməsi üçün əsaslar olmadıqda məcburi müalicəni həyata keçirən müəssisənin müdiriyyəti məcburi müalicənin müddətinin uzadılması haqqında məhkəməyə öz rəyini təqdim edir. Məcburi müalicənin ilk dəfə uzadılması müalicənin başlandığı gündən altı ay keçdikdən sonra həyata keçirilir, bundan sonra məcburi müalicə müddətinin uzadılması hər il həyata keçirilir.

98.3. Şəxsin psixi vəziyyətinin yaxşılaşması səbəbindən onun barəsində əvvəllər təyin edilmiş tibbi xarakterli məcburi tədbirlərin ləğv edilməsi zərurəti olduqda və ya tibbi xarakterli digər məcburi tədbirlərin tətbiqinə ehtiyacı olduqda, tibbi xarakterli məcburi tədbirlərin dəyişdirilməsi və ya onların tətbiqinin ləğv edilməsi məhkəmə tərəfindən həyata keçirilir.

98.4. Tibbi xarakterli məcburi tədbirlərin tətbiqi ləğv edildikdə məcburi müalicə edilən şəxs barəsindəki materialları məhkəmə səhiyyə orqanlarına göndərir.

**Maddə 99. Tibbi xarakterli məcburi tədbirlərin tətbiqi müddətinin hesaba alınması**

Cinayət törətdikdən sonra psixi pozuntuya məruz qalmış şəxs müalicə olunduqdan sonra cəza təyin edilərkən və ya onun cəzasının icrası bərpa olunarkən psixiatriya stasionarlarında məcburi müalicədə bir gün olma müddəti bir gün azadlıqdan məhrum edilmə hesabı ilə hesablanır.

**Maddə 206. Qaçaqmalçılıq**

206.1. Qaçaqmalçılıq, yəni Azərbaycan Respublikasının gömrük

sərhədindən gömrük nəzarətindən kənar və ya ondan gizli, yaxud sənədlərdən və ya gömrük eyniləşdirilməsi vasitələrindən aldatma yolu ilə istifadə etməklə, yaxud bəyan etməməklə və ya düzgün bəyan etməməklə bu Məcəllənin 206.2-ci maddəsində qeyd edilənlər istisna olmaqla malların və digər əşyaların külli miqdarda keçirilməsi—

beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

206.2. Narkotik vasitələrin, psixotrop maddələrin, güclü təsirli, zəhərli, zəhərləyici, radioaktiv, partlayıcı maddələrin və qurğuların, hərbi silahın və texnikanın, (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla) odlu silah və yaxud döyüş sursatının, nüvə, kimyəvi, bioloji və digər kütləvi qırğın silahlarının, kütləvi qırğın silahlarının hazırlanmasında istifadə oluna bilən və Azərbaycan Respublikası gömrük sərhədindən keçirilməsinin xüsusi qaydaları müəyyən edilmiş materialların və avadanlıqların, Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi üçün müvafiq qaydalar müəyyən edilmiş strateji əhəmiyyətli xammalın, mədəni, tarixi və ya arxeoloji sərvət olan əşyaların Azərbaycan Respublikasının gömrük sərhədindən gömrük nəzarətindən kənar və ya ondan gizli, yaxud sənədlərdən və ya gömrük eyniləşdirilməsi vasitələrindən aldatma yolu ilə istifadə etməklə, yaxud bəyan etməməklə və ya düzgün bəyan etməməklə keçirilməsi—

əmlakı müsadirə olunmaqla və ya olunmamaqla üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

206.3. Bu Məcəllənin 206.1 və ya 206.2-ci maddələrində nəzərdə tutulmuş əməllər:

206.3.1. təkrar törədildikdə;

206.3.2. qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə;

206.3.3. vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə edilməklə törədildikdə;

206.3.4. gömrük nəzarətini həyata keçirən şəxsə zor tətbiq etməklə törədildikdə—

əmlakı müsadirə olunmaqla və ya olunmamaqla beş ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

206.4. Bu Məcəllənin 206.1 — 206.3-cü maddələrində nəzərdə



tutulmuş əməllər mütəşəkkil dəstə tərəfindən törədildikdə—

əmlakı müsadirə olunmaqla yeddi ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Qeyd**: Bu maddədə «külli miqdar» dedikdə, keçirilən qaçaqmalçılıq əşyalarının dəyərinin şərti maliyyə vahidi məbləğinin dörd min mislindən yuxarı olan məbləq başa düşülür.

**Maddə 234. Qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya prekursorları hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma**

234.1. Satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə və ya saxlama—

üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

234.2. Satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma—

əmlakı müsadirə olunmaqla və ya olunmamaqla üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

234.3. Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında istifadə etmək məqsədi ilə prekursorları hazırlama, əldə etmə, saxlama, göndərmə, daşıma və ya satma —

əmlakı müsadirə olunmaqla və ya olunmamaqla üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

234.4. Bu Məcəllənin 234.2 və 234.3-cü maddəsində nəzərdə tutulmuş əməllər:

234.4.1. qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə;

234.4.2. təkrar törədildikdə;

234.4.3. külli miqdarda törədildikdə—

əmlakı müsadirə olunmaqla beş ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

234.5. Narkotik vasitələri və ya psixotrop maddələri hazırlamaq üçün istifadə edilən və xüsusi nəzarət altında olan xammalın, prekursorların, alətlərin və ya avadanlıqların, habelə narkotik vasitələrin və ya psixotrop maddələrin istehsalı, hazırlanması, emalı, saxlanması, buraxılması, satılması, bölüşdürülməsi, daşınması, göndərilməsi, əldə edilməsi, istifadə edilməsi, idxalı, ixracı və ya məhv edilməsi qaydalarının, bu qaydalara riayət etməli olan şəxs tərəfindən pozulması—

şərti maliyyə vahidi məbləğinin iki yüz mislindən min mislinədək miqdarda cərimə və ya beş ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Qeyd:**

1. Narkotik vasitələri, psixotrop maddələri və ya prekursorları könüllü surətdə təhvil verən və ya narkotik vasitələrin, psixotrop maddələrin və ya prekursorların qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin açılmasında və ya qarşısının alınmasında, bu əməlləri törətmiş şəxslərin aşkar edilməsində, cinayət yolu ilə əldə edilmiş əmlakın tapılmasında fəal iştirak etmiş şəxs cinayət məsuliyyətindən azad edilir.

2. Bu fəsildə göstərilən narkotik vasitələrin və ya psixotrop maddələrin şəxsi istehlak miqdarı və digər miqdarları müvafiq normativ hüquqi aktlar ilə müəyyən edilir.

**Maddə 235. Narkotik vasitələri, psixotrop maddələri və ya prekursorları talama və ya hədə-qorxu ilə tələb etmə**

235.1. Narkotik vasitələri və ya psixotrop maddələri talama və ya hədə-qorxu ilə tələb etmə—

üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

235.2. Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında istifadə etmək məqsədi ilə prekursorları talama və ya hədə qorxu ilə tələb etmə—

əmlakı müsadirə olunmaqla və ya olunmamaqla iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.



235.3. Bu Məcəllənin 235.1 və 235.2-ci maddələrində nəzərdə tutulmuş əməllər:

235.3.1. qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə;

235.3.2. təkrar törədildikdə;

235.3.3. şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə;

235.3.4. həyat və ya sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etməklə və ya belə zor tətbiq etmək hədəsi ilə törədildikdə—

əmlakı müsadirə olunmaqla və ya olunmamaqla altı ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

235.4. Bu Məcəllənin 235.1—235.3-cü maddələrində nəzərdə tutulmuş əməllər:

235.4.1. mütəşəkkil dəstə tərəfindən törədildikdə;

235.4.2. külli miqdarda törədildikdə;

235.4.3. həyat və ya sağlamlıq üçün təhlükəli olan zor tətbiq etməklə və ya belə zor tətbiq etmək hədəsi ilə törədildikdə;

235.4.4. əvvəllər talama və ya hədə-qorxu ilə tələb etməyə görə iki dəfə və ya daha çox məhkum edilmiş şəxs tərəfindən törədildikdə—

əmlakı müsadirə olunmaqla səkkiz ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Maddə 236. Narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına təhrik etmə**

236.1. Narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına təhrik etmə—

üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

236.2. Eyni hərəkətlər:

236.2.1. qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə;

236.2.2. təkrar törədildikdə;

236.2.3. bilə-bilə yetkinlik yaşına çatmayan, iki və ya daha çox şəxs barəsində törədildikdə;

236.2.4. zor tətbiq etməklə və ya belə zor tətbiq etmək hədəsi ilə

törədildikdə—

beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

236.3. Bu Məcəllənin 236.1 və 236.2-ci maddələrində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya başqa ağır nəticələrə səbəb olduqda—

yeddi ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Maddə 237. Qanunsuz olaraq narkotik xassəli bitkiləri kultivasiya etmə**

237.1. Qanunsuz olaraq narkotik xassəli bitkiləri əkmə, yetişdirmə, onları (onların hissələrini) toplama, habelə çətənə, xaşxaş növlərini və ya tərkibində narkotik maddələr olan digər bitkiləri kultivasiya etmə—

şərti maliyyə vahidi məbləğinin iki yüz mislindən min mislinədək miqdarda cərimə və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

237.2. Eyni hərəkətlər:

237.2.1. qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə;

237.2.2. təkrar törədildikdə;

237.2.3. külli miqdarda törədildikdə —

üç ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Maddə 238. Narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakı üçün tiryəkxanalar təşkil etmə və ya saxlama**

238.1. Narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakı üçün tiryəkxanalar təşkil etmə, saxlama və ya bu məqsədlər üçün binalar vermə —

dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

238.2. Eyni hərəkətlər:

238.2.1. qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə;

238.2.2. təkrar törədildikdə —



üç ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Maddə 239. Narkotik vasitələri və psixotrop maddələri əldə etmək hüququ verən reseptləri tibbi göstəricilər olmadan qanunsuz vermə və ya saxtalaşdırma**

Narkotik vasitələri və psixotrop maddələri əldə etmək hüququ verən reseptləri tibbi göstəricilər olmadan qanunsuz vermə və ya saxtalaşdırma—

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Maddə 240. Güclü təsir edən və ya zəhərli maddələrin satış məqsədilə qanunsuz dövriyyəsi**

240.1. Narkotik vasitələrə və ya psixotrop maddələrə aid olmayan güclü təsir edən və ya zəhərli maddələri satış məqsədi ilə qanunsuz hazırlama, emal etmə, əldə etmə, saxlama, daşıma və ya göndərmə, habelə bu maddələri və ya onları hazırlamaq yaxud emal etmək üçün avadanlığı qanunsuz satma—

üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

240.2. Eyni hərəkətlər:

240.2.1. qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə;

240.2.2. təkrar törədildikdə—

iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

240.3. Bu Məcəllənin 240.1 və 240.2-ci maddələrində göstərilən əməllər:

240.3.1. mütəşəkkil dəstə tərəfindən törədildikdə;

240.3.2. külli miqdarda törədildikdə—

dörd ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

240.4. Güclü təsir edən və ya zəhərli maddələrin istehsalı, əldə edilməsi, uçotu, saxlanması, buraxılması daşınması və ya

göndərilməsi qaydalarının pozulması ehtiyatsızlıqdan onların talanmasına və ya başqa mühüm ziyan vurulmasına səbəb olduqda—

şərti maliyyə vahidi məbləğinin iki yüz mislindən min mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Maddə 241. Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz dövriyyəsindən əldə edilmiş pul vəsaitini və ya digər əmlakı leqallaşdırma**

241.1. Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz dövriyyəsindən əldə edilmiş pul vəsaitlərindən və ya digər əmlakdan istifadə etməklə maliyyə əməliyyatları və digər əqdlər həyata keçirmə, habelə sahibkarlıq və ya digər iqtisadi fəaliyyətin həyata keçirilməsi üçün göstərilən vəsaitlərdən və ya digər əmlakdan istifadə etmə —

şərti maliyyə vahidi məbləğinin iki min mislindən beş min mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

241.2. Eyni hərəkətlər:

241.2.1. qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə;

241.2.2. təkrar törədildikdə;

241.2.3. şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə—

əmlakı müsadirə olunmaqla və ya olunmamaqla dörd ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

241.3. Bu Məcəllənin 241.1 və 241.2-ci maddələrində göstərilən əməllər:

241.3.1. mütəşəkkil dəstə tərəfindən törədildikdə;

241.3.2. külli miqdarda törədildikdə—

əmlakı müsadirə olunmaqla və ya olunmamaqla yeddi ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.



## AZƏRBAYCAN RESPUBLİKASININ İNZİBATİ XƏTALAR MƏCƏLLƏSİ

*(çıxarış)*

**Maddə 68-1. Narkotik vasitələrin, psixotrop maddələrin və onların analoqlarının istehlakı, narkotik vasitələrin, psixotrop maddələrin və onların analoqlarının, prekursorların satış məqsədi olmadan şəxsi istehlak miqdarında hazırlanması, əldə edilməsi, saxlanılması, daşınması və ya göndərilməsi**

Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla narkotik vasitələrin, psixotrop maddələrin və onların analoqlarının istehlakına, narkotik vasitələrin, psixotrop maddələrin və onların analoqlarının satış məqsədi olmadan şəxsi istehlak miqdarında hazırlanmasına, əldə edilməsinə, saxlanılmasına, daşınmasına və ya göndərilməsinə, habelə narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və ya emalında istifadə etmək məqsədi ilə prekursorların satış məqsədi olmadan şəxsi istehlak miqdarında hazırlanmasına, əldə edilməsinə, saxlanılmasına, daşınmasına və ya göndərilməsinə görə-şərti maliyyə vahidinin on beş mislindən iyirmi beş mislinədək miqdarda cərimə edilir, işin hallarına görə və xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda isə-on beş günədək müddətə inzibati həbs tətbiq edilir.

**Qeyd:** Satış məqsədi olmadan hazırladığı, əldə etdiyi, saxladığı, daşıdığı və ya göndərdiyi şəxsi istehlak miqdarında narkotik vasitələri, psixotrop maddələri, onların analoqlarını və ya prekursorları könüllü surətdə təhvil verən şəxs bu qeyddə nəzərdə tutulan hərəkətlərə görə inzibati məsuliyyətdən azad edilir.(6)

**Maddə 68-2. Narkotik vasitələrin, psixotrop maddələrin və onların analoqlarının qanunsuz istehlakına yol verilməsi**

Narkotik vasitələrin, psixotrop maddələrin və onların analoqlarının qanunsuz istehlakına yol verilməsinə görə-şərti

maliyyə vahidinin on beş mislindən iyirmi beş mislinədək miqdarda cərimə edilir.

**Maddə 68-3. Narkotik vasitələrin, psixotrop maddələrin və onların analoqlarının istehlakı və ya daşınması hallarının, habelə belə istehlak nəticəsində yaranmış sərxoşluq vəziyyətinin müəyyən edilməsi məqsədi ilə keçirilən tibbi müayinədən boyun qaçırmaq**

Narkotik vasitələrin, psixotrop maddələrin və onların analoqlarının istehlakı və ya daşınması hallarının, habelə belə istehlak nəticəsində yaranmış sərxoşluq vəziyyətinin müəyyən edilməsi məqsədi ilə keçirilən tibbi müavinədən boyun qaçırmağa görə-şərti maliyyə vahidinin on mislindən on beş mislinədək miqdarda cərimə edilir.

**Maddə 123-1. Satış məqsədi olmadan narkotik xassəli bitkilərin şəxsi istehlak miqdarında kultivasiyası**

Satış məqsədi olmadan narkotik xassəli bitkilərin şəxsi istehlak miqdarında əkilməsi, becərilməsi və ya yetişdirilməsinə görə- şərti maliyyə vahidinin on mislindən on beş mislinədək miqdarda cərimə edilir.

**Maddə 230. Fiziki şəxslərə dərman vasitələrinin buraxılması qaydalarının pozulması** *(çıxarış)*

230.1. Apteklərdə resept təqdim edilməklə buraxılmalı olan dərman vasitələrinin reseptsiz buraxılmasına və ya yetkinlik yaşına çatmayanlara dərman vasitələrinin buraxılması qaydalarının pozulmasına görə—

şərti maliyyə vahidinin on beş mislindən otuz mislinədək miqdarda cərimə edilir.



# NARKOTİK VASİTƏLƏRİN, GÜCLÜ TƏSİR EDƏN VƏ ZƏHƏRLİ MADDƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNƏ DAİR CİNAYƏT İŞLƏRİ ÜZRƏ MƏHKƏMƏ TƏCRÜBƏSİ HAQQINDA

*Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun 11 iyul 1997-ci il tarixli 1 №-li qərarı*

Birləşmiş Millətlər Təşkilatının 1961-ci il «Narkotik vasitələr haqqında» Vahid Konvensiyası, 1971-ci il «Psixotrop maddələr haqqında» və 1988-ci il «Narkotik vasitələr və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə haqqında»

Konvensiyalarında narkotik vasitələrin, güclü təsir edən və zəhərli maddələrin qanunsuz dövriyyəsi beynəlxalq cinayət hesab edilmişdir.

Konvensiyalar onlara qoşulmuş bütün dövlətlərin narkotik vasitələrin, güclü təsir edən və zəhərli maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə üçün ciddi tədbirlər görməyini zəruri hesab etmişdir.

Məhkəmə statistikası göstərir ki, son illər respublikada narkomaniya ilə əlaqədar olan cinayət işlərinin, həmçinin məhkum olunanların sayı xeyli artmışdır.

Məhkəmə təcrübəsi ümumiləşdirilməsinin nəticələrindən görünür ki, məhkəmələr bu növ cinayət işlərinə baxarkən, qanunun tələblərinə əsasən düzgün əməl edirlər.

Bununla bərabər, Plenum qeyd edir ki, bəzi məhkəmələr bu cinayətlərə qarşı qanunun gücündən lazımınca istifadə etmir, onların cəmiyyət və insanların səhhəti üçün xüsusi təhlükə törətməsinə, bu cinayətlərin bütün iştirakçılarının müəyyən olunmasına, narkotik vasitələrin, güclü təsir edən və zəhərli maddələrin əldə etmə mənbələrinin aşkar edilməsinə kifayət qədər diqqət yetirmir, belə cinayətlərin baş verməsinə kömək edən səbəb və şəraiti aydınlaşdırmır.

Bir sıra cinayət işləri üzrə narkotik vasitələrin, güclü təsir edən və

zəhərli maddələrin oğurlanmasında, qanunsuz olaraq hazırlanmasında, əldə edilməsində, saxlanmasında, daşınmasında və göndərilməsində təqsirli şəxslərin məqsədləri müəyyən edilmir, bu isə qanunun tətbiqində səhvlərə yol verilməsinə səbəb olur.

Bəzən məhkəmələr təqsirli şəxslərə cəza təyin edərkən, törədilmiş cinayətin xarakterini və ictimai təhlükəlilik dərəcəsini, onun edilmə şəraitini və müttəhimin şəxsiyyətini nəzərə almır.

Qeyd edilən nöqsanları aradan qaldırmaq, bu sahədə qanunların düzgün tətbiqini təmin etmək məqsədilə, Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu qərara alır:

1. Məhkəmələrin diqqəti narkotik vasitələrin, güclü təsir edən və zəhərli maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəyə yönəldilən qanunların tətbiq edilməsi, bu barədə Birləşmiş Millətlər Təşkilatının Konvensiyalarının tələblərindən irəli gələn müddəalarına əməl olunması, həmin kateqoriyadan olan işlər üzrə məhkəmə baxışının səviyyəsinin yüksəldilməsi, bu növ cinayətlərin baş vermə səbəbləri və şəraitinin aşkar edilməsi üçün işin bütün hallarının obyektiv olaraq hərtərəfli araşdırılması sahəsində fəaliyyətinin təkmilləşdirilməsi zəruriliyinə cəlb edilsin.

2. Məhkəmələrin nəzərinə çatdırılsın ki, Birləşmiş Millətlər Təşkilatının Konvensiyalarında bu növ cinayətlər üzrə istifadə olunan ayrı-ayrı terminlərə aşağıdakı izahlar verilmişdir:

«Narkotik» — dövlətin nəzarəti altında olan hər hansı bitki, vasitə və ya dərman;

«Narkotik vasitə» — 1961-ci il «Narkotik vasitələr haqqında» Vahid Konvensiyaya əlavə edilmiş siyahılardan birinə daxil edilmiş narkotik (siyahı əlavə edilir);

«Psixotrop vasitələr» — «Psixotrop vasitələr haqqında» 1971-ci il Konvensiyasının siyahılarından birinə daxil edilmiş narkotik (siyahı əlavə edilir);

«Prekursor» — dövlətin nəzarəti altında olan və adətən narkotik vasitələr hazırlanmasında istifadə edilən maddələr;

«Narkoman» — psixi və ya fiziki cəhətdən hər hansı bir narkotikdən asılı olan şəxs;

«Qanunsuz dövriyyə» — dövlətin nəzarəti altında olan bitki və



ya vasitələrlə hər hansı qanunsuz əməliyyat.

3. Məhkəmələrə izah edilsin ki, narkotik vasitələrin hazırlanması dedikdə, hər hansı hərəkətlər nəticəsində narkotik vasitələrin istehlak üçün hazır vəziyyətə gətirilməsi, müvafiq icazə olmadan narkotik vasitənin qatılıq və onun narkotik təsir dərəcəsinin artırılması məqsədilə yenidən emal edilməsi və təmizlənilməsi başa düşülməlidir.

Güclü təsir edən və zəhərli maddələrin hazırlanması dedikdə isə, hər hansı hərəkətlərin nəticəsində onların təbii və ya sintetik xammaldan hazırlanması başa düşülməlidir.

Əldə etmə dedikdə, narkotik vasitələrin satın alınması, başqa əmlakla və ya əşya ilə dəyişdirilməsi, borc və ya bəxşiş kimi alınması, borc əvəzinə ödənilməsi, tapılmış narkotik vasitənin mənimsənilməsi, yabanı çətənə bitkisi, xaşxaşın və ya onların müəyyən hissəsinin, eləcə də məhsul yığımı başa çatdıqdan sonra mühafizə olunmayan əkin sahəsindən tərkibində narkotik vasitələr olan bitkilərin yığılması və s. hərəkətlər başa düşülməlidir.

Təqsirli şəxsin narkotik vasitələrin, güclü təsir edən və zəhərli maddələrin öz ixtiyarında saxlanılması ilə əlaqədar olan hər hansı bir qəsdən edilən hərəkətləri saxlama kimi başa düşülməlidir (məsələn, üstündə, gizli saxlanc yerlərində, binalarda və s.).

Daşıma dedikdə, daşıma üsulundan və saxlama yerindən asılı olmayaraq narkotik vasitələrin, güclü təsir edən və zəhərli maddələrin yerinin dəyişdirilməsi məqsədilə qəsdən edilən hər hansı bir hərəkətlər başa düşülməlidir.

Narkotik vasitələrin, güclü təsir edən və zəhərli maddələrin qanunsuz olaraq Azərbaycan Respublikası gömrük sərhədindən daşınması müəyyən edildikdə, təqsirkarın əməli əlavə olaraq, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 71-ci maddəsi ilə tövsif olunmalıdır.

Narkotik vasitələrin göndərilməsi dedikdə, onları göndərən şəxsin iştirakı olmadan poçtla, baqajla göndərmə, habelə başqa daşınma üsulu ilə onların qanunsuz olaraq yerdəyişdirilməsi başa düşülməlidir.

Satma dedikdə, narkotik vasitələrin, güclü təsir edən və zəhərli maddələrin qanunsuz olaraq hər hansı bir üsulla yayılması başa

düşülməlidir (satma, bəxşiş vermə, dəyişdirmə, borc əvəzinə vermə, borc olaraq vermə, başqa şəxsə iynə vurma və s.).

Təqsirkar şəxsin narkotik vasitələri satmaq niyyətində olması müəyyən edilərkən, başqa sübutlarla yanaşı, onların xeyli miqdarda olması, istehlakçı ilə əvvəlcədən razılıq olması, narkotik vasitədən istifadə etməyən şəxs tərəfindən onun əldə edilməsi, narkotik vasitənin çəkilib xırda bağlamalara bükülməsi, narkotik vasitələr hazırlanması üçün avadanlığın olması və işin digər halları nəzərə alınmalıdır.

4. Təqsirkarın satış məqsədi ilə qanunsuz olaraq az miqdarda narkotik vasitələr hazırlaması, əldə etməsi, saxlaması, daşıması, göndərməsi və ya qanunsuz olaraq satması, habelə az miqdarda narkotik vasitələrin oğurlanması ilə bağlı hərəkətləri müvafiq olaraq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 226-cı və ya 226-2-ci maddəsi ilə tövsif olunmalıdır.

5. Vətəndaşların pulunu və ya əmlakını ələ keçirmək məqsədi ilə arkotik vasitə, güclü təsir edən və ya zəhərli maddə adı ilə hər hansı digər vasitəni və maddəni satan şəxsin hərəkəti dələduzluq kimi tövsif edilməli, bu yolla əldə edilmiş pul və ya əmlak isə, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 45-ci maddəsinə əsasən, dövlətin xeyrinə müsadirə edilməlidir.

6. Tamah məqsədilə narkotik vasitələrin əvəzsiz olaraq özünün mülkiyyətinə və ya başqa şəxsin mülkiyyətinə keçirilməsi oğurlanma kimi qiymətləndirilməlidir.

Hər cür, o cümlədən dövlət qiyməti olmayan, kustar üsulu ilə hazırlanmış narkotik vasitə oğurlamanın predmeti ola bilər.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 226-2-ci maddəsinin mənasına görə, narkotik vasitələrin oğurluğu dedikdə, onların qanunsuz olaraq müəssisə və təşkilatlardan götürülməsi, həmin müəssisə və təşkilatların əkin sahələrindən tərkibində narkotik vasitələr olan bitkiləri, yaxud belə bitkilərin müəyyən hissəsinin (xaşxaşın gövdəsi və qozası, çətənənin gövdəsi və s.) qanunsuz olaraq yığılması, eləcə də vətəndaşların hər hansı yolla ələ keçirdikləri narkotik vasitələrin onlardan götürülməsi başa düşülməlidir.

7. Kənd təsərrüfatı müəssisələrinin əkin yerlərindən və



vətəndaşların torpaq sahələrindən onlar tərəfindən əkilməyən və yetişdirilməyən, tərkibində narkotik vasitə olan bitkilərin yığılması oğurluq kimi qiymətləndirilə bilməz. Belə hərəkətlər qanunsuz yolla narkotik vasitələr əldə edilməsi kimi qiymətləndirilməli və məqsədindən asılı olaraq, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 226 və ya 226-1-ci maddələri ilə tövsif olunmalıdır.

8. Tərkibində narkotik vasitələr olan bitkiləri, yaxud belə bitkilərin müəyyən hissəsini satış məqsədi ilə, yaxud bunsuz oğurlama, qanunsuz olaraq əldə etmə, saxlama, daşıma, eləcə də satma bitmiş cinayət kimi müvafiq olaraq, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 226-2-ci, 226 və ya 226-1 maddələri ilə tövsif olunmalıdır.

Narkotik vasitələrin oğurlanması və sonradan onların satış məqsədilə, yaxud bunsuz saxlanması, daşınması, göndərilməsi, eləcə də satılması Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 226-2-ci maddəsi və müvafiq olaraq 226 və ya 226-1-ci maddələri ilə tövsif olunmalıdır.

9. Ağırlaşdırıcı hallar olmadan oğurluq, dələduzluq və soyğunçuluq yolu ilə narkotik vasitələrin oğurlanması Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 226-2-ci maddəsinin 1-ci hissəsi ilə tövsif olunmalıdır.

Zor işlətməklə soyğunçuluq və ya quldurluq yolu ilə narkotik vasitələrin oğurlanması Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 226-2-ci maddəsinin müvafiq hissələrinin dispozisiyası ilə əhatə edildiyindən, həmin əməllərin əlavə olaraq 144-cü və 145-ci maddələri ilə tövsif olunmasına ehtiyac yoxdur.

Banda tərəfindən narkotik vasitələrin oğurlanması cinayətlərin məcmuyu ilə:

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 226-2-ci və 70-ci maddələri ilə tövsif olunmalıdır.

10. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 226-3-cü maddəsi ilə məsuliyyət həm bir dəfə, həm də dəfələrlə narkotik vasitələrdən, təqsirkarın tamah məqsədinin olub-olmamasından asılı olmayaraq, istifadə olunması üçün bina, mənzil, otaq və s. verilməsinə görə yaranır.

Narkotik vasitələr istehlakı üçün tiryəkxana təşkil etmə dedikdə,

bu məqsədlə bina axtarmaq, binanın sahibi ilə icarə şərtlərini müzakirə etmək, fəaliyyət planı hazırlamaq, bu fəaliyyətin iştirakçılarını müəyyən etmək, müştəri tapmaq, narkotik vasitələri əldə etmək, onun istehlakını təmin etmək və s. hərəkətlər başa düşülməlidir.

Tiryəkxana saxlamaq dedikdə isə, narkotik vasitələr istehlakı üçün müntəzəm olaraq (iki və daha çox) mənzil, bina verilməsi başa düşülməlidir.

11. Narkotik vasitələr istehlakına təhrik etmə dedikdə, həmin vasitələrdən istifadə həvəsini yaratmağa yönəlmiş hər hansı bir qəsdən edilmiş hərəkətlər başa düşülməlidir (dilə tutma, təklif etmə, məsləhət vermə və s.).

Təqsirkarın hərəkəti iki və daha çox şəxsdə narkotik vasitələrdən istifadə həvəsi yaratmağa yönəlmişsə, bu hərəkətin hər iki şəxs barəsində eyni vaxtda və yaxud ayrı-ayrı vaxtlarda edilməsindən asılı olmayaraq, onun əməli Cinayət Məcəlləsinin 226-4-cü maddəsinin 2-ci hissəsi ilə tövsif olunmalıdır.

Bu zaman başqasında narkotik vasitələrdən istifadəyə meyl yaratmış şəxs onları satmışsa və yaxud həmin vasitələrin oğurlanması, əldə edilməsi, saxlanması, daşınması və yaxud göndərilməsinə köməklik göstərmişsə, onun əməli Cinayət Məcəlləsinin 226-4-cü maddəsi və müvafiq olaraq 226 və ya 226-1 maddələrilə tövsif olunmalıdır.

12. Narkotik vasitələrin, zəhərli və ya güclü təsir edən maddələrin istehsalı, əldə edilməsi, saxlanması, uçota alınması, buraxılması, daşınması və ya göndərilməsi üçün müəyyən olunmuş qaydaları pozmağa görə həm vəzifəli şəxslər, həm də tapşırılmış işə görə göstərilən qaydalara riayət etməyə borclu olan sair şəxslər məsuliyyət daşıyırlar. Bu qaydaları pozmuş vəzifəli şəxslərin hərəkətində vəzifə cinayətinin (vəzifədən sui-istifadə, rüşvətxorluq və s.) əlamətləri olduqda, onların əməli əlavə olaraq, Cinayət Məcəlləsinin vəzifə cinayətlərinə görə məsuliyyət nəzərdə tutan maddələri ilə də tövsif olunmalıdır.

13. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 227-ci və 227-1-ci maddələrində nəzərdə tutulmuş becərilməsi qadağan edilmiş tiryək xaşxaşını, Hind, Cənubi Mancuriya, Cənubi Çu, Cənubi



Arxon, Cənubi Krasnodar çətənəsini, qanunsuz olaraq yağlı xaşxaşı və Cinayət Məcəlləsinin 227-ci maddəsində göstərilmiş növlərdən başqa çətənə əkmə dedikdə, qanunsuz olaraq həmin bitkilərin toxumunu və ya şitilini hər hansı torpaq, o cümlədən boş torpaq sahələrində əkmə başa düşülməlidir.

Becərmə dedikdə isə, həmin bitkiləri yetişdirmə dərəcəsinə çatdırılması üçün əkilmiş bitkilərə və onların cücərtisinə qulluq etmə başa düşülməlidir.

14. Becərilməsi qadağan edilmiş tiryək xaşxaşının, Hind, Cənubi Mancuriya, Cənubi Çu, Cənubi Arxon və Cənubi Krasnodar çətənəsinin və Cinayət Məcəllləsin-in 227-ci maddəsində göstərilmiş növlərdən başqa çətənənin satış məqsədilə və bunsuz əkilməsi, becərilməsi, qanunsuz olaraq onlardan narkotik vasitələr hazırlanması, onların saxlanması, daşınması və göndərilməsi, habelə satılması ilə əlaqədar hərəkətlər Cinayət Məcəlləsinin 227-ci və ya 227-1-ci, müvafiq olaraq 226 və ya 226-1-ci maddələri ilə tövsif olunmalıdır.

15. Məhkəmələrə izah edilsin ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 226-cı maddəsinin 2-ci hissəsi, 226-1-ci maddəsinin 2-ci hissəsi, 226-2-ci maddəsinin 2-ci hissəsi, 226-4-cü maddəsinin 2-ci hissəsi, 227-ci maddəsinin 2-ci hissəsi və 227-1-ci maddəsinin 2-ci hissəsində göstərilən təkrarlıq əlamətinə görə, məsuliyyət təqsirkarın həmin maddələrdə sadalanan cinayətlərdən hər hansı birini etməyə görə, əvvəllər məhkum olunub-olunmamasından asılı olmayaraq yaranır.

Əvvəlki cinayətə görə məhkumluq götürüldükdə, ödənildikdə və yaxud cinayət məsuliyyətinə cəlb etmə müddəti keçdikdə təkrarlıq əlaməti yaranmır.

Narkotik vasitələrin iki və daha çox şəxsə eyni vaxtda satılması təkrarlıq kimi qiymətləndirilməlidir.

16. Narkotik vasitələrin, güclü təsir edən və zəhərli maddələrin istehlakı ölüm və ya bədənə xəsarət yetirilməsi ilə nəticələndikdə, həmin vasitələri və maddələri vermiş şəxsin hərəkətləri işin hallarından asılı olaraq, Cinayət Məcəlləsinin şəxsiyyət əleyhinə olan müvafiq maddələri ilə də tövsif olunmalıdır.

17. Məhkəmələrə izah edilsin ki, Cinayət Məcəlləsinin 226-1-ci

maddəsinin qeydində göstərilən «narkotik vasitələrin könüllü surətdə təhvil verilməsi» dedikdə, həmin vasitələrlə istədiyi kimi sərəncam vermək imkanına malik olan şəxsin bu vasitələrin hakimiyyət nümayəndəsinə könüllü təhvil verilməsi başa düşülməlidir.

Qeyri-tibbi məqsədlərlə narkotik vasitələr istehlakı ilə əlaqədar olaraq tibb idarələrinə könüllü müraciət etmiş şəxs, o halda qanunsuz olaraq narkotik vasitələr əldə edilməsinə, saxlanmasına, daşınmasına və göndərilməsinə görə cinayət məsuliyyətindən azad edilə bilər ki, həmin müraciət narkomaniyadan müalicə olunmaq istəyi ilə əlaqədar olsun və onun ifşa edilməsi ilə bağlı olmasın.

18. Bu cinayətlər üzrə narkotik vasitənin, güclü təsir edən və zəhərli maddənin növü, adı, xüsusiyyəti və eləcə də əkilmiş və becərilmiş bitkilərin Cinayət Məcəlləsin-in 227-ci və 227-1-ci maddələrində göstərilən növlərinə aid olub-olmaması mütləq ekspertiza rəyi ilə müəyyən edilməlidir.

19. Məhkəmələr narkotik vasitələrin, güclü təsir edən və zəhərli maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətləri törətmiş şəxslər barəsində cəza təyin edərkən, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 35-ci maddəsində göstərilmiş cəza təyin etmənin ümumi prinsiplərini rəhbər tutmalıdır.

Bu zaman törədilmiş cinayətin ictimai təhlükəlilik dərəcəsinə, təqsirkarın şəxsiyyətinə (məsələn, residivistlər, mütəşəkkil qruplar tərkibində həmin cinayətləri törətmiş şəxslər, narkotik vasitələrin, güclü təsir edən və zəhərli maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə aparmalı olan, narkotik vasitələrin saxlanması həvalə edilən, onlardan müalicə və digər məqsədlər üçün istifadə hüququ olan şəxslər və s.); cinayətin edilmə şəraitinə (məsələn, belə cinayətlər törədilərkən zor və silah tətbiq edildikdə, humanitar əməliyyatları həyata keçirmək üçün nəzərdə tutulmuş nəqliyyat və s. vasitələrdən narkotik vasitələrin, güclü təsir edən və zəhərli maddələrin qanunsuz daşınması üçün istifadə edildikdə, bu növ cinayətlər islah, hərbi, tibbi müalicə, maarif və təhsil müəssisələrində, idman və ictimai tədbirlər keçirmək üçün nəzərdə tutulan digər yerlərdən istifadə etməklə törədildikdə, narkotik vasitələr, güclü təsir edən və zəhərli maddələr azyaşlı və əqli



cəhətdən inkişaf etməmişlərə təklif və təqdim edildikdə, narkotik vasitələrin, güclü təsir edən və zəhərli maddələrin satılması, insan ölümü və səhhətə ziyan vurmaqla nəticələndikdə və s.) diqqət yetirilməlidir.

Bu halların cəza təyin edilərkən nəzərə alınması Azərbaycan Respublikasının 1992-ci il oktyabrın 28-də qoşulduğu Birləşmiş Millətlər Təşkilatının «Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizə haqqında» 1988-ci il Konvensiyasının tövsiyələrindən də irəli gəlir.

20. Cinayətin mütəşəkkil dəstə tərəfindən edilməsi Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 37-ci maddəsinin 2 bəndində məsuliyyəti ağırlaşdıran hal kimi göstərildiyindən, məhkəmələr bu növ cinayətlər üzrə təqsirli şəxslərə cəza təyin edərkən, həmin halı mütləq nəzərə almalıdırlar.

Dəstənin mütəşəkkil olmasını bir qrup şəxsin ediləcək cinayəti əvvəlcədən planlaşdırması, cinayətkar qəsdin həyata keçirilməsi üçün vasitələrin hazırlanması, cinayətin iştirakçılarının seçilməsi və dəstəyə cəlb edilməsi, dəstəyə cəlb olunanların arasında rolların bölünməsi, cinayətin gizlədilməsini təmin edən tədbirlərin görülməsi və sair əlamətlər xarakterizə edə bilər.

21. Məhkəmə narkoman olan təqsirli şəxsə cəza təyin edərkən, onun məcburi müalicəyə göndərilməsi məsələsini həll etməlidir. Müalicə belə şəxsə zərərli təsir göstərdikdə, bu halda hökmdə Cinayət Məcəlləsinin 55-ci maddəsinin tətbiq edilməməsinin səbəbləri əsaslandırılmalıdır.

22. Narkotik vasitələrin, güclü təsir edən və zəhərli maddələrin qanunsuz dövriyyəsindən əldə edilmiş mənfəətin, əmlakın, vəsaitlərin və ya digər əşyaların müsadirəsini təmin etmək məqsədi ilə ibtidai istintaq orqanı tərəfindən təqsirli şəxsin bank, maliyyə və kommersiya sənədləri üzərinə həbs qoyulmadığı hallarda, məhkəmələr bu tədbirin həyata keçirilməsini təmin etməlidir.

23. İstintaq orqanı Azərbaycan Respublikası Cinayət-prosessual Məcəlləsinin 147-ci maddəsinin tələblərinə zidd olaraq narkotik vasitələrin, güclü təsir edən və zəhərli maddələrin əldə etmə mənbələri barədə cinayət işi əvəzinə material ayırdıqda, məhkəmələr bu qanun pozuntusuna öz münasibətlərini bildirməlidir.

24. Məhkəmələr Azərbaycan Respublikası Cinayət-prosessual Məcəlləsinin 63-cü maddəsinin tələbinə uyğun olaraq, bu kateqoriyadan olan cinayətlərin baş verməsinə kömək edən səbəb və şəraiti müəyyən edib aradan qaldırılması üçün tədbirlər görməlidir.

Həyətyanı və digər torpaq sahələrində qanunsuz olaraq becərilməsi qadağan edilmiş bitkilərin əkilməsi və becərilməsi halları aşkar edildikdə, məhkəmələr, müvafiq tədbirlər görməlidir.

25. Narkotik vasitələr, güclü təsir edən və ya zəhərli maddələr üzrə cinayət işlərində maddi sübutların məsələsi həll edilərkən, məhkəmələr, istifadəyə yararlı olan narkotik vasitələrin, güclü təsir edən və zəhərli maddələrin əczaçılıq sənayesinə verilməsini, onların istifadə edilməsinə və ixracına icazəsi olan xüsusi dövlət müəssisəsinə verilməsini, yaxud da məhv edilməsini hökmdə mütləq göstərməlidir.

Məhkəmələrə tapşırılsın ki, maddi sübutların məhv edilməsi ilə bağlı hökmlərin icrasına nəzarəti gücləndirsinlər.

26. Yuxarı məhkəmə instansiyaları bu növ işlərin məhkəmələrdə baxılma keyfiyyətinə tələbkarlığı artırmalı, yol verilmiş nöqsanları vaxtında müəyyən edərək aradan qaldırmalıdır.

27. Bu qərarın qəbul edilməsi ilə əlaqədar, Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun «Narkomaniyaya qarşı mübarizəyə yönələn qanunların tətbiq edilməsinə dair məhkəmə təcrübəsi haqqında» 1992-ci il 28 dekabr tarixli 3 saylı qərarı qüvvədən düşmüş hesab edilsin.



## NƏZARƏTDƏ OLAN MADDƏLƏRİN SİYAHISI

### I Cədvəl

**IV Siyahı**

*Narkotik vasitələr haqqında 1961-ci il Konvensiyası*

| | |
|---|---|
| Atsetorfin<br>Kannabis və kannabis qatranı<br>Ketobemidon<br>Dezomorfin<br>Etorfin<br>Geroin<br>Atsetil-alfa-metil-fentanil<br>Alfatsetilmetadol<br>Alfa-metilfentanil | Beta-hidroksifentanil<br>Beta-hidroksi—3—metilfentanil<br>3—metilfentanil<br>3—metiltiofentanil<br>MPPP<br>Para-fluorofentanil<br>PEPAP<br>Tiofentanil |

**I Siyahı**

*Psixotrop maddələr haqqında 1971-ci il Konvensiyası*

| | |
|---|---|
| Brolamfetamin<br>Katinon<br>DET<br>DMA<br>DMQP<br>DMT<br>DOET<br>Etitsiklidin<br>(+"- Lizerqid<br>MDMA<br>Meskalin<br>MMDA<br>N-etil MDA | 4-metilaminoreks<br>N-hidroksi MDA<br>Paraheksil<br>Psilotsibin<br>PMA<br>Psilosin, psilotsin<br>Rolitsiklidin<br>STP, DOM<br>Tenamfetamin<br>Tenotsiklidin<br>Tetrahidrokannabinol<br>TMA<br>V. 92—55737 2384 r |

**II Cədvəl**

**I Siyahı**

*Narkotik vasitələr haqqında 1961-ci il Konvensiyası*

| | |
|---|---|
| Atsetilmetadol<br>Alfentanil<br>Allilprodin<br>Alfametadol<br>Alfa-metiltiofentanil<br>Alfaprodin<br>Anileridin<br>Benzetidin<br>Benzilmorfin<br>Betametadol<br>Betatsetilmetadol<br>Betameprodin<br>Betaprodin<br>Bezitramid<br>Dioksafetil-butirat<br>Klonitazen<br>Koka yarpağı<br>Kokain<br>Kodoksim<br>Xaş-xaş samanının qarışığı<br>Dekstromoramid<br>Diampromid<br>Dietiltiamuten<br>Dietiltiambuten<br>Difenoksin | Dihidromorfin<br>Dimenoksadol<br>Dimepseptanol<br>Dimetiltiambuten<br>Difenoksilat<br>Dipipanon<br>Drotebanol<br>Ekqonin, onun qarışıqları<br>Efirlər və törəmələri<br>Etilmotiltiambuten<br>Etonitazen<br>Etokseridin<br>Fentanil<br>Furetidin<br>Hidrokodon<br>Hidromorfinol<br>Hidromorfon<br>Hidroksipetidin<br>İzometadon<br>Levometorfan<br>Levomoramid<br>Levofenatsilmorfan<br>Levorfanol<br>Metazotsin<br>Metadon |



| | |
|---|---|
| Metadon, aralıq məhsul (4-tsiano—2-dimetilamino-4, 4-difenilbutan)<br>Metildezorfin<br>Metildihidromorfin<br>Metopon<br>Moramid<br>Morferidin<br>Morfin<br>Morfin metobromid və morfinin digər beş valentli azotlu törəmələri<br>Mirofin<br>Nikomorfin<br>Norlevorfanol<br>Noratsimetadol<br>Normetadon<br>Normorfin<br>Norpipanon<br>Morfin-N-oksid<br>Tiryək<br>Oksikodon<br>Oksimorfon<br>Petidin | Petidin, aralıq məhsulu A (4-tsiano-1-metil-4-fenil-piperidin)<br>Petidin, aralıq məhsulu B (4-fenil-piperidin-4-karbon turşusunun etil efiri)<br>Petidin, aralıq məhsulu C (1-metil-4-fenilpiperidin-4-karbon turşusu)<br>Fenadokson<br>Fenampromid<br>Fenazotsin<br>Fenomorfan<br>Fenoperidin<br>Piminodin<br>Proheptazin<br>Properidin<br>Ratsemetorfan<br>Ratsemoramid<br>Ratsemorfan<br>Sufentanil<br>Tebakon<br>Tebain<br>Tilidin<br>Trimeperidin |

**II Siyahı**

*Narkotik vasitələr haqqında 1961-ci il Konvensiyası*

| | |
|---|---|
| Atsetildihidrokodein<br>Kodein<br>Dekstropropoksifen<br>Dihidrokodein<br>Etilmorfin | Nikokodin<br>Nikodikodin<br>Norkodein<br>Folkodin<br>Propiram |

## II Siyahı

*Psixotrop maddələr haqqında 1971-ci il Konvensiyası*

| | |
|---|---|
| Amfetamin<br>Deksamfetamin<br>Fenetillin<br>Levamfetamin<br>Meklokvalon<br>Metamfetamin | Metakvalon<br>Metilfenidat<br>Fenmetrazin<br>Fentsiklidin<br>Metamfetamin ratsematı<br>Sekobarbital |

## III Cədvəl

## III Siyahı

*Psixotrop maddələr haqqında 1971-ci il Konvensiyası*

| | |
|---|---|
| Amobarbital<br>Buprenorfin<br>Katin<br>Tsiklobarbital | Qlutetimid<br>Pentazotsin<br>Pentobarbital |

## IV Siyahı

*Psixotrop maddələr haqqında 1971-ci il Konvensiyası*

| | |
|---|---|
| Allobarbital<br>Alprazolam<br>Amfepramon<br>Barbital<br>Benzfetamin<br>Bromazepam<br>Butobarbital<br>Kamapepam<br>Xlordiazepoksid<br>Klonazepam<br>Klobazam | Etil loflazepat<br>Loprazolam<br>Lorazepam<br>Lormetazepam<br>Mazindol<br>Medazepam<br>Mefenoreks<br>Meprobamat<br>Metilfenobarbital<br>Metiprilon<br>Midazolam |



| | |
|---|---|
| Klorazepat<br>Klotiazepam<br>Kloksazolam<br>Delorazepam<br>Diazepam<br>Estazolam<br>Etxlorvinol<br>Etinamat<br>Etilamfetamin<br>Fenkamfamin<br>Fenproporeks<br>Fludiazepam<br>Flunitrazepam<br>Flurazepam<br>Qalazepam<br>Qaloksazolam<br>Ketazolam<br>Lefetamin | Nimetazepam<br>Nitrazepam<br>Nordazepam<br>Oksazepam<br>Oksazolam<br>Pemolin<br>Fendimetrazin<br>Fenobarbital<br>Fentermin<br>Pinazepam<br>Pipradrol<br>Prazepam<br>Pirovaleron<br>Sekbutabarbital<br>Temazepam<br>Tetrazepam<br>Triazolam<br>Vinilbital |

## MÜNDƏRİCAT


Ön söz ............................................................ 4

Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında Azərbaycan Respublikasının Qanunu ............................................................ 7

"Narkotık vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ............................................................ 32

Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin, psixotrop maddələrin, habelə Azərbaycan Respublikasının ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya (xüsusi razılıq) tələb olunan prekursorların siyahıları ............................................................ 37

Narkoloji xidmət və nəzarət haqqında Azərbaycan Respublikasının Qanunu ............................................................ 47

Narkoloji xidmət və nəzarət haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ............................................................ 70





Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında Azərbaycan Respublikasının Qanunu *(çıxarış)* ............................................................ 74

Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında Azərbaycan Respublikasının Qanunu *(çıxarış)* ............................................................ 75

Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı *(çıxarış)* ............................................................ 76

Xroniki alkoqoliklərin və narkomanların ixtisaslaşdırılmış tibb müəssisələrində saxlanması rejimi, normativləri və müalicəsi haqqında əsasnamə ............................................................ 79

Sərxoşluq hallarının bütün növlərinin və insan bədəni daxilində narkotik vasitələrin və psixotrop maddələrin gizlədilməsi hallarının müəyyən edilməsi məqsədi ilə tibbi müayinənin keçirilməsi qaydası ............................................................ 86

Narkotik vasitələrin və psixotrop maddələrin tibbi məqsədlərlə istifadə edilməsi qaydası və şərtləri, habelə narkoloji xəstələr barəsində tibbi tədbirlərin tətbiq edilməsi qaydası ............................................................ 90

Narkotik vasitələrin və psixotrop maddələrin şəxsi istehlak üçün nəzərdə tutulan miqdarı ........ 107
Narkotik vasitələrin və psixotrop maddələrin istehsalında istifadə edilən və dövriyyəsinə nəzarət edilən avadanlığın siyahısı ........ 110
Fiziki şəxslər tərəfindən istehsal və kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi qaydaları ........ 111
İnsan psixikasına təsir göstərən maddələrin sui-istifadəsi ilə əlaqədar detoksifikasiyanın keçirilməsi qaydası ........ 119
İnsan həyatı üçün təhlükə yaradan üsullarla narkoloji xəstələrin müalicəsi qaydası ........ 120
Narkoloji yardımın həyata keçirilməsi zamanı şəxslər üzərində xüsusi müşahidənin aparılması qaydası ........ 122
Narkoloji tibb müəssisələrində təhlükəsizlik tədbirlərinin tətbiq edilməsi qaydası ........ 124
Narkoloji xəstələrin qeydiyyatının aparılması qaydası və onların qeydiyyatda olma müddəti ........ 126
Narkoloji xəstələr üçün fəaliyyət məhdudiyyəti nəzərdə tutulmuş peşə növlərinin və vəzifələrin siyahısı və məhdudiyyətin müddəti ........ 129



Narkoloji xəstəliklərin siyahısı ........ 131
Şəxsin narkoloji xəstəliyə düçar olmasının (narkoloji xəstəliyin diaqnozunun) müəyyən edilməsi və ya təsdiqlənməsi məqsədi ilə tibbi yoxlamanın aparılması qaydası ........ 135
Dövlət büdcəsinin vəsaiti hesabına göstərilən narkoloji yardımın minimal standartları ........ 139
Peşə fəaliyyətinin ayrı-ayrı növləri və yüksək təhlükə mənbəyi ilə bağlı olan fəaliyyətlə məşğul olan şəxslərin dövlət narkoloji tibb müəssisəsində tibbi müayinədən (tibbi yoxlamadan) keçməsi qaydası ........ 140
Narkotik vasitələrin, psixotrop maddələrin saxlanılması, alınması, satılması, əldə edilməsi, bölüşdürülməsi, buraxılması, daşınması, göndərilməsi, onlardan istifadə edilməsi, habelə narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsinə dair sənədlərin tərtib edilməsi, saxlanılması və onların dövriyyəsi ilə əlaqədar qanunvericiliklə nəzərdə tutulmuş digər əməliyyatların həyata keçirilməsi qaydası ........ 142
Narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsinə və onların prekursorlarının idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına, habelə narkotik vasitələrin və psixotropmaddələrin qanunsuz dövriyyəsində iştirak edən,

o cümlədən narkomanlıq xəstəliyinə düçar olan şəxslərə dair ümummilli məlumat bankına məlumatların göndərilməsi və oradan məlumatların alınması qaydası ........................................ 163
Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müsadirə edilmiş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi qaydası ........................................ 167
Qanunsuz dövriyyədən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müsadirə edilmiş, lakin dərman preparatları şəklində olduğuna və tibbi məqsədlərlə istifadə oluna biləcəyinə görə məhv edilməsi məqsədəuyğun olmayan narkotik vasitələrin və psixotrop maddələrin tibbi məqsədlərlə istifadə edilməsi üçün təhvil verilməsi qaydası ........................................ 169
Azərbaycan Respublikasının Cinayət Məcəlləsi *(çıxarış)* .......... 171
Azərbaycan Respublikasınınİnzibati Xətalar Məcəlləsi*(çıxarış)* ..... 181
Narkotik vasitələrin, güclü təsir edən və zəhərli maddələrin qanunsuz dövriyyəsinə dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında Azrəbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun Qərarı ........................................ 183



QEYDLƏR ÜÇÜN

QEYDLƏR ÜÇÜN



QEYDLƏR ÜÇÜN

QEYDLƏR ÜÇÜN



QEYDLƏR ÜÇÜN

# NARKOTİK VASİTƏLƏR, PSİXOTROP MADDƏLƏR VƏ PREKURSORLAR

## *(SƏNƏDLƏR TOPLUSU)*

CBS
POLYGRAPHIC PRODUCTION
Tel/Fax: 447 75 04, Tel: 447 75 06

mətbəəsində çap olunub

X6X1
N 23

# SCAD

## Southern Caucasus Anti-Drug Programme

## Cənubi Qafqazda Narkotiklərə Nəzarət Proqramı

SCAD is a regional programme for the prevention of drug abuse and drug trafficking in Southern Caucasus
SCAD is funded by the European Union

www.scad-az.org